40 SUAL VƏ 40 CAVAB

(Tövhid və ilahi ədalət)

Müəllif: Doktor Məhəmmədrza Kaşifi Tərcümə edən: Rza Şükürlü



بسم الله الرحمن الرحیم

SUAL VƏ ۴۰ CAVAB ۴۰

:Müəllif

Məhəmməd Riza Kaşifi

:Çap nəşriyyat

əl–Mustafa (s) Beynəlxalq Tərcümə və Nəşr mərkəzi

:Digital nəşriyyat

İsfəhan Qaimiyyə adına komputer araşdırmalar mərkəzi

Mündəricat

SUAL Və ۴۰ CAVAB ۴۰

KİTAB HAQQINDA

Kitabın adı: ۴۰ sual və ۴۰ cavab

Müəllif: Doktor Məhəmmədrza Kaşifi

Tərcümə edən: R. Şükürlü

Redaktor: H. Arzu, M. Zalov

Kompyuterdə yığan: V. Əsədov

Naşir: Beynəlxalq əl-Mustafa (s) Universiteti

Çap tarixi: ۲۰۱۱

Çap növbəsi: Birinci

Tiraj: ۱۰۰۰

:Ünvan

İran, Qum, Şühəda meydanı, Höccətiyyə prospekti, Höccətiyyə mədrəsəsinin qarşısı, .Beynəlxalq əl-Mustafa (s) Universitetinin nəşriyyatı

Telfaks: +۹۸ ۲۵۱ ۷۷۳۰۵۱۷

İran, Qum, Mühəmməd Əmin (s) prospekti, Elmlər Universitetinin nəzdi, Beynəlxalq .əl-Mustafa (s) Universitetinin nəşriyyatı

Tel/Faks: +۹۸۲۵۱ ۲۱۳۳۱۰۶ / +۹۸۲۵۱ ۲۱۳۳۱۴۶

www.miup.ir, www.eshop.miup.ir

E-mail: Admin@miup.ir, Root@miup.ir

İŞARƏ

بسم الله الرحمن الرحيم

BİSMİLLAHİR-RƏHMANİR-RƏHİM

Tədqiqat şöbəsi

SUAL VƏ ۴۰ CAVAB ۴۰

(Tövhid və ilahi ədalət)

Müəllif: Doktor Məhəmmədrza Kaşifi

Tərcümə edən: Rza Şükürlü

səh:۳

NAŞİRDƏN

Hər hansı inkişaf mərhələsini keçən elmi-tədqiqi bir iş ilkin olaraq yazıçının ilham zəmisinə səpdiyi sorğu-suallarla başlayıb, müəyyən zamanda verdiyi səmərə ilə yekunlaşır. Əlbəttə, bu işin sonu yox, yeni-yeni fəaliyyətlər üçün ümid və təşəbbüs deməkdir. Belə ki, əldə olunan hər bir səmərəli qazancın məhsuldarlığı həmişə onun artımı üçün şərait yaradır. Demək, zaman keçdikcə elm, bilik, hünər əhli onun .toxumlarını becərib-yetişdirir, daim elm və mədəniyyətin cərəyanını təmin edir

Fasilə və hüdudları həddən artıq azaldan son müasir zamanımız coşqun tufan kimi, maraqlanan hər şəxsin qarşısına qalaq-qalaq məlumatı sovurub gətirir, mədəniyyətin yeni bir mərhələsinə qapı açır. Hər halda onun normal inkişafında, şübhəsiz, düzgün .təsəvvür və istiqamət həlledici rola malikdir

Beynəlxalq əl-Mustafa (s) Universiteti ümumdünyəvi rolu, dini hövzələr arasında xüsusi yeri və yetdik kadr imkanına malik olduğunu nəzərə alaraq, artıq, elmi təhqiqat və tədqiqatlar üçün geniş şərait yaratmağı qarşısına qəti məqsəd qoymuşdur. Bununla əlaqədar Beynəlxalq əl-Mustafa(s) Universitetinin tədqiqat şöbəsi fundamental proqramın

təşkili, mövcud avadanlığın düzgün təmini və dini sahələrdə araşdırma aparmaq istəyənlərin cəlb olunmasını özünün ən mühüm vəzifələrindən bilir. Ümid edirik ki, elmi-təhqiqi işlərə qarşı maraq və dirçəlişlərə zəmin yaratmaq və potensial imkanları inkişaf etdirməklə dünyanın hər bir guşəsində dini mədəniyyətin çiçəklənməsinin şahidi olaq!

(Beynəlxalq əl-Mustafa(s

Tərcümə və Nəşr Mərkəzi

MÜNDƏRİCAT

FREYDİN NƏZƏRİYYƏSİ VƏ QORXU AMİLİ.١

İŞARƏ

Sual: Məşhur psixoloq Freyd deyir: "İnsan özündən böyük və qüdrətli bir şəxsin ona dayaq olduğunu hiss etməyə möhtacdır. Beləcə o, "Tanrı" adlı varlığa itaət etməyə ehtiyac duyur. Əslində, Tanrı yoxdur və o, sığınacaq axtaranlar və "Tanrı" adlı varlığa pərəstiş edənlərin təsəvvürüdür." Bu, Freydin sözləridir. Ona necə cavab verə ?bilərsiniz

Avstriyalı məşhur nevropatoloq və psixoloq Ziqmund Freyd (١٨٥٦-١٩٣٩) öz nəzəriyyələrini bəyan edərkən insandakı qorxu hissini Allaha inam və dindarlığın əsas amili hesab edir. Əlbəttə, bu nəzəriyyə ondan öncə də irəli sürülmüşdür. Çox ehtimal ki, həmin nəzəriyyəni açıq şəkildə bəyan edən ilk şəxs (b.e.ə təqr. ٩٩-٥٥) romalı şair Tit Lukertsi Kardır. O, öz şeirlərinin birində belə deyir: "Tanrıları yaradan ilk şey qorxudur." Bir sözlə, bu nəzəriyyəyə əsasən, sel, zəlzələ, xəstəlik, ölüm və bu kimi təbii hadisələrdən yaranan qorxunu bütün təbii hadisələr üçün müştərək amil hesab edərək onu Allah adlandırır. Z. Freydin nəzərincə, insanı Allah yox, əksinə Allahı insan yaratmışdır. Həqiqətdə, insanların zehnində dini inancların yaranış səbəbi təbii hadisələrdən doğan qorxu hissi və özlərini qorumaq istəyidir. Qədim

insanlar dəhşətli hadisələr müqabilində təhlükə və qorxudan amanda qalmaq üçün tədricən qüdrətli, dərrakəli və təbiətə hakim varlıqlara inanmağa başladılar ki, xahiş, dua, ibadət, qurbanlıq və bu kimi əməllər vasitəsilə həmin varlıqların məhəbbətini cəlb edib təhlükəni özlərindən uzaqlaşdırmaq istəyirdilər. Onun fikrincə, insanın Allaha üz tutmasının səbəbi qədimdə də, müasir dövrdə də qorxu hissi olmuş və bu baxış hələ də qüvvədə qalmaqdadır. Çünki insan tarixi bir varlıqdır və keçmişdəki varlığın (xüsusiyyətləri müxtəlif nəsillər vasitəsilə müasir insana ötürülür.(١

QORXU AMİLİNƏ İRADLAR

Bu nəzəriyyə yalnız bir fərziyyə və ehtimaldır və onun isbatı üçün heç bir dəlil də .١ .yoxdur

Ümumiyyətlə, insanın qorxusunda iki əsas amil rol oynayır: Biri məlumatsızlıq, digəri .٢ isə fiziki və ruhi zəiflik. İnsan tanımadığı və məlumatlı olmadığı bir çox gerçəkliklər müqabilində qorxu hissi keçirir. Onun məlumatı artdıqca, qorxusu da azalır. Məsələn, xəstəliyə tutulan və onun səbəbini bilməyən bir insan təsəvvür edək. Onun həmişə qəm-qüssə, həyəcan içində olduğunu görəcəksiniz. Çünki o, əlacsız xəstəliklərə tutulduğunu ehtimal edir. Lakin həkimə müraciət edib xəstəliyinin səbəbini öyrəndikdə, onun elə də təhlükəli olmadığını başa düşür, qorxu və həyəcanı aradan .qalxır

Fiziki və ruhi çatışmazlıq da insanda qorxu yaradır. İnsan bəzi ruhi-psixoloji xəstəliklərə yoluxduqda, həmişə qorxu və iztirab halında olacaqdır. Ruhi-psixoloji .sağlamlığa malik olanlar isə bir çox təhlükələrdən qorxmurlar

Deməli, insanın məlumatı artdıqca, bir çox ruhi-psixoloji gərkinliklərdən xilas olur və qorxu hissi keçirmir. Bunu nəzərə almaqla, Z. Freydin "Allaha inamın səbəbi qorxudur"!

.Xuda dər əndişeyi bəşər", Abdullah Nəsri, səh. ٣٨-٤٠" . [١] -١

nəzəriyyəsinə diqqət yetirək. Bu nəzəriyyəyə görə, insanın məlumatı artarsa və – ruhi-psixoloji sağlamlığa malik olarsa, onun qorxusu aradan qalxar və Allaha inanmaz. Başqa sözlə, heç bir hadisədən qorxmayan, eləcə də, məlumatının artması və ruhunun sağlamlığı nəticəsində qorxusu aradan qalxan insan Allaha inanmamalıdır. Halbuki, .həyatda həmişə bunun əksi müşahidə olunur

Fərz edək ki, insanların hamısı və ya bir qrupu qorxudan "Allah" adlı bir varlığa inanıb .۳ Ona itaət edir. Məntiqə əsasən, yenə də "Allah yoxdur, bütün dinlər puç və batildir!" – nəticəsini ala bilmərik. Freydin nəzəriyyəsinin düzgün olduğunu fərz etsək belə, bunu isbat etmiş olarıq ki, insanların din və Allaha inanmasında rol oynayan səbəb düzgün deyil.(۱) Bu da, "Allahın varlığı və hər hansı bir dinin haqq olmasını" inkar etməkdən .tamamilə fərqlənir

Bu misala diqqət yetirin: Tarix boyu bəşər cəmiyyətinin elmi ixtira və kəşflər etməkdə əsas məqsədi məşhurlaşmaq, ictimai mövqe qazanmaq və sərvət toplamaq olmuşdur. Bunu əxlaqi və düzgün məqsəd hesab etmək olmaz. Lakin insanın elmi ixtirda məqsədinin düzgün olmaması elmi ixtiranın puç və yersiz olduğunu göstərmir. Bir sözlə, bu nəzəriyyədə səbəblə (insanı hansısa bir şeyə sövq edənlə) nəticə (insanın nail olduğu şey) arasında uyğunsuzluq yaranmış və birinin batil sayılması digərinin batil .hesab edilməsi ilə nəticələnmişdir

:Bu nəzəriyyənin batil olmasını isbat edən amillər .۴

a) Tarix özü şəhadət verir ki, dini gətirən və camaatı Allaha doğru dəvət edənlər ən .şücaətli və dözümlü şəxslər olmuşlar

b) Dünyada Allaha əsla etiqad bəsləməyən qorxaq insanlar da çox olmuşdur və hal-.hazırda da mövcuddur

---

.Yəni insanların Allaha və dinə inanmalarının səbəbi qorxudursa, bu yanlışdır . [۱]-۱

Bizim əqidəmizə əsasən, Allahın varlığına inam tarix boyu bütün insanların fitrətində və daxilində olmuşdur; yəni (məsələn) məhəbbətin yaxşı iş olması, həqiqəti tapmaq hissinin bütün insanların fitrətində mövcudluğu səbəbə ehtiyaclı olmadığı kimi, "Allahı tanımaq" və "Ona itaət" hissi də fitridir. İlahi fitrət onları Allaha inanmağa sövq edir.(١)

səh:١٢

١- [١] . Əlavə məlumat əldə etmək istəyənlər Şəhid Mürtəza Mütəhhərinin "Fitrət" kitabına müraciət edə bilərlər.

ÇOXALLAHLILIQ FƏRZİYYƏSİNİN BATİLLİYİ.۲

İŞARƏ

Sual: Mən Allahın varlığına şübhə etmirəm, lakin sizdən Onun yeganəliyini isbat etməyi .xahiş edirəm

ALLAHIN YEGANƏLİYİNİN İSBATI

Allahın yeganəliyinin isbatı ilə əlaqədar müxtəlif dəlillər mövcuddur. Biz onların birini şərh etməklə kifayətlənirik. Bu dəlilin başa düşülməsi üçün iki müqəddiməyə diqqət :yetirmək lazımdır

Hər bir nəticənin varlığı öz səbəbinə bağlıdır; başqa sözlə, səbəb-nəticə qanununa .۱ əsasən, hər bir məxluq (nəticə) varlığını xaliqdən, yəni onu yaradan səbəbdən alır. Əgər onların şərtlərə və istedadlara ehtiyacı olarsa, varlıqları da mütləq özünü yaradan səbəbə istinad etməlidir. Buna əsasən, əgər iki, ya ikidən çox varlıq bəxş edən səbəbi fərz etsək, onların hər bir nəticəsi öz səbəbindən asılı olar və əsla başqa bir səbəbə, yaxud onun nəticələrinə bağlı olmaz və sonunda onların nəticələri arasında .əlaqə və bağlılıq yaranmaz

Varlıq aləminə vahid nizam hakim kəsilmişdir. Onda uyğun və uyğunsuz . ۲ fenomenlərin bir-birlərilə əlaqələri var. Uyğun fenomenlər arasındakı əlaqələr müxtəlif səbəb-nəticə

qanununun təsirindədir. Bu qanunlar dəyişikliklərə səbəb olur və onları heç bir şəkildə inkar etmək olmaz. Lakin keçmiş, indiki və gələcək fenomenlər arasındakı əlaqələr belədir: Keçmiş fenomenlər indiki fenomenlərin vücuda gəlməsinə zəmin yaradır. İndiki fenomenlər də öz növbəsində, gələcək fenomenlərin yaranmasına zəmin hazırlayır. Əgər səbəb-nəticə əlaqələri dünya fenomenlərinin arasından götürülsə, dünyadan əsər-əlamət qalmaz və digər bir fenomen də vücuda gəlməz. Necə ki, insanın hava, su, işıq və qida məhsulları ilə əlaqəsi kəsilsə, artıq öz yaşayışını davam .etdirib başqa bir insanın dünyaya gəlişinə zəmin yarada bilməz

Bu iki müqəddiməyə əsasən, belə bir nəticə çıxarmaq olar ki, saysız-hesabsız keçmiş, indiki və gələcək fenomenlərin, varlıq toplumuna aid olan bu dünya və onun nizamının bir xaliqi və yaradanı var. (Dünya və ona hakim nizam) Allahın nəzarəti, hikmətli tədbiri və müdrikliyi ilə idarə olunur. Əgər Ondan başqa tanrı olsaydı, onlar arasında əlaqə və bağlılıq yaranmaz, dünyaya da vahid nizam hakim kəsilməzdi. Eləcə də, hər bir xaliq öz xaliqi tərəfindən yaranar və onun xaliqi başqa xaliqlərin köməyilə vücuda gələrdi. Nəticədə, müxtəlif və müstəqil nizamlar, varlıqlar yaranardı və onlar arasında heç bir bağlılıq olmazdı. Halbuki, dünyada mövcud olan nizamlar bir-birilə əlaqəli vahid (nizamdandır və onların fenomenləri arasında da bağlılıq müşahidə olunur.(۱

Amuzeşe fəlsəfə”, Ayətullah Misbah Yəzdi, ۲-ci cild, səh. ۳۵۹-۳۶۰ . Əlavə“ . [۱] -۱ məlumat əldə etmək üçün bax: “Üsuli fəlsəfə və rəveşe realizm”, Əllamə Təbatəbai, ۵-.ci cild, səh. ۱۱۱-۱۲۳

QURANDA ALLAHITANIMA (MƏRİFƏT) YOLLARI.۳

İŞARƏ

Sual: Qurani-Kərimdə insanların Allah-taalanı tanıması müqabilində (inkar, şəkk, şəhadət və yəqin kimi) müxtəlif mövqelər bəyan olunmuşdur ki, bu, insanlar arasında (kafir, münafiq, müsəlman və möminlər kimi) müxtəlif qrupların yaranmasına səbəb olur. Həmin səbəbdən də mənə tam aydın deyil ki, bu mövqelər əməldə necə aşkar ?olur

QURANDA MƏRİFƏT

QURANDA MƏRİFƏT

Qurani-Kərimdə mərifət və onun əsasları, – elm və alim, – eləcə də, şərtləri, vasitə və (maneələri haqqında geniş şəkildə söz açılmışdır.(۱)

MƏRİFƏT VƏ ALLAHA İNAM

İŞARƏ

İman mərifətlə əlaqəli olduğundan, Qurani-Kərimdə "Allahı tanımaq" məsələsinə ciddi əhəmiyyət verilir, onun maneələri və ona nail olmaq yolları təyin olunur. Mərifətin

---

Bu məsələ barəsində geniş məlumat əldə etmək istəyirsinizsə, aşağıdakı . [۱] -۱ kitablara müraciət edə bilərsiniz: ۱. "Şenaxtşenasi dər Quran", Cavad Amili; ۲. "Şenaxt .əz didqahi-Quran", Behişti və Məhəmməd Hüseyni

maneələrinə kor-koranə təqlidləri(۱), empirik idrakı(۲) və gümana əsaslanmağı(۳); Allaha yönəlmə maneələrinə isə, ani həvəs və istəkləri,(۴) insanın gələcək rifahı barədə ifrat dərəcədə fikirləşməsini,(۵) Allah, peyğəmbər və dinlə(۶) düşmənçiliyi misal göstərmək olar.(۷)

Qurani-Kərimdə dini məsələlər, xüsusilə, "tövhid" və "məad" barədə zənn, şəkk, inkar, müsbət və mənfi şəkildə şəhadət kimi ifadələr işlədilir. Burada incə bir nöqtəyə diqqət yetirmək lazımdır: İnsanları ümumi şəkildə bu qruplara bölüb, (misal üçün) "inkar" ifadəsini yalnız kafirlərə, "şəkk" ifadəsini yalnız müşrik, yaxud münafiqlərə, "şəhadət" ifadəsini isə yalnız müsəlmanlara aid etmək olmaz.

Misal üçün: "Ğafir" surəsinin ۸۱-ci və "Muminun" surəsinin ۹۹-cu ayələrində "inkar" sözü kafirlər barəsində işlədilsə də, onlar "İbrahim" surəsinin ۱۰-cu və "Səbə" surəsinin ۵۴-cü ayələrində "şəkk və tərəddüd" ifadələri ilə vəsf olunurlar. "Ğafir" surəsinin ۵۹-cu və "Tövbə" surəsinin ۴۵-ci ayələrində qeyri-möminlərin şəkkə düçar olmalarından söz açılır. "Qeyri-möminlər" isə həm münafiqlərə, həm kafirlərə, həm də müşriklərə aid edilir. "Münafiqun" surəsinin ۱-ci ayəsində də onların dildə şəhadət vermələrinə işarə olunduğu zaman, elə həmin ayədə onların qəlbən (Peyğəmbəri) inkar etmələri də açıqlanır.

Bu ifadələrin, eləcə də, kafirlərin, müşrik, münafiq, müsəlman və möminlərin Allah, məad və dini məsələlərə inamları qarşısında mövqelərinin məlum olması üçün Quran

---

۱- [۱] . "Zuxruf", ayə: ۲۲-۲۳.

۲- [۲] . "Bəqərə", ayə: ۵۵; "Furqan", ayə: ۲۱, ۳۳ və ۳۴.

۳- [۳] . "Yunis", ayə: ۳۶ və ۶۶; "Sad", ayə: ۲۷.

۴- [۴] . "Mühəmməd", ayə: ۱۳.

۵- [۵] . "Təkasur", ayə: ۱-۲; "Hicr", ayə: ۳; "Hud", ayə: ۱۵-۱۶.

۶- [۶] . "Muddəssir", ayə: ۱۱-۲۵.

۷- [۷] . Bax: "Peyami-Quran", Məkarim Şirazi, ۱-ci cild, səh. ۳۱۶-۴۲۳.

ayələrini yanaşı nəzərdən keçirmək daha yaxşı olardı. Lakin mövzunun genişliyini nəzərə alıb “şəkk”, “zənn” və “yəqin”in mərifət və Allaha yönəlməklə əlaqədar tərif və :təsirlərini araşdırmaqla kifayətlənirik

QURANDA ŞƏKK .١

İŞARƏ

:Şəkk bir nöqteyi-nəzərdən üç qismə bölünür

:Təbii şəkk .١

Həqiqət axtarışında hər hansı bir hadisənin, hərəkətin, hökmün predmeti və predikatı arasında əlaqənin tapılmasında tərəddüd və zehni işlətmək. Bu növ şəkk təbiidir və həyəcan dolu ehtimalları aradan qaldırır. Buna əsasən, hadisənin digər tərəfindəki əsaslı və faydalı yəqinlərə təbii şəkk demək olar. İnsanı yəqinə çatdıran bu növ şəkk .zahiri imandan olduqca üstündür

:Vasvaslıq .٢

Bu, həqiqət axtarışında müddəalar və sübutlarla üzləşdikdə, zehnin acizliyindən irəli gəlir. Bu şəkkin səbəbi zehnin həqiqətləri araşdırıb, onları xəyallardan ayırarkən qorxuya düşməsidir. Şəkkin özünəxass xüsusiyyətlərindən biri beyin fəaliyyətlərindən xilas olmaq üçün zehni rahatlıq təmayüllü olmasıdır. Bu şəkk həqiqətdə mərifətin .antonimidir

:Əsaslı şəkk .٣

Bu, zəif imanlı şəxslərin yüksək təfəkkür sahibi olduqlarını göstərməsidir. Buna düçar olanlar iddia edirlər ki, mərifət və idrak məqamına nail olmuşlar. Şəkk və tərəddüddən başqa, yol tapa bilməmiş, yaxud həqiqətə çatmaq üçün şəkk edənlərə məhəbbət !bəsləmişlər ki, onların şəkki həqiqətləri tapmağa olan eşq üzündəndir

Qurani-Kərimdə məzəmmət edilən şəkk “təbii şəkk” yox, “əsaslı şəkk” və (“vasvaslıq”dır.(١

۱- [۱] . Bax: "Şenaxt əz didqahe elmi və didqahe Quran", Məhəmməd Təqi Cəfəri, səh.
.۳۱۰-۳۱۲

QURANDA ŞƏKK EDƏNLƏR HAQQINDA

İŞARƏ

Diqqət yetirmək lazımdır ki, Qurani-Kərimdə "şəkk edənlər" dəlil və sübut sorağında olanlar mənasında deyil. Məqsəd xəstəliklə bağlı şəkkə düçar olub yəqinə çatmağı və şəkkin aradan qalxmasını qeyri-mümkün bilən şəxslərdir. Buna əsasən, Qurani-Kərimdə şəkk edənlər iki qrupa bölünür:

Birinci qrup:

"Bilmirəm" və "başa düşmürəm" deməklə şəkkə düçar olduqlarını bildirənlərdir. Yəni onlar açıq-aşkar ayələri görə-görə Yaradan, məad, vəhy, dini təlimlər və prinsiplər barəsində şəkk edirlər.(١)

İkinci qrup:

Allahı, nübuvvət və məadı inkar edən şəxslər. Onlar həqiqətdə bu məsələlərlə bağlı yəqin həddinə çatmamış və şəkkə düçar olmuşlar. Başqa sözlə, onlar heç bir sübutları olmadığı halda, dini prinsipləri dildə inkar edir və məsələyə şübhə ilə yanaşırlar.(٢)

Quran baxımından "şəkk edənlər", məhz, hiss olunmayan məsələləri danırlar. Onlar əmin olmadıqlarını iddia etdikləri halda, peyğəmbərlərin dəvətinin batil olmasını sübuta yetirən bir dəlil göstərmirlər.(٣)

ŞƏKKİN TƏSİRLƏRİ

Qurani-Kərimin "tövhid", "məad", "risalət", "vəhy" və digər dini inanclarla əlaqədar ayələrinə diqqət yetirdikdə, iki əsas nöqtə ilə rastlaşırıq.

١. Şəkk ya qəlbdə, ya dildə, ya da həm qəlb, həm də dildə inkara səbəb olur.(٤)

Bax: “İbrahim” surəsi, ۹-۱۰-cu ayələr; “Hud” surəsi, ۶۲-ci ayə; “Yunis” surəsi, ۱۰۴- . [۱] -۱
. ...cü ayə; “Nəml” surəsi, ۶۶-cı ayə

Casiyə” surəsi, ۲۴ və ۳۲-ci ayələr; “Qaf” surəsi, ۲-۳-cü ayələr; “Muminun” surəsi,“ . [۲] -۲
.۳۳ və ۳۷-ci ayələr

.Bax: “Şenaxtşenasi dər Quran”, səh. ۱۸۱-۱۸۲ . [۳] -۳

İbrahim” surəsi, ayə ۹-۱۰; “Nəml” surəsi, ayə ۶۶; “Casiyə” surəsi, ayə ۳۲;“ . [۴] -۴
.“Muminun” surəsi, ayə ۶۹; “Bəqərə” surəsi, ayə ۲۳ və s

.Bu şəkk bəzən müşriklərə(۱), bəzən də kafirlərə(۲) aid edilir .۲

.Deməli, şirk və küfrə səbəb olan amillərdən biri də şəkdir

İncə bir mətləb: Ayələrdə qeyd olunan "rəyb"in şəkdən müəyyən fərqləri var. "Rəyb" lüğətdə böhtan və bu kimi şeylə yanaşı şəkk və nadanlıq nəticəsində nəfsdə yaranan "iztirab" və "həyəcanlı hal" mənasındadır. Buna əsasən, ayələrdə qeyd olunan "murib" sözü şəkk sifəti olaraq qərar verilmişdir; yəni "həyəcan yaradan şəkk". Buna "Səbə" surəsinin ۵۴-cü ayəsini misal göstərmək olar. Həmin ayədə buyurulur: "Kafirlər "murib" (şəkk) içində idilər." Yəni onlar həyəcanla birgə olan şəkkə düçar olmuşdular. Bəzən insan müəyyən bir ağacın ildə neçə dəfə bar verdiyini bilmədiyi zaman, onda (Quran ayələrində qeyd olunan) "reyb" yox, şəkk yaranır. Bəzən isə yolda bir quldurun pusquda durub-durmaması bilinmir. Burada insanda şəkdən əlavə, həyəcan da baş (qaldırır.(۳

(QURANDA ZƏNN (GÜMAN .۲

:Qurani-Kərimdə beş növ gümandan söz açılır

(Həqiqətə uyğun gəlməyən güman;(۴ .۱

(Həqiqətə uyğun gələn güman;(۵ .۲

(Günah sayılan güman;(۶ .۳

(Həqiqəti kəşf etməyən güman;(۷ .۴

(Məzəmmət edilən güman.(۸ .۵

.Nəml" surəsi, ayə ۶۶; "Hud" surəsi, ayə ۶۲ və ۱۱۰" . [۱]-۱

.Səbə" surəsi, ayə ۵۴; "Fussilət" surəsi, ayə ۴۵; "Qaf" surəsi, ayə ۲-۳" . [۲]-۲

.Quran dər Quran", Cavad Amili, ۱-ci cild, səh. ۳۶۱-۳۶۲" . [۳]-۳

Ənam" surəsi, ayə ۱۱۶; "Casiyə" surəsi, ayə ۲۴; "Ali-İmran" surəsi, ayə ۱۵۴;" . [۴] -۴
."Bəqərə" surəsi, ayə ۷۸; "Həcc" surəsi, ayə ۱۵

۵- [۵] . “Tövbə” surəsi, ayə ۱۱۸; “Haqqə” surəsi, ayə ۱۷-۲۱.

۶- [۶] . “Hücurat” surəsi, ayə ۱۲.

۷- [۷] . “İsra” surəsi, ayə ۵۲.

۸- [۸] . “Nəcm” surəsi, ayə ۲۸.

Ayələrin məcmusuna diqqət yetirməklə Qurani-Kərimin bu məsələyə münasibətini :belə qeyd etmək olar

a) Güman təbii ki, insanı – xüsusilə, gümanın müqəddimələrində nəfsani istəklər olduğu zaman(١) – həqiqətə çatdırmır. Çünki bu halda, güman nəfsin istəklərinə uyub .dəlil və sübutdan uzaqlaşır

b) Məzəmmət edilən güman insanın əqidə üsullarında, xüsusilə, əbədi həyat (qiyamət) .və onunla əlaqəli mövzularda yaranır. Bu məsələlərdə elm və yəqinə çatmaq labüddür

c) İnsanların əksəriyyəti gümana uyur, elm və yəqin əldə etmək üçün özlərini zəhmətə .salmırlar

d) Qurani-Kərimdə pislənilən və həqiqətə uyğun gəlməyən güman ən çox Allaha şərik (qoşanlara aid edilir.(٢

Diqqət yetirmək lazımdır ki, bəzi ayələrdə ("zənn" sözünün yerinə) "zəəm" sözü işlədilmişdir.(٣) "Zəəm" sözü haqqı hiss etməklə yanaşı olan güman mənasını daşıyır. Quran baxımından, "zəəm" (haqqı hiss etməklə yanaşı güman) digər gümanlarla müqayisədə daha artıq sorğu-sual olunacaqdır. Çünki bəziləri səhlənkarlıq və etinasızlıq üzündən güman etsə də, haqqı hiss etməklə yanaşı güman edənlər öz (gümanlarına diqqət yetirmiş və onun üzərində təhqiqat aparmışlar.(٤

QURANDA YƏQİNLİK .٣

İŞARƏ

Predikatın predmetə isbatı, eləcə də, predikatın predmetdən inkarının qeyri-mümkünlüyünə, hər iki hadisədə birinci və ikinci etiqadın aradan getməməsinə "yəqin"lik deyilir. Buna əsasən, "yəqin"in dörd şərti var. Bu şərtlər daxilində

.Nəcm" surəsi, ayə ٢٣" . [١] -١

Ənam" surəsi, ayə ١۴٨; "Yunis" surəsi, ayə ۶۶; "Nəcm" surəsi, ayə ٢٣; "Casiyə"" . [٢] -٢

.surəsi, ayə ٢۴

Cümə” surəsi, ayə ۶; “Nisa” surəsi, ayə ۶٠; “Ənam” surəsi, ayə ٢٢, ٩۴ və ١٣۶;“ . [٣] -٣
.“Kəhf” surəsi, ayə ۵٢; “Qəsəs” surəsi, ayə ۶٢ və ٧۴; “Səbə” surəsi, ayə ٢٢

.Bax: “Şenaxt əz didqahi elmi və didqahi Quran”, səh.٣١۶-٣١٨ . [۴] -۴

güman və şəkk, hətta nadanlıq yəqinlik çərçivəsindən çıxır. Çünki güman və şəkdə predikatın sübut olunmasında, eləcə də, predikatın predmetdən alınmasının qeyri-mümkünlüyündə yəqinlik mövcud deyil. Nadanlıqda da predmetin predikata sübutuna, eləcə də, predikatın predmetdən alınmasının qeyri-mümkünlüyünə yəqinlik yoxdur. Lakin bu iki yəqinin hər ikisi şübhə ilə, yaxud ona əks göstərilən dəlillə aradan qalxır. .Yəqin isə heç vaxt aradan getmir

Qurani-Kərimdə yəqinin dörd şərtindən yaranan zərurəti “la rəybə fihi” (onda heç bir şəkk-şübhə yoxdur) və buna bənzər ifadələrlə bəyan edilir. Məsələn buyurulur: “Bu (Quran), onda heç bir şəkk-şübhə olmayan və təqvalılara doğru yol göstərən (kitabdır.”(١)

La rəybə” (heç bir şəkk-şübhə yoxdur) ifadəsi Quranın inkaredilməz həqiqət olduğunu“ göstərir. Bu kitabda tövhid və məada dəvət, vəhy və risalət iddiası olduğundan onun .müddəaları da danılmaz həqiqətdir

Başqa bir ayədə belə buyurulur: “Ey Rəbbimiz! Həqiqətən, olacağına şübhə edilməyən bir gündə bütün insanları (bir yerə) toplayan Sənsən!”(٢) Ayənin mənası budur ki, Allah-(taalanın insanları bir yerə toplayacağı gün labüddür.(٣

Quranda “yəqin” sözünün qeyd olunan mənası həmin sözdən düzələn digər sözlərlə bir (neçə dəfə təkrarlanmışdır.(۴

.Bəqərə” surəsi, ayə ٢“ . [١] -١

.Ali-İmran” surəsi, ayə ٩“ . [٢] -٢

.Mərifətşenasi dər Quran”, Cavad Amili, ١٣-cü cild, təfsiri mozuyi, səh. ٢۵۵-٢۵۶“ . [٣] -٣

Bax: “Rəd” surəsi, ayə ٢; “Bəqərə” surəsi, ayə ۴ və ١١٨; “Maidə” surəsi, ayə ۵٠; . [۴] -۴ “Nəml” surəsi, ayə ٣ və ٨٢; “Rum” surəsi, ayə ۶٠; “Loğman” surəsi, ayə ۴; “Səcdə” surəsi, ayə ٢۴; “Casiyə” surəsi, ayə ۴ və ٢٠; “Tur” surəsi, ayə ٣۶; “Hicr” surəsi, ayə ٩٩; “Vaqiə” surəsi, ayə ٩۵; “Haqqə” surəsi, ayə ۵١; “Muddəssir” surəsi, ayə ۴٧; “Nisa” surəsi, ayə ١۵٧; “Ənam” surəsi, ayə ٧۵; “Şüəra” surəsi, ayə ٢۴; “Duxan” surəsi, ayə ٧; “Zariyat” .surəsi, ayə ٢٠

Quran baxımından yəqinin müxtəlif dərəcələri var: “elmül-yəqin”, “eynül-yəqin” və .”“həqqül-yəqin

Qurani-Kərim “elmül-yəqin”i “eynül-yəqin”ə çatmaq üçün bir körpü ünvanında tanıtdırır.(۱) Əgər yəqinlik zehni mərifətdən əyani mərifətə çevrilsə, insan zehni cəhətdən inandıqlarını gözləri ilə müşahidə edər. “Təkasur” surəsində buyurulur: “Əgər insan “elmül-yəqin” mərhələsinə çatsa, cəhənnəmi görə bilər.” İnsan “elmül-yəqin” .mərhələsinə çatsa, onu həmin mərhələ ilə tanış edən müqəddiməsi də yarana bilər

Eynül-yəqin”dən yüksək mərhələnin adı “həqqül-yəqin” dir. Bu mərhələdə insan“ nəinki haqqa şahid olur, həm də Allahdan qeyrisini unudur və ilahi mərifətdə qərq olur. (Quran baxımından “həqqül-yəqin” mərifətdə ən üstün yəqin deməkdir.(۲

Ümumiyyətlə, diqqət yetirmək lazımdır ki, nəzəri və zehni yəqinlik həqiqətdə predikatın predmet üçün sübutu və predikatın predmetdən götürülməsinin qeyri-mümkünlüyünü bilməkdir. Bu iki yəqin və elmin aradan qalxmasının qeyri-.mümkünlüyünü müşahidə etmək yəqinə çatmaqdan və canlı müşahidədən fərqlənir

:Quran ayələrində yəqin məsələsi ilə əlaqədar belə nəticələr əldə etmək olar

İlahi nişanələri Allah barəsində yəqinə çatmaq üçün bir növ səbəb hesab etmək .۱ (olar.(۳

Təqvanın yüksək mərhələsinə nail olan və axirət aləminə inananlar özlərini xəyallar, .۲ (zehnin batil göstərişləri və nadanlığa qərq olmaqdan qoruyanlardır.(۴

.Təkasur” surəsi, ayə ۵- ۶“ . [۱] -۱

Haqqə” surəsi, ayə ۵۱; bax: “Mərahele ixtilaf dər Quran”, (təfsiri mozuyi), Cavad“ . [۲] -۲ .Amili, “yəqin” bölümü, ۱۱-ci cild, səh. ۳۵۱-۳۵۶

.Rəd” surəsi, ayə ۲“ . [۳] -۳

.Bəqərə” surəsi, ayə ۴“ . [۴] -۴

۳. Mərifətsiz və təlaşsız yəqin mərhələsinə çatmaq qeyri-mümkündür.(۱)

۴. Yəqindən bəhrələnənlər heç bir maneədən qorxmadan öz yollarına davam edirlər.(۲)

۵. "Yəqin" mərifət və elmin xarici nümunəsi olduğu üçün məlumlara aid edilir. "Məlum olan "əsmayi-hüsna"nın (Allahın gözəl adlarının) sayı çox olduğundan, mərifət və yəqinlər də müxtəlifdir. Hər bir mərifət öz həddinə uyğun yəqindən bəhrələnir. Bu səbəbdən də, yəqin üçün zehndən xaric nümunələri nəzərə almaqla müxtəlif formalar təsəvvür etmək olar.

۶. Yəqinin ən yüksək dərəcəsi "həqqül-yəqin"dir.(۳)

۷. Yəqinlə bağlı məsələlər, xüsusilə, Allahın gözəl adları məhdud olmadığından yəqinliyi, yaxud müşahidə mərhələsini xüsusi çərçivəyə salaraq yəqinin son mərhələsi hesab etmək olmaz. Onun həqiqəti çeşidli nurdan ibarətdir. O, artdığı kimi də hüdudsuzdur.(۴)

۱- [۱]. "Hicr" surəsi, ayə ۹۹.

۲- [۲]. "Səcdə" surəsi, ayə ۲۴; bax: "Şenaxt əz didqahi elmi və didqahi Quran", səh. ۴۹۳-۴۹۹.

۳- [۳]. "Təsnim" (Qurani-Kərimin tərtibi təfsiri), Cavad Amili, ۲-ci cild, səh. ۲۰۵-۲۰۶.

۴- [۴]. Yenə orada; eləcə də "Mizanul-hikmət", Məhəmməd Məhəmmədi Reyşəhri, ۱۰-cu cild, səh. ۷۹۰.

İŞARƏ

Sual: Qurani-Kərimin müxtəlif ayələrində bəyan olunan küfr, şirk, nifaq və imanda məqsəd nədir? Hansı amillər onların yaranmasına səbəb olur? Əgər özümüzü tanımaq istəsək, bu amilləri necə təyin edə bilərik? Mən şirk və ikiüzlülüyün bəzi əlamətləri ilə tanışam və bu əlamətlər məndə də mövcuddur. Buna görə çox narahatam. Onları !aradan qaldırmaq üçün mənə yol göstərin

QURANDA İNSANLARIN QRUPLARA BÖLÜNMƏSİ

Qurani-Kərimin ayələrinə diqqət yetirməklə, insanları ilahi dinə münasibətdə üç qrupa :bölmək olar

Bəziləri dini həm batində, həm də zahirdə qəbul edirlər. Onlar möminlər və . ۱ təqvalılardır. Baxmayaraq ki, bəzən çarəsizlikdən təqiyyə edərək batini imanını gizlədir, onu aşkarlamaq üçün heç bir zəminə tapa bilmir və ya batini imanına zidd (olaraq kafir olduğunu elan edirlər.(۱

.Bəziləri dini həm batində, həm də zahirdə inkar edirlər. Onlar kafirlərdir .۲

.Nəhl" surəsi, ayə ۱۰۶; "Ğafir" surəsi, ayə ۲۸" . [۱] -۱

.Bəziləri yalnız batində kafir olub zahirdə özlərini imanlı göstərirlər .٣

Bu qrup insanlar ya zahirdə və batində dini qəbul edərək mömin olur, ya batində və zahirdə onu qəbul etməyərək kafir olur, ya da onu batində inkar, zahirdə qəbul edərək münafiq olur. Üçüncü qrupun əksini də (təqiyyəni) fərz etmək olar; insan zahirdə dini inkar etsə də, onu batində qəbul edir. Bu qrup da möminlər sırasındadır.(١)

Biz burada Quran ayələrində bəyan olunan bu üç qrup haqda qısa məlumat verməklə :kafirlərin, münafiqlərin və möminlərin əqidələrini açıqlamağa çalışacağıq

QURANDA KÜFR .١

Quran baxımından kafirlərin küfrü və Allahı inkar etməsinin əsas səbəbi ya psixoloji .çatışmazlıq, ya da nadanlıqdır

İmam Baqirdən (ə) belə bir hədis nəql olunur: "İnkara səbəb olan hər şey küfrdür."(٢) Quran ayələri də bunu təsdiq edir: "Kafirlərin yəqini yoxdur!"(٣), "Onlar əql, sübut və məntiqə tabe olmurlar!".(۴) Bir sıra ayələrdə kafirlərin "nadanlığı"(۵), bəzi ayələrdə isə "şəkkə düçar olmaları"(۶) küfrlərinin əsas səbəbi kimi qeyd olunur. Bəzi ayələrdə də kafirlər "zənn və gümana" tabe olan qruplardan hesab olunmasına baxmayaraq(٧), onların Allahı inkar etməsində "təkəbbür" və "qürurlu" olmaları ən əsas psixoloji səbəb kimi açıqlanır.(٨)

.Təsnim", ٢-ci cild, səh. ٢۴٩-٢۵٠" . [١] -١

.Mizanul-hikmət", ٨-ci cild, səh. ٣٩٩, hədis: ١٧٣٩١" . [٢] -٢

.Tur" surəsi, ayə ٣۶" . [٣] -٣

.Əl-mizan", ١۵-ci cild, səh. ٢٢٢" . [۴] -۴

.Tövbə" surəsi, ayə ٩٧; "Əraf" surəsi, ayə ١٣٨; "İnşiqaq" surəsi, ayə ٢٣" . [۵] -۵

.İbrahim" surəsi, ayə ١٠" . [۶] -۶

.Bəqərə" surəsi, ayə ٧٨" . [٧] -٧

.Əraf" surəsi, ayə ٧٧; "Əl-mizan", ١٧-ci cild, səh. ۴٠٢" . [٨] -٨

Quran baxımından kafirlər dəlil və məntiqə tabe olmamaqla yanaşı, öz müddəalarının isbatı üçün dəlil də göstərmirlər.(۱)

Qeyd etmək lazımdır ki, Qurani-Kərimdə “küfr” sözü “fisq” (günah) mənasında da işlədilir.(۲) Belə ki, bəzən əməl məqamında da “inkar” küfr adlanır.(۳) Mərhum Əllamə Təbatəbainin nəzərincə, Quran baxımından kafirlərin Allahı inkar etməsinin əsas amili onların məadı inkar etməsidir. Bu da nübuvvəti, vəhyi və dini inkar etməklə nəticələnir.(۴) Quran ayələrinə əsasən, küfr həm güclənən, həm də zəifləyən sifətlərdəndir. Onun hər bir mərtəbəsi xüsusi təsirə malikdir.(۵)

İmam Sadiq (ə) Quran baxımından küfrün beş qisimdən ibarət olduğunu bildirmişdir:

۱. Allahın rübubiyyətini inkar etmək: İmam Sadiqin (ə) buyruğuna əsasən, Allahı, behişti və cəhənnəmi qəbul etməyən bu qrup insan gümana tabedir. Allah-taala onları qorxutmağı faydasız hesab edir.(۶)

۲. Həqiqəti bilə-bilə inkar etmək: Bu cür küfrün mənası insanın haqqı tanıdığı halda, onu inkar etməsidir. Aşağıdakı ayələrdə bu mənada olan küfrə işarə edilir:

{وَجَحَدُوا بِهَا وَاسْتَيْقَنَتْهَا أَنْفُسُهُمْ ظُلْمًا وَعُلُوًّا...}

“Qəlbləri (möcüzələrimizin) həqiqiliyinə yəqin etdikləri halda haqsız yerə və təkəbbür üzündən onları inkar etdilər.”(۷)

{وَلَمَّا جَاءَهُمْ كِتَابٌ مِنْ عِنْدِ اللَّهِ مُصَدِّقٌ لِمَا مَعَهُمْ وَكَانُوا مِنْ قَبْلُ يَسْتَفْتِحُونَ عَلَى الَّذِينَ كَفَرُوا فَلَمَّا جَاءَهُمْ مَا عَرَفُوا كَفَرُوا بِهِ فَلَعْنَةُ اللَّهِ عَلَى الْكَافِرِينَ}

“Onlara Allah tərəfindən əllərindəkini (Tövratı) təsdiq

səh:۲۷

۱- [۱]. “Muminun” surəsi, ayə ۱۱۷.

۲- [۲]. “Ali-İmran” surəsi, ayə ۹۷; “Əl-mizan”, ۲-ci cild, səh. ۲۰۲.

۳- [۳]. “Nəhl” surəsi, ayə ۱۳; “Əl-mizan”, ۱۲-ci cild, səh. ۳۱۵-۳۱۶.

۴- [۴]. “Əl-mizan”, ۱۵-ci cild, səh. ۱۸۷.

.Nisa” surəsi, ayə ۱۳۸; “Maidə” surəsi, ayə ۶۴ və ۶۸; “Təsnim”, ۲-ci cild, səh.۲۲۲“ . [۵] -۵

.Bəqərə” surəsi, ayə ۷۸“ . [۶] -۶

.Nəml” surəsi, ayə ۱۴“ . [۷] -۷

edən bir kitab (Quran) göndərildiyi zaman (onu qəbul etmədilər). Halbuki əvvəlcə kafirlərə qələbə çalmaq üçün (Allaha) yalvarırdılar. Bildikləri (peyğəmbər) gəldikdə isə (ona inanmadılar. Allahın lənəti kafirlərə olsun!"(١)

:İlahi nemətləri inkar etmək .٣

{...فَلَمَّا رَآهُ مُسْتَقِرًّا عِنْدَهُ قَالَ هَـٰذَا مِنْ فَضْلِ رَبِّى لِيَبْلُوَنِى أَأَشْكُرُ أَمْ أَكْفُرُ وَمَنْ شَكَرَ فَإِنَّمَا يَشْكُرُ لِنَفْسِهِ وَمَنْ كَفَرَ فَإِنَّ رَبِّى غَنِى كَرِيمٌ}

Süleyman) Taxtın onun yanında hazır olduğunu gördükdə dedi: "Bu, Rəbbimin lütf və)" mərhəmətindəndir. Məni imtahana çəkməyi üçündür ki, görsün Onun nemətinə şükür edəcəyəm, yoxsa, nankor olacağam! Kim şükür etsə, yalnız öz xeyrinə şükür edər, kim (nankor olsa, həqiqətən, Rəbbim (onun şükrünə) möhtac deyil və kərəm sahibidir!"(٢)

:Allahın əmrlərini tərk etmək .٤

{وَإِذْ أَخَذْنَا مِيثَاقَكُمْ لَا تَسْفِكُونَ دِمَاءَكُمْ وَلَا تُخْرِجُونَ أَنْفُسَكُمْ مِنْ دِيَارِكُمْ ثُمَّ أَقْرَرْتُمْ وَأَنْتُمْ تَشْهَدُونَ * ثُمَّ أَنْتُمْ هَؤُلَاءِ تَقْتُلُونَ أَنْفُسَكُمْ وَتُخْرِجُونَ فَرِيقًا مِنْكُمْ مِنْ دِيَارِهِمْ تَظَاهَرُونَ عَلَيهِمْ بِالْإِثْمِ وَالْعُدْوَانِ وَإِنْ يَأْتُوكُمْ أُسَارَى تُفَادُوهُمْ وَهُوَ مُحَرَّمٌ عَلَيكُمْ إِخْرَاجُهُمْ أَفَتُؤْمِنُونَ بِبَعْضِ الْكِتَابِ وَتَكْفُرُونَ بِبَعْضٍ...}

Xatırlayın ki, yenə bir zaman sizinlə "Bir-birinizin qanını tökməyin, bir-birinizi" yurdunuzdan çıxarmayan!" – deyə razılığa gəldik. Sonra siz (həmin əhd-peymana) şahid olub (onu) təsdiq etdiniz. (Ey yəhudilər!) Siz elə insanlarsınız ki, (bu əhddən) sonra yenə bir-birinizi öldürür, özünüzdən olan bir dəstəyə zülm və düşmənçilik etmək üçün köməkləşib onları öz yurdlarından çıxarırsınız. Onlar əsir düşüb yanınıza gəlsələr, fidyə verib azad edirsiniz. Halbuki, onları (öz yurdlarından) çıxartmaq sizə haram edilmişdi. Siz kitabın (Tövratın) bir hissəsinə inanıb digər qismini inkar edirsinizmi?"(٣) Onların .küfr və inkarının səbəbi Allah-taalanın əmrlərini tərk etmələri idi

:Üz çevirmək .٥

.Bəqərə", surəsi, ayə ٨٩" . [١] -١

Nəml" surəsi, ayə ٤٠; eləcə də bax: "İbrahim" surəsi, ayə ٧; "Bəqərə" surəsi, ayə" . [٢] -٢

.۱۵۲

.Bəqərə” surəsi, ayə ۸۴-۸۵“ . [۳] -۳

{...كَفَرْنَا بِكُمْ وَبَدَا بَيْنَنَا وَبَيْنَكُمُ الْعَدَاوَةُ وَالْبَغْضَاءُ أَبَدًا...}

Biz sizi inkar edirik (sizdən üz çeviririk). Siz bir olan Allaha iman gətirməyincə, bizimlə“ sizin aranızda həmişəlik ədavət və nifrət olacaq.”(١)

Ümumiyyətlə, diqqət yetirmək lazımdır ki, Quranda “küfr” bir mənada işlənməmişdir. Bu mövzuda əlavə məlumat vermək məqsədilə aşağadakı incəlikləri qeyd etməyi lazım bilirik:

١. Qurani-Kərimdə kafirlərin doğru yola yönəlməmələri ilə bağlı “xətəmə”(٢) (möhür vurmuşdur), “təbəə”(٣) (möhür vurmuşdur), “sərəfə”(۴) (döndərmişdir), “ğulfun”(۵) (örtülü və pərdəlidir), “ranə”(۶) (qələbə çalmışdır), “əqfalun” (kilidlər vurulmuşdur),(٧) “nuqəllibu”(٨) (tərsinə çevirərik), “qəsavət”(٩) və “mərəz” (xəstəlik)(١٠) kimi ifadələr işlənmişdir.

٢. Mərhum Əllamə Təbatəbainin nəzərincə, Quranda qeyd olunan “əlləzinə kəfəru” (kafir olanlar) ifadəsində məqsəd İslamın ilk çağlarında yaşayan Qüreyş kafirlərinin böyükləri ola bilər. Çünki bəzi hallarda – kafirləri qorxutmağın faydasız olması ilə əlaqədar söhbətdə, doğru yoldan üz döndərmək bütün kafirlərə aid edilərsə, onda hidayət qapısı qeyri-müsəlmanların üzünə bağlanar. Bu isə Qurani-Kərimin nazilolma hikməti və ayələrin zahiri ilə uyğun gəlmir.(١١)

١- [١]. “Mümtəhinə” surəsi, ayə ۴; bax: “İbrahim” surəsi, ayə ٢٢; “Ənkəbut” surəsi, ayə ٢۵.

٢- [٢]. “Bəqərə” surəsi, ayə ٧.

٣- [٣]. “Nəhl” surəsi, ayə ١٠٨.

۴- [۴]. “Tövbə” surəsi, ayə ١٢٧.

۵- [۵]. “Bəqərə” surəsi, ayə ٨٨.

۶- [۶]. “Mütəffifin” surəsi, ayə ١۴.

٧- [٧]. “Mühəmməd” surəsi, ayə ٢۴.

٨- [٨]. “Ənam” surəsi, ayə ١١٠.

٩- [٩]. “Bəqərə” surəsi, ayə ٧۴.

١٠- [١٠] . “Bəqərə” surəsi, ayə ١٠.

١١- [١١] . “Əl-mizan”, ١-ci cild, səh.٥٢.

۳. Quran baxımından, kafirlər fitrət sərmayəsini məhv edərək iman adlı müvəffəqiyyətə nail ola bilmədilər.(۱)

۴. Kafirlər "mürəkkəb (qatı) nadanlığa" düçar olduqları halda, özlərini haqq bilirdilər. Lakin Qurani-Kərim onların xəta bataqlığında qərq olduqlarını açıqlayır.(۲) Onların işi susuz adamın səhrada, sakit və aydın havada uzaqdan su kimi gördüyü ilğıma bənzəyir.(۳)

۵. Məsum rəhbərlərdən nəql olunmuş rəvayətlərdə "qəflət", "şəkk" və "günah" küfrün əsaslarından sayılır.(۴) Həmçinin buna da işarə olunur ki, kafirlər nadan ikən sükut edib düşünsəydilər, inkar etməz və doğru yoldan azmazdılar.(۵)

Nəticə: Quranda küfr ifadəsi müxtəlif mənalarda işlənmişdir. Onun bir mənası Allahı və dini məsələləri inkar etməkdir. Bu inkarın əsas səbəbi həm mərifətin olmaması (cahillik, şəkk və güman), həm də psixoloji çatışmazlıqdır (təkəbbür və qürur).

۲. QURANDA ŞİRK (ALLAHA ŞƏRİK QOŞMAQ)

İmam Sadiq (ə) buyurmuşdur: "Küfr (Allahın inkarı) şirkdən öndədir; çünki küfr yalnız Allaha, şirk isə Allahdan qeyrilərinə də aid edilir."(۶)

Ümumiyyətlə, Quran baxımından şirki iki hissəyə bölmək olar: Etiqadda və əxlaqda şirk. İncəliklərə vardıqda isə əxlaqi şirkin də etiqadi şirkdə nəticələndiyini görəcəyik. Bununla əlaqədar Quran ayələri məcmusundan aşağıdakı nöqtələr aydınlaşır:

۱. Allaha şərik qoşmaq ağılsızlıq əlamətidir.(۷)

۱- [۱]. "Ənam" surəsi, ayə ۱۲.
۲- [۲]. "Bəqərə" surəsi, ayə ۸۱.
۳- [۳]. "Nur" surəsi, ayə ۳۹.
۴- [۴]. "Mizanul-hikmət", ۸-ci cild, səh.۴۰۰, hədis: ۱۷۳۹۹-۱۷۴۰۰ və səh. ۴۰۴.
۵- [۵]. Yenə orada, ۲-ci cild, səh. ۱۵۳, hədis: ۲۸۱۳-۲۸۱۴.
۶- [۶]. Yenə orada, ۸-ci cild, səh. ۳۹۹, hədis: ۱۷۳۹۴.

.Bəqərə” surəsi, ayə ١٧٠“ . [٧] -٧

۲. Allahı başqa bir varlığa bənzətmək nadanlıqdan qaynaqlanır; çünki Allaha şərik qoşub, Onu başqa varlığa bənzətmək elm və əqidəyə qarşıdır.(۱) Bu səbəbdən də, Quran bildirir ki, Allaha şərik qoşmağın əsas səbəbi nadanlıqdır və müşriklər nadan insanlardır.(۲)

۳. Şirkdə elmə yol yoxdur. Yəni "şirk" məlum ola bilməz, çünki zatən "yoxluq"dur (mövcud deyildir). Zatən "yox" olan hər hansı bir şeyə elmi aid etmək olmaz. Ona görə ki, elm vücudi (isbati) bir məsələdir və onun vücudu olmayan şeylərə isbatı qeyri-mümkündür. "Loğman" surəsinin ۱۵-ci ayəsində buyurulur:

{وَإِنْ جاهَدَاکَ عَلَى أَنْ تُشْرِکَ بِی مَا لَیسَ لَکَ بِهِ عِلْمٌ فَلَا تُطِعْهُمَا...}

"Əgər (ata-anan) bilmədiyin bir şeyi Mənə şərik qoşmağına cəhd göstərsələr, (bu işdə) onlara itaət etmə!"(۳)

۴. Quranın bəzi ayələrində "şəkk" Allaha şərik qoşmaq amillərindən göstərilir.(۴)

۵. Bir sıra ayələrdə müşriklərin "mürəkkəb və qatı nadanlıq" içində olduğu da açıqlanır; yəni nadan olduqları halda, həqiqəti dərk etdiklərini güman edirlər.(۵)

۶. Bəzi təfsirlərə əsasən, bütpərəstliyin və Allaha şərik qoşmağın səbəbi üç növ nadanlıq ola bilər:

a) Allaha münasibətdə (Onun bənzəri və tayı-bərabəri olub-olmamasında) nadanlıq;

b) İnsanın öz məqamı (bütün məxluqlardan üstünlüyü) barəsində nadanlığı;

v) Təbiət aləmi və cansız əşyaların insan müqabilində

۱- [۱]. "Bəqərə" surəsi, ayə ۲۲.

۲- [۲]. "Rum" surəsi, ۳۰-۳۲-ci; "Yusif" surəsi, ۳۹-۴۰-cı; "Bəqərə" surəsi, ۱۱۳ və ۱۱۸-ci ayələr.

۳- [۳]. Bax: "Təfsiri mövzuiyi Quran", Cavad Amuli, ۴-cü cild, səh.۱۳۸-۱۳۹.

۴- [۴]. "Nəml" surəsi, ayə ۶۶; "Hud" surəsi, ayə ۶۲ və ۱۱۰.

۵- [۵]. “Yasin” surəsi, ayə ۶, ۹ və ۱۰; “Rum” surəsi, ayə ۵۹.

(dəyərsiz olması ilə bağlı nadanlıq.(۱)

:Qurani-Kərimdə şirkə yönəlmənin iki əsas amili bəyan olunmuşdur .۷

a) Xaliqin məxluqdan uzaq düşməsi təsəvvürü; müxtəlif ayələrdə bu müddəa rədd (edilir.(۲)

b) Kainatın idarəsinin kiçik məbudlara tapşırılması; bunun da puç və batil olması ilə (əlaqədar bir neçə ayə vardır.(۳)

Müşriklər Allaha şərik qoşarkən əql, dəlil və sübutdan bəhrələnmədikləri kimi, .۸ (müddəalarının isbatı üçün də heç bir dəlil göstərmirlər.(۴)

Quran nöqteyi-nəzərindən, Allaha şərik qoşmaq ən böyük zülm və haqsızlıqdır; .۹ .çünki bununla ən mühüm haqq-ədalət (tövhiddə ədalət) aradan qalxır

.Bəzi ayələrdə müşriklərin kafirlərlə eyni səviyyədə olduqları qeyd edilir .۱۰

Müşriklərin Allaha şərik qoşmasında tanıma zəifliyi ilə bağlı amillərdən əlavə, .۱۱ psixoloji amillərin də rolu var. Həsəd,(۵) günah,(۶) eləcə də, Allah, peyğəmbər və dinlə .düşmənçilik(۷)... buna misal ola bilər

Quran ayələrinə əsasən, "tövhid" budaq və yarpaqları əxlaq və ibadətdən ibarət .۱۲ olan pak ağac, "şirk" isə kökü cəhənnəmdə, budaq və yarpaqları odlu günah olan çirkin bir ağaca bənzəyir. "Şirk" adlı bu ağac cəhənnəmdə yetişərək baş qaldırır. Onun meyvəsi pis işlər və rəzil sifətlərdir. Buna görə

.Peyami-Quran", Ayətullah əl-üzma Məkarim Şirazi, ۱-ci cild, səh.۷۶-۷۸" . [۱] -۱

Qaf" surəsi, ayə ۱۶; "Zümər" surəsi, ayə ۳۶; "Ğafir" surəsi, ayə ۶۰; "Ali-İmran"" . [۲] -۲ .surəsi, ayə ۲۹

.Əraf" surəsi, ayə ۵۴; "Yunis" surəsi, ayə ۳۱-۳۲" . [۳] -۳

.Muminun" surəsi, ayə ۱۱۷" . [۴] -۴

.Nisa" surəsi, ayə ۵۴" . [۵] -۵

٦- [٦] . “Ali-İmran” surəsi, ayə ١١٢.

٧- [٧] . “Müddəssir” surəsi, ayə ١١ və ٢٥.

də belə deyirlər: Günah edənin tövhid və Allahın birliyinə xalis inamının olması qeyri-mümkün olduğu kimi, Allaha itaət edənin müşrik olması da mümkün deyildir.” Rəvayətlərdə buyurulur: “Mömin (heç vaxt) zina və oğurluq etməz.”(۱)

۱۳. Quran baxımından, şirkin xarici nümunələri Allahı unutmağa və namazın tərkinə zəmin yaradır.(۲) Allaha şərik qoşmaq insanı iztirab və həyəcan girdabına salır.(۳)

۱۴. Bir nöqteyi-nəzərdən, Quran ayələrində şirk iki növdür: ۱. İtaətdə şirk; ۲. İbadətdə şirk. “İbadətdə Allaha şərik qoşmaq” – insanın Ondan başqasına ibadət etməsi, “itaətdə Allaha şərik qoşmaq” – insanın Allahdan başqasına (məsələn, şeytana) itaəti və onun əmrlərini icra etməsidir. “Yusif” surəsinin “Onların əksəriyyəti yalnız şərik qoşaraq Allaha inanarlar!”(۴) – ayəsində itaətdəki şirk nəzərdə tutulur, yəni bəzi müsəlmanlar Allaha Ona qoşduqları şəriklərlə (bütlər və şeytanlar) yanaşı ibadət edirlər.(۵)

ŞİRKİN DƏRƏCƏLƏRİ

Allaha şərik qoşmağın müxtəlif dərəcələri var. Çoxallahlılıq nəzəriyyəsi zahiri şirkin nümunəsidir. Ondan aşağı (gizli) şirk Qurana və xüsusi nübuvvətə iman gətirməyən kitab əhlinin şirki, ondan da aşağı Allaha, Onun vasitə və səbəblərinə iman gətirənlərin müstəqil baxışlarıdır. Bu qəbil şəxslər Allahdan başqalarına qeyri-müstəqil şəkildə diqqət yetirmək əvəzinə, onlara müstəqil şəkildə etiqad bəsləyib,

---

۱- [۱]. “Biharul-ənvar”, ۶۶-cı cild, səh. ۶۳, hədis: ۷-۸ və səh.۶۷, hədis: ۱۷; “Kafi”, ۲-ci cild, səh. ۳۲, hədis: ۱; bax: “Təfsiri mövzuiyi Quran”, ۷-ci cild, səh. ۳۸۴.

۲- [۲]. “Maidə” surəsi, ayə ۹۱.

۳- [۳]. “Bəqərə” surəsi, ayə ۱۱۳.

۴- [۴]. “Yusif” surəsi, ayə ۱۰۶.

۵- [۵]. “Əl-mizan”, ۱۱-ci cild, səh. ۲۸۰.

işlərində onlara istinad edirlər.(١) Diqqət yetirmək lazımdır ki, gizli şəkildə Allaha şərik qoşmaq imanla uzlaşa bilər.(٢)

QURANDA NİFAQ VƏ İKİÜZLÜLÜK .٣

Qurani-Kərimdə bu məsələ ilə bağlı bir çox incə mətləblər bəyan olunmuşdur. Biz onların bir neçəsini qeyd edirik:

١. Quranda "ikiüzlülük" küfrü gizlədib imanı aşkar etmək mənası daşıyır. Yəni münafiqlər (ikiüzlülər) zahirdə (Allaha, peyğəmbərlərə) şəhadət versələr də, batində (onları) inkar edirlər.(٣)

٢. Quran baxımından ikiüzlülüyün əsas amili nadanlıqdır.(٤)

٣. Bəzi ayələrdə münafiqlərin tərəddüd və şəkkə düşmələrinə işarə edilir.(٥)

٤. İkiüzlülük sifətini yaradan amillərindən biri də şəkdir.(٦)

٥. Quran nöqteyi-nəzərindən, münafiqlərin Allah və Peyğəmbəri (s) inkar etmələrinin səbəbi odur ki, onlar dünyanı hissiyyat və maddiyyatla dəyərləndirirlər. Kafirlər vəhyin əfsanə olduğunu güman etdikləri kimi, münafiqlər də qeybə və hiss olunmayanlara (metafizik aləmə) inanmağı ağılsız iş sayırlar.(٧) Münafiqlər materialist dünyagörüşlərinə və hissiyyata əsaslandıqlarından, tövhidi, məadı və Peyğəmbərin (s) risalətini qəbul edən mühacir və ənsarlıları axmaq hesab edir, onların əməllərini puç bilir, özlərini isə onlardan üstün və aydın düşüncə sahibi sayırdılar.(٨)

٦. Münafiqlərin şəkk və tərəddüdü qəlblərindəki mərəz

١- [١]. Yenə orada, ٢-ci cild, səh. ٢٠٢ və ٤-cü cild, səh. ٣٧١.

٢- [٢]. Yenə orada, ١١-ci cild, səh. ٢٧۶.

٣- [٣]. "Münafiqun" surəsi, ayə ١-٣; "Ali-İmran" surəsi, ayə ١۶٧; "Əl-mizan", ٩-cu cild, səh. ٣٢٥ və ١٩-cu cild, səh. ٢٧٨.

٤- [٤]. "Tövbə" surəsi, ayə ٩٧.

۵- [۵]. “Nisa” surəsi, ayə ۱۴۳; “Əl-mizan”, ۵-ci cild, səh. ۱۱۶-۱۱۷.

۶- [۶]. “Sad” surəsi, ayə ۸; “İbrahim” surəsi, ayə ۹.

۷- [۷]. “Nəhl” surəsi, ayə ۲۲.

۸- [۸]. “Təfsiri-təsnim”, ۲-ci cild, səh. ۲۷۸.

(və xəstəliklərlə əlaqələndirilir.(۱)

Bəzi təfsirçilərin nəzərincə, ikiüzlülük şirkin xarici nümunəsidir; insanın daxilində .۷ şirkdən əsər-əlamət görünməsə, bu xislət ondan əsla baş verməz. Necə ki, ikiüzlülüklə yanaşı əməl (riya) Allaha şərik qoşmaq üçün möhkəm zəmin yaradır. Bu səbəbdən də, belə deyilir: "İkiüzlülükdən qaynaqlanan riya Allaha şərik qoşmaqdan başqa, meyvəsi (olmayan ağacdır."(۲)

Qurani-Kərimdə kafirlərin azğınlıq və çirkin əməllərə qurşandıqları bəyan olunduğu .۸ kimi(۳), münafiqlərin də günah və tüğyan bataqlığında qərq olmaları nəticəsində qəlblərinin kor olmasından söz açılır.(۴) Əgər əql ilə gümanın mübarizəsində əql gümana məğlub olarsa, güman nəfsin idrak səhnəsinə daxil olub düzgün dərketmə yollarını bağlayar. Belə insan heç vaxt düzgün fikirləşə bilməz, nəfsi puç düşüncələrlə (dolar və nəticədə, qəlb həqiqəti danar və puç düşüncələrlə onu azğınlığa sürükləyər.(۵)

Quranın bəzi ayələrində münafiqlərin bir sıra hökmlərdə kafirlərlə şərik olduqları .۹ bəyan edilir. Məsələn, ilahi qəzəb odunda (cəhənnəmdə) yanmaq həm münafiqlərə, (həm də kafirlərə aid edilir.(۶)

Ayələrdə münafiqlərin bəzi hökmlərdə müşriklərlə şərikliyinə işarə edilir. Buna .۱۰ onların Allahın rəhmətindən məhrum olması və bağışlanmadığını misal göstərmək :olar. Şirk haqda buyurulur

{إِنَّ اللَّهَ لَا يغْفِرُ أَنْ يشْرَكَ بِهِ وَيغْفِرُ مَا دُونَ ذَٰلِكَ لِمَنْ يشَاءُ وَمَنْ يشْرِكْ بِاللَّهِ فَقَدْ ضَلَّ ضَلَالًا بَعِيدًا}

Allah Ona şərik qoşmağı əsla bağışlamaz. Bundan başqa, digər günahları isə dilədiyi" kimsə üçün bağışlar. Allaha şərik

---

Tövbə" surəsi, ayə ۴۵; "Təfsiri-təsnim", ۲-ci cild, səh. ۱۳۷; "Əl-mizan", ۵-ci cild," . [۱] -۱ .səh.۱۱۸

.Təfsiri-təsnim", ۲-ci cild, səh. ۲۶۲" . [۲] -۲

.Bəqərə" surəsi, ayə ۸۱" . [۳] -۳

۴- [۴] . “Bəqərə” surəsi, ayə ۱۵.

۵- [۵] . Bax: “Təfsiri-təsnim”, ۲-ci cild, səh. ۲۹۱.

۶- [۶] . “Nisa” surəsi, ayə ۱۴۰.

(qoşan şəxs, şübhsiz ki, (haqq yoldan) çox azmışdır.”(1)

:Allahın rəhmətindən məhrum olmaq münafiqlərə də aiddir. Belə ki, buyurulur

{سَوَاءٌ عَلَيهِمْ أَسْتَغْفَرْتَ لَهُمْ أَمْ لَمْ تَسْتَغْفِرْ لَهُمْ لَنْ يغْفِرَ اللَّهُ لَهُمْ...}

Sən onların bağışlanmasını diləsən də, diləməsən də, fərqi yoxdur. Onsuz da Allah“ (onları bağışlamayacaq.”(2)

Bəzi ayələrdə münafiqlərin, hətta kafirlərdən pis olduğu vurğulanır.(3) Ayətullah Cavad Amuli bu barədə yazır: “Əvvəla, münafiqlər kafir və müşriklərdən daha təhlükəlidirlər. İkincisi, münafiqlər daxilən kafirlər kimi, dini inkar etməklə yanaşı, həqiqəti danır, yalan danışır, hiyləyə əl atır, həm də istehza edirlər. Kafirlər isə belə nəfsi çirkinliklərə (əl atmırlar. Münafiqlərin küfrü isə belə çirkinliklərlə doludur.”(4)

QURANDA İMAN .4

Qurani-Kərimdə qeyd olunan imanın yönləri haqda çox danışmaq olar. Lakin biz bu :bəhsin incə nöqtələrinə işarə etməklə kifayətlənirik

Quranın nəzərində iman insanın ixtiyari işlərindən biridir. Məlum olduğu üzrə, Allah .1 tərəfindən hansısa bir əmrin yerinə yetirilməsi tələbi insanın qüdrətinə, nəticədə onun ixtiyar sahibi olmasına bağlıdır. Əgər iman gətirmək insanın ixtiyar dairəsindən xaric (olsaydı, onun tələb olunması Allahın hikmətinə zidd olardı.(5)

,İman “Allaha baş əymək” və “təslim olmaq”la yanaşı .2

.Nisa” surəsi, ayə 116“ . [1] -1
.Münafiqun” surəsi, ayə 6“ . [2] -2
.Nisa” surəsi, ayə 145“ . [3] -3
.Təfsiri-təsnim”, 2-ci cild, səh. 226-250“ . [4] -4
Bax: “Bəqərə” surəsi, ayə 41, 91 və 186; “Nisa” surəsi, ayə 136; “Ali-İmran” surəsi, . [5] -5 ayə 179 və s. (Bu məsələ ilə əlaqədar Möhsin Cavadnin “İman nəzəriyyəsi” adlı kitabının

.(١٨٥-١٩٢-ci səhifələrinə müraciət edə bilərsiniz

(yəqinlə birgə “elm” və “mərifət” deməkdir.(١

Əməl imanın hissəsi deyil,(٢) lakin onu zəruri edən bir şeydir, yəni əməl imanın zati .٣ xüsusiyyətlərindən (cins, fəsl) deyil. Amma həmişə həqiqi imanla yanaşıdır. Belə ki, (əməlin olmaması imanın təsirli və ixlaslı olmadığını göstərir.(٣

Allah-taala”,(۴) “qeyb”,(۵) “məad”,(۶) “risalət”,(٧) “peyğəmbərlər”,(٨) “səmavi“ .۴ .kitablar”,(٩) “imamət”(١٠) və “mələklər”(١١) imanın predmeti sayılır

Düz danışmaq,(١٢) əxlaqi səciyyələr(١٣), ruhi aramlıq(١۴), maddi nemətlər(١۵) və .۵ (saleh əməllər imanın faydalarındandır.(١۶

İman artıb-azalmaq qabiliyyətinə malikdir. İnsanın mərifəti azdan başlayıb tədricən .۶ çoxaldığı kimi, onun dini prinsiplər barədə düşüncəsi də artır. Onlara (dini prinsiplərə) .qəlbən təslim olmaq da dəyişilmək qabiliyyətinə malikdir

---

Hücurat” surəsi, ayə ١۵; “Duxan” surəsi, ayə ٨-٩; “Nəml” surəsi, ayə ٣; “Loqman”“ . [١] -١ .surəsi, ayə ۴; “Səbə” surəsi, ayə ۶; “Həcc“ surəsi, ayə ۵۴; “Rum” surəsi, ayə ۵۶

.Əsr” surəsi, ayə ٣; “Həcc“ surəsi, ayə ۵۴; “Rum” surəsi, ayə ۵۶“ . [٢] -٢

.Ənfal” surəsi, ayə ٣-۴; “Bəqərə” surəsi, ayə ١٧٧; “Əl-mizan”, ١٨-ci cild, səh.١۵٨“ . [٣] -٣

.Nisa” surəsi, ayə ١۶٢; “Əraf” surəsi, ayə ١۵٨; “Mücadilə” surəsi, ayə ٢٢“ . [۴] -۴

.Bəqərə” surəsi, ayə ٢-٣“ . [۵] -۵

.Mücadilə” surəsi, ayə ٢٢; “Nisa” surəsi, ayə ١۶٢“ . [۶] -۶

.Əraf” surəsi, ayə ١۵٨; “Hücurat” surəsi, ayə ١۵“ . [٧] -٧

.Nisa” surəsi, ayə ١٧١; “Ali-İmran” surəsi, ayə ١٧٩“ . [٨] -٨

.Bəqərə” surəsi, ayə ۴, ١٢١ və ١٣۶; “Ali-İmran” surəsi, ayə ١١٩“ . [٩] -٩

.Maidə” surəsi, ayə ٣, ۵۵ və ۶٧“ . [١٠] -١٠

Bəqərə” surəsi, ayə ١١٧. Əlavə məlumat əldə etmək üçün bax: “İman“ . [١١] -١١ .nəzəriyyəsi”, səh. ٢٠١-٢۴۶

.Səff” surəsi, ayə ١٠-١١“ . [١٢] -١٢

Tövbə” surəsi, ayə ١٠٩; “Ənkəbut” surəsi, ayə ۴١. Bax: “Bist qoftar” Şəhid“ . [١٣] -١٣ .Mürtəza Mütəhhəri, səh. ١۵١-١۵۵

.Maidə” surəsi, ayə ۶۹; “Fəth” surəsi, ayə ۴; “Yunis” surəsi, ayə ۶۲-۶۳“ . [۱۴] -۱۴

.Əraf” surəsi, ayə ۹۶“ . [۱۵] -۱۵

Bəqərə” surəsi, ayə ۲۷۷; “Maidə” surəsi, ayə ۹. Bax: “Fərazhayi əz İslam”,“ . [۱۶] -۱۶
.Əllamə Təbatəbayi, səh. ۲۳۸

(Deməli, insanın imanı həm çoxala, həm də azala bilər.(۱)

MÖMİNLƏRİN MƏQAMLARI

Qurani-Kərimdə müxtəlif məqamlara işarə olunur. Möminlər bu məqamlara malik olmaqda azaddır. Bu məqamların geniş izahı və onlara malik olmaq yolları barəsində söhbət bizim bu kitabın həcminə uyğun gəlmədiyindən bəzi məqamlara qısa şəkildə :işarə etməklə kifayətlənirik

Təslim" məqamı: Yəni insan bütün vücudu ilə Allahın ixtiyarındadır və Ona təslimdir." .۱ Bu, həzrət İbrahimin (ə) Allahdan istədiyi məqamdır.(۲) Allaha təslimçilik və Ona baş əymək əməldə ilahi əmrlərə itaət, günah və haramdan çəkinməklə yanaşı, insanın (düşüncələrində də aşkar olunmalıdır.(۳

Əbrar" məqamı:(۴) Əllamə Təbatəbainin nəzərincə, bu imanın ən yüksək" .۲ məqamıdır.(۵) Quranın nəzərində insan ona nail olmaq üçün ehtiyac duyduğu və sevdiyi şeyləri haqq yolunda xərc etməli, başqalarına bağışlamalıdır.(۶) Bu məqam, (yalnız Allahın xalis və həqiqi bəndələrinə məxsusdur.(۷

Təqva" məqamı: Allah-taala Qurani-Kərimdə onun xüsusi məqam olmasını müxtəlif" .۳ ifadələrlə vurğulayaraq təqvalıları öz dostu kimi tanıtdırır.(۸) Bəzi təfsirçilərin nəzərincə, təqvanın müxtəlif dərəcələri olsa da, insanın

---

Ali-İmran" surəsi, ayə ۱۷۳; "Ənfal" surəsi, ayə ۲; "Nisa" surəsi, ayə ۱۳۶; "Tövbə"" . [۱] -۱ .surəsi, ayə ۱۲۴; eləcə də bax: "Əl-mizan", ۱۸-ci cild, səh. ۲۵۹-۲۶۲

.Bəqərə" surəsi, ayə ۱۲۸" . [۲] -۲

.Təfsiri mövzuiyi Qurani-Kərim", ۱-ci cild, səh. ۳۸۳-۳۸۴" . [۳] -۳

.Mutəffifin" surəsi, ayə ۱۸-۲۲" . [۴] -۴

.Əl-mizan", ۱-ci cild, səh. ۴۳۰" . [۵] -۵

.Ali-İmran" surəsi, ayə ۹۲" . [۶] -۶

.Dəhr" surəsi, ayə ۵-۶" . [۷] -۷

Casiyə" surəsi, ayə ۱۹; "Ənfal" surəsi, ayə ۳۴; "Bəqərə" surəsi, ayə ۲۱; "Həcc"" . [۸] -۸

.surəsi, ayə ۳۷ və s

:təqvada üç şərtə riayəti daha çox əhəmiyyət kəsb edir

;a) Allahdan qorxmalı və qorxduğu üçün də günahdan çəkinməlidir

;b) İnsan günahdan uzaqlaşmalı, heç bir şəkildə ona yol verməməlidir

c) Hər halda, insan – istər qorxudan, istərsə də günahdan çəkinməklə – Allaha (yaxınlaşmaq məqsədilə hərəkət etməlidir.(١

İxlas" məqamı: Şeyx Tusinin ifadəsi ilə desək, ixlas bir işi yalnız Allaha görə yerinə " .۴ yetirməkdir. Yəni insan qəlbini haqqa yönəltməli, qəlbində Allahdan başqasına yer olmamalıdır. Qurani-Kərim baxımından ixlas insanın əsl mahiyyətidir və çox vaxt nəfsani istəklər pərdəsi altında gizli qalır.(٢) Ayələrdə göstərildiyi kimi, Allah insandan əməllərini yalnız ixlasla yerinə yetirməsini istəyir. Əgər insan belə məqama nail olsa, istədiyini əldə edər.(٣) Haqq-taalanın görüşünü, "cəlal" və "camal" sifətlərini arzulayan şəxs mömin olmalı, saleh əməllər yerinə yetirməli, əqidə və əməlində Allaha şərik (qoşmamalıdır.(۴

.Bax: "Təfsiri mövzuiyi Quran", ١١-ci cild, səh. ٢٠۵-٢١٩ . [١] -١

.Loğman" surəsi, ayə ٣٢" . [٢] -٢

.Bəyyinə" surəsi, ayə ٧-٨" . [٣] -٣

Kəhf" surəsi, ayə ١١٠. "İxlas" bəhsi ilə əlaqədar bax: "Təfsri mövzuiyi Quran", ١١-" . [۴] -۴ .ci cild, səh. ٢۵٣-٢۵٨

İMANLA İSLAM ARASINDA ƏLAQƏ.۵

İŞARƏ

?Sual: İmanla İslam arasında əlaqə nədən ibarətdir

İSLAMIN MƏNASI

Qurani-Kərimin bəzi ayələrində “İslam” və ondan düzələn digər sözlərdən istifadə (olunur.(۱

İslam dedikdə, bəzən insanı Allaha tam təslim etmək istəyən “dinlər”, bəzən Allahın yeganəliyi və Onun rəsulu həzrət Mühəmmədin (s) haqq olmasına dildə “şəhadət (vermək”, bəzən də “iman” nəzərdə tutulur.(۲

Ümumi şəkildə belə bir nəticə çıxarmaq olar ki, İslam “təslim” deməkdir. Qəlbən İslamı qəbul etmək iman adlanan etiraf və yəqindən, dildə İslamı qəbul etmək onu iqrar edib şəhadət verməkdən, bədəni və xarici görünüşü ilə İslamı qəbul etmək Allah-taalanın əmrlərini yerinə yetirməkdən, İslamı mütləq şəkildə qəbul etmək isə insanın bütün yönlərinə aid “təslim”çilikdən ibarətdir. Təbii ki, belə bir İslam həmişə imanla birgədir. Beləcə, hər bir müsəlmanı mömin də

Ali-İmran” surəsi, ayə ۱۹ və ۸۵; “Bəqərə” surəsi, ayə ۲۸; “Hücurat” surəsi, ayə ۱۴;“ . [۱] -۱
.“Zuxruf” surəsi, ayə ۶۹ və s

.Yunis” surəsi, ayə ۸۴“ . [۲] -۲

adlandırmaq olar. Lakin İslam bəzən dildə, bəzən əməldə görünür. Qurani-Kərim .belələrini batində kafir olmaları aşkarlanana qədər müsəlman hesab edir

İMANLA İSLAM ARASINDA ƏLAQƏ

Qurani-Kərimin müxtəlif ayələrinə əsasən, belə bir həqiqəti etiraf etmək olar ki, imanla İslam bir-birilə qarışmışdır, onların hər bir dərəcəsi başqa bir dərəcəni təkmilləşdirir. Əllamə Təbatəbai bu haqda yazır: "İslamın müxtəlif dərəcələri vardır. Bunun dəlili bu ayədir: "Rəbbi İbrahimə "(Əmrimə) Təslim ol!" – dedikdə, o, "Aləmlərin Rəbbinə təslim oldum!" – deyə cavab vermişdi."(۱) Həzrət İbrahim (ə) Allahın əmrinə təslim olaraq müsəlman oldu. Lakin bu ayədən İslamın daha yüksək dərəcələrə malik olması başa düşülür və burada həzrət İbrahimə (ə) İslamın ən yüksək dərəcəsinə nail .olması əmr edilir

İSLAMIN DƏRƏCƏLƏRİ

Birinci dərəcə: Dildə Allahın yeganəliyinə və həzrət Mühəmmədin (s) peyğəmbərliyinə (şəhadət vermək.(۲

İkinci dərəcə: Qəlbən Allah-taalaya və dini məsələlərə ümumi şəkildə iman gətirib tabe olmaq. Bu dərəcədə insanın saleh əməllər yerinə yetirməsi tələb olunur. Onun bəzən ilahi əmrlərdən boyun qaçırması da ehtimal edilir. "Zuxruf" surəsinin ۶۹-cu və ."Bəqərə" surəsinin ۲۰۸-ci ayələrində İslamın bu dərəcəsinə işarə olunmuşdur

Üçüncü dərəcə: Qəlbən Allah-taalanın əmr və qadağalarını bütün xırdalıqlarına qədər qəbul etmək və Ona təslim olmaq. Bu dərəcədə insan elə razılıqla Allaha baş əyir və elə itaət edir ki, sanki Onu görür; əgər özü Onu gözlə görmürsə də, elə hiss

---

.Bəqərə" surəsi, ayə ۱۳۱" . [۱]-۱

.Hücurat" surəsi, ayə ۱۴" . [۲]-۲

edir ki, Allah onu görür.(۱) İnsani keyfiyyətə və səciyyəvi xüsusiyyətlərə malik olmaq, itaət etmək, razı qalmaq, zahid və təqvalı olmaq və s. bu dərəcənin .xüsusiyyətlərindəndir

Dördüncü dərəcə: İnsan öz vücudunu sözün əsl mənasında Allahın ixtiyarında qoyur.(۲) Bu dərəcəyə yalnız ilahi övliyalar malik ola bilər. Bəzi alimlər İslamın bu (dərəcəsini "böyük İslam" adlandırmışlar.(۳

:İslam və imanla bağlı aşağıdakı iki rəvayətə diqqət yetirmək çox faydalıdır

Məsum rəhbərlərdən (ə) "İnsanın "mömin" adı qazanmasının minimum şərtləri . ۱ hansılardır?" – deyə soruşulduqda, buyurmuşlar: "Haqq Allahdan başqa, heç bir məbud olmamasına şəhadət vermək, yeganə Allahdan savayı, heç bir şeyə pərəstiş (etməmək, Onun Rəsulunu (s) və imamları qəbul etmək."(۴

İmam Sadiq (ə) buyurmuşdur: "Bəzən Allahın bəndələri möminlikdən öncə . ۲ müsəlman olurlar, lakin müsəlmanlıqdan öncə mömin ola bilmirlər. Belə isə, İslam imandan qabaqkı bir mərhələ və dərəcədədir. Onun imanla müştərək cəhətləri var. (Allah-taalanın qadağan etdiyi) kiçik və böyük günahlara qurşananlara "iman" (mömin) deyil, yalnız "İslam" (müsəlman) adı vermək olar. Əgər onlar tövbə etsələr, iman mərhələsinə qayıda bilərlər. Onları yalnız inkar və "istihlal" halı küfrə sövq edər. "İstihlal"ın mənası Allahın halalını haram, haramını isə halal bilib, buna qəlbən etiqad (bəsləməkdir. Bu zaman onlar İslamdan çıxıb küfr vadisinə daxil olarlar."(۵

səh:۴۳

.Nisa" surəsi, ayə ۶۵" . [۱] -۱

.Bəqərə" surəsi, ayə ۱۲۸" . [۲] -۲

Risaleyi seyr və süluk", Seyid Bəhrül-Ülum, səh. ۷۴; "Əl-mizan", ۱-ci cild, səh.۲۸۳-" . [۳] -۳ .۲۸۴ və ۳۰۱-۳۰۳

.Məcməül-bəhreyn", səh. ۴۹۹, "Səngi" çapı" . [۴] -۴

.Üsuli-kafi", ۳-cü cild, səh. ۴۴-۴۵" . [۵] -۵

Beləliklə, yalnız icmali yəqin və elm həddində Allaha mərifəti olanlar möminlər zümrəsindən sayıla bilər. Qeyri-möminlərdə isə bu mərifət yoxdur. Onlar ya şəkk-şübhə, nadanlıq və güman, ya da hər üçünə qərq olmuşlar. Eləcə də, küfr, ikiüzlülük və şirkin yaranmasına yalnız mərifət və Allahı tanımaqla bağlı maneələr deyil, bəzən .əxlaqi və psixi amillər də öz təsirini göstərir

İŞARƏ

Sual: Quran baxımından münafiqlər və möminlərin əqidəsi onların rəftar və ?ruhiyyələrində necə aşkarlanır

ƏQİDƏLƏRİN AŞKARLANMASI

Əmirəlmöminin Əli (ə) buyurmuşdur: "Möminin əqidəsi (imanı) və kafirin inkarı (küfrü) rəftar və əməllərində müşahidə olunur"(۱) İnsanların əməl və rəftarları Allah, vəhy, risalət və dini məsələlərə mərifət əsasında aşkarlanır və onlar vasitəsilə əqidələri .aşkar olur

İndi isə Qurani-Kərim baxımından münafiqlərin, kafir və möminlərin xüsusiyyətlərinə :diqqət yetirin

MÜNAFİQLƏRİN XÜSUSİYYƏTLƏRİ

Ərəb ədəbiyyatında "nifaq" sözü "gizlətmək", "küfr etmək" və "zahirdə imanlı olmaq" mənasını bildirir. Qurani-Kərimdə də zahirdə İslamı qəbul edib batində küfr etmək münafiqlərin xüsusiyyətlərindən sayılır. (Əqidədə yaranan) bu nifaq əməldə aşağıdakı :xüsusiyyətlərə malikdir

---

.Üsuli-kafi", ۱-ci cild, səh. ۷۶" . [۱] -۱

Münafiqlərin siyasi xüsusiyyətləri:

۱. Dinə etinasız şəxslərlə dostluq etmək;[۱]

۲. Vilayət məqamından üz çevirmək;[۲]

a) Dini hakimiyyəti qəbul etməmək;[۳]

b) vilayət göstərişlərinə əks çıxmaq;[۴]

۳. Fürsətdən istifadə etmək;[۵]

۴. Möminləri təhqir etmək;[۶]

۵. Fitnə-fəsad törətmək;[۷]

۶. Psixoloji ixtilaf yaratmaq;[۸]

۷. Günahları yozmaq.[۹]

Münafiqlərin psixoloji xüsusiyyətləri:

۱. Özlərini böyük şəxsiyyət hesab etmək;[۱۰]

۲. Qorxu içində olmaq;[۱۱]

۳. İztirab və həyəcan keçirmək;[۱۲]

۴. İnadkarlıq;[۱۳]

۵. Mənəvi süstlük;[۱۴]

۶. Nəfsin istəklərinə uymaq.[۱۵]

Münafiqlərin əxlaqi xüsusiyyətləri:

۱. Özlərini öymək:

a) yalan danışmaq və riya;[۱۶]

۱- [۱]. “Mücadilə” surəsi, ayə ۱۴.

۲- [۲]. “Nur” surəsi, ayə ۴۷-۴۸.

۳- [۳]. “Nisa” surəsi, ayə ۶۰-۶۱; “Münafiqun” surəsi, ayə ۷.

۴- [۴]. “Nur” surəsi, ayə ۶۲-۶۳.

۵- [۵]. “Nisa” surəsi, ayə ۱۴۱; “Əhzab” surəsi, ayə ۱۹-۲۰.

۶- [۶]. “Hud” surəsi, ayə ۲۷; “Şüəra” surəsi, ayə ۱۱۱; “Tövbə” surəsi, ayə ۷۹.

۷- [۷]. “Tövbə” surəsi, ayə ۴۷-۴۸.

۸- [۸]. “Əhzab” surəsi, ayə ۱۳.

۹- [۹]. “Nisa” surəsi, ayə ۶۲-۶۳.

۱۰- [۱۰]. “Münafiqun” surəsi, ayə ۵; “Bəqərə” surəsi, ayə ۲۰۶.

۱۱- [۱۱]. “Əhzab” surəsi, ayə ۸-۳۵.

۱۲- [۱۲]. “Tövbə” surəsi, ayə ۵۶ və ۶۴.

۱۳- [۱۳]. “Bəqərə” surəsi, ayə ۱۸; “Əraf” surəsi, ayə ۱۷۹.

۱۴- [۱۴]. “Nisa” surəsi, ayə ۱۰۸ və ۱۴۲; “Tövbə” surəsi, ayə ۵۴.

۱۵- [۱۵]. “Mühəmməd” surəsi, ayə ۱۶.

۱۶- [۱۶]. “Münafiqun” surəsi, ayə ۱; “Bəqərə” surəsi, ayə ۱۱-۱۲.

(b) yalandan and içmək;(١)

(v) etdikləri səhvləri yozmaq;(٢)

(q) zahiri xüsusiyyət və görünüşə diqqət;(٣)

(d) yalan vədələr vermək;(۴)

(Dini həqiqətləri gözdən salmaq və şübhə yaratmaq.(۵ .٢

:Münafiqlərin ictimai xüsusiyyətləri

(Özlərini imanlı göstərmək və islahat şüarları;(۶ .١

(İnsanları yaxşı işlərdən yayındırıb çirkin işlərə dəvət etmək;(٧ .٢

(Paxıllıq;(٨ .٣

(Möminlərdə eyib axtarıb onlara lağ etmək;(٩ .۴

(Bədxahlıq – başqasının başına gələn bəla və müsibətə sevinmək;(١٠ .۵

(Kin-küdurət.(١١ .۶

ƏXLAQDA NİFAQ VƏ İKİÜZLÜLÜK

Əxlaqda ikiüzlülük dini hökmlərdə iltizamlı olmamaqdır. Bu həm insanda, həm də cəmiyyətdə öz təsirini göstərir.(١٢) İmam Əli (ə) əxlaqda ikiüzlülük barəsində buyurmuşdur: "İnsanın ən aşkar nifaq və ikiüzlülüyü başqasını itaətə əmr edib günahdan çəkindirdiyi halda, özünün itaət etməməsi və günahdan (çəkinməməsidir."(١٣

.Münafiqun" surəsi, ayə ٢; "Tövbə" surəsi, ayə ۵۶" . [١] -١

.Tövbə" surəsi, ayə ۴٢" . [٢] -٢

.Münafiqun" surəsi, ayə ٢; "Bəqərə" surəsi, ayə ٢٠۴" . [٣] -٣

۴- [۴]. “Tövbə” surəsi, ayə ۷۵-۷۷.

۵- [۵]. “Əhzab” surəsi, ayə ۱۲; “Ali-İmran” surəsi, ayə ۱۵۴.

۶- [۶]. “Nur” surəsi, ayə ۴۷.

۷- [۷]. “Tövbə” surəsi, ayə ۶۷.

۸- [۸]. “Tövbə” surəsi, ayə ۶۷; “Əhzab” surəsi, ayə ۱۹; “Münafiqun” surəsi, ayə ۷.

۹- [۹]. “Bəqərə” surəsi, ayə ۱۴; “Tövbə” surəsi, ayə ۷۹.

۱۰- [۱۰]. “Ali-İmran” surəsi, ayə ۱۲۰; “Nisa” surəsi, ayə ۷۲; “Tövbə” surəsi, ayə ۵۰.

۱۱- [۱۱]. “Ali-İmran” surəsi, ayə ۱۱۸.

۱۲- [۱۲]. “Biharul-ənvar”, ۷۲-ci cild, səh. ۱۰۸.

۱۳- [۱۳]. “Qürərül-hikəm”, hədis: ۳۲۱۴.

Həzrət Peyğəmbər (s) də buyurmuşdur: “Dörd xüsusiyyətə malik olan şəxs münafiqdir: yalan danışmaq, verdiyi vədə sadiq qalmamaq, əhd-peymanı pozmaq və (başqalarına) (qələbə çaldığı zaman günah işlərə əl atmaq.”(١)

KAFİRLƏRİN XÜSUSİYYƏTLƏRİ

Münafiqlərin və möminlərin xüsusiyyətlərini nəzərə alsaq, kafirlərin fərdi və ictimai xüsusiyyətləri məlum olar. Quran ayələrində işarə olunan bu xüsusiyyətlərin bəzilərini :qeyd etməyi münasib görürük

١. (Dinin yayılmasına mane olmaq üçün mal-dövlət xərcləmək;(٢

٢. (İlahi nişanələrə istehza;(٣

٣. (Batil bir işə görə yersiz mübahisə etmək;(۴

۴. (Haqqı tapdamaq;(۵

۵. (Qurana iman gətirməmək;(۶

۶. (İlahi əmrlərdən üz çevirmək;(٧

٧. (Yersiz etirazlar;(٨

٨. (Həzrət Peyğəmbərə (s) istehza etmək;(٩

٩. (Nəfsin istəklərinə uymaq;(١٠

١٠. (Əqlə tabe olmamaq.(١١

١- [١] . “Xisal”, Şeyx Səduq, səh. ٢۵۴. Nifaq və onun xüsusiyyətləri barəsində bax: “Mənşuri-cavid”, Cəfər Sübhani, ۴-cü cild, səh. ٩-١٧٨; “Əl-mizan”, ٢-ci cild, səh. ٩۶-٩٧, ٩-cu cild, səh. ٣٢۵, ۵-ci cild, səh.١١۶-١١٨, ١٩-cu cild, səh. ٢٧٨.

٢- [٢] . “Ənfal” surəsi, ayə ٣۶.

٣- [٣] . “Ğafir” surəsi, ayə ٨١.

.Kəhf” surəsi, ayə ۵۶“ . [۴] -۴

.Kəhf” surəsi, ayə ۵۶“ . [۵] -۵

.Səbə” surəsi, ayə ۳۱“ . [۶] -۶

.İnşiqaq” surəsi, ayə ۳“ . [۷] -۷

.Əl-mizan”, ۱۵-ci cild, səh. ۲۲۲“ . [۸] -۸

.Yenə orada . [۹] -۹

.Yenə orada . [۱۰] -۱۰

.Yenə orada . [۱۱] -۱۱

MÖMİNLƏRİN XÜSUSİYYƏTLƏRİ

Fərdi və ictimai baxımdan möminlərin xüsusiyyətləri aşağıdakılardır:

Fərdi xüsusiyyətlər:

١. Allaha təvəkkül etmək;(١)

٢. Allahı yad edərkən qəlbləri titrəyər;(٢)

٣. Vacib əməlləri (xüsusilə namazı) vaxtlı-vaxtında yerinə yetirmək;(٣)

۴. İffətli olmaq və zinadan qorunmaq;(۴)

۵. Namazlarında hər şeyi unudaraq ruhən və cismən yalnız Allaha bağlı olmaq və Onun dərgahında kiçilmək;(۵)

۶. Yersiz və lüzumsuz işlərdən uzaqlıq;(۶)

٧. İlahi ayələri eşidərkən imanlarının artması.(٧)

İctimai xüsusiyyətlər:

١. Başqalarını yaxşı işlərə dəvət və çirkin işlərdən çəkindirmək;

٢. Başqalarının maddi ehtiyaclarını təmin etmək;

٣. Mömin qardaşlarla dostluq etmək;(٨)

۴. Camaatla təmkin və təvazökarlıqla davranmaq;(٩)

۵. Xeyirxah işlərdə hamıdan irəli keçmək;(١٠)

۶. Kafirlərdən uzaqlaşmaq;(١١)

٧. Əmanətə sadiq qalmağa səy göstərmək;(١٢)

səh:۴۹

١- [١]. “Ənfal” surəsi, ayə ٢.

٢- [٢]. “Ənfal” surəsi, ayə ٢; “Tövbə” surəsi, ayə ٥١.

٣- [٣]. “Muminun” surəsi, ayə ٩.

٤- [٤]. “Muminun” surəsi, ayə ٥.

٥- [٥]. “Muminun” surəsi, ayə ٢.

٦- [٦]. “Muminun” surəsi, ayə ٣.

٧- [٧]. “Ənfal” surəsi, ayə ٢.

٨- [٨]. “Tövbə” surəsi, ayə ٧١.

٩- [٩]. “Fürqan” surəsi, ayə ٦٣.

١٠- [١٠]. “Muminun” surəsi, ayə ٥٩.

١١- [١١]. “Mücadilə” surəsi, ayə ٢٢.

١٢- [١٢]. “Muminun” surəsi, ayə ٨.

(Əhd-peymana vəfalı olmaq;(١ .٨

(Allahın Rəsuluna itaət etmək.(٢ .٩

İmam Sadiq (ə) bir rəvayətdə möminin səkkiz xüsusiyyətə malik olduğunu :buyurmuşdur

;Çətinlik zamanı dözümlü və təmkinli olar .١

;Dünyanın ağır imtahanları, bəla və müsibətlərinə səbir edər .٢

;Ruzi və rifahı geniş olarkən Allaha şükür edər .٣

;Allah-taalanın əta etdiyi ruziyə razı və qane olar .۴

;Düşmənlərə zülm və təcavüz etməz .۵

Öz yükünü dostlarının üzərinə atmaz, ya da dostluq xatirinə onların günahlarını .۶ ;öhdəsinə götürməz

;Vücudu Allaha itaət və insanlara xidmətdə əziyyət çəkər .٧

.Camaat onun əlindən əmin-amanlıqda olar .٨

O həzrət rəvayətin sonunda buyurmuşdur: "Möminin elmi onun dostu və yardımçısı, helmi və səbri yolgöstərən və məsləhətçisi, əqli əməllərə əmr edəni, rəftarı gücü və (qardaşı, yaxşılığı mehriban və qayğıkeş atasıdır."(٣

Bir sözlə, həqiqi mömin sonsuz aləmə bənzəyir. Möminlərin sifətləri və əməli xüsusiyyətləri haqda əlavə məlumat əldə etmək istəyənlər "Nəhcül-bəlağə" nin ."Həmmam" xütbəsinə müraciət edə bilərlər

---

.Muminun" surəsi, ayə ٨" . [١] -١

.Ənfal" surəsi, ayə ١" . [٢] -٢

.Səfinətül-bihar", ١-ci cild, səh. ٣٧" . [٣] -٣

ALLAHA YƏQİNLİYİN DƏRƏCƏLƏRİ.۷

İŞARƏ

Sual: Kamil iman və yəqinlik dərəcələri nədir? Müasir dövrdə bu məqamlara nail ?olanlar varmı

KAMİL İMAN VƏ YƏQİNİN (SEYRİ SÜLUK) MƏRHƏLƏLƏRİ

Qeyd etdiyimiz suala cavabın aydın olması üçün bir neçə nöqtəyə diqqət yetirmək :lazımdır

Bəndənin Allah dərgahına yüksəlişi (seyr-süluku) üfüqi yox, şaquli bir seyrdir. Şaquli .۱ dedikdə, təbii müstəvidə yox, ilahi müstəvidəki məna (üstün məkana yox, üstün .məqama nail olmaq) nəzərdə tutulur

Batində Allaha çatma yolları müxtəlif dərəcələrə bölünür. Bu yolu keçənlər öz . ۲ .səfərnamələrini "Seyr-süluk risaləsi" adlandırırlar

Bu yolu ilk dəfə keçənlər ona heç bir ad və əlamət qoymur. Onun əlamətlərini . ۳ özlərində görür, əldə etdiklərini başqaları üçün əlamət kimi qeyd edirlər. Peyğəmbərlər, imamlar və övliyalar bəşər təlimi görmədən bu yolda qabaqcıllardır. Onlar həmin yolu çətinliklə keçir, bağlı yolları açaraq onlara əlamət qoyurlar. Ariflər .onların şagirdləri sayılır

Yəqinin ən yüksək dərəcəsi ayələr, rəvayətlər və əqli .۴

dəlillərə, həmçinin ariflərin seyr etdikləri mərhələlərə əsasən, sonuncu yox, həmin .mərhələlərdən biridir

Qeyd edilənlərə diqqət yetirdikdə, yəqin və ondan yüksək mərhələyə nail olanların sayının az olduğunu görür və onların kimliyi vəfat etdikdən sonra bəlli olur. Çünki sirri gizli saxlamaq təkamül yolunun şərtlərindəndir. Müasir dövrün arifləri sırasında Seyid Əli Qazi, Ənsari Həmədani, Əllamə Təbatəbai, İlahi (Əllamə Təbatəbainin qardaşı), İmam Xomeyni, Şeyx Cavad Məliki Təbrizi, Ayətullah Bəhcətin adını çəkmək olar. .Onlar yəqin, bəlkə də, daha yüksək dərəcəyə nail olmuşlar

Cavabın sonunda bu hədisi qeyd edib sizi onun barəsində düşünməyə dəvət edirik. İmam Sadiq (ə) buyurmuşdur: "Allah-taala imanı yeddi əsas üzərində qurdu: ١. Ehsan və yaxşılıq; ٢. Düz danışmaq; ٣. Yəqin; ۴. Razılıq; ۵. Vəfalı olmaq; ۶. Elm; ٧. Səbir. Sonra onları camaat arasında böldü. Bu yeddi qismin hamısına malik olan insan kamil iman mərhələsinə çatmışdır. Böyük Allah bəzilərinə (yeddi qisimdən) bir, bəzilərinə iki, bəzilərinə üç pay və beləcə, bəzilərinə imanın bütün (yeddi) qismini əta etdi. İmanın yalnız bir payına malik olandan iki payın, iki payına malik olandan isə üç payın vəzifəsini istəməyin... Bu tələblə onların yükünü ağırlaşdırırsınız. Həqiqətən, (insanlar) (imanın yeddi qismini (kamil imanı) tədricən əldə etməlidirlər."(١)

.Üsuli-kafi", ٣-cü cild, səh. ٨٣-٨۵" . [١] -١

İŞARƏ

!Sual: Allahın zatı barəsində izah etməyinizi xahiş edirik

Bəşər Allahın görünməz zatını dərk etməyə qadir deyil. Bu barədə fikirləşən azğınlıq və .heyrətdən başqa bir şey qazanmaz

Qeybi huviyyət", "qeybi zat", "zat məqamı", "zat mərtəbəsi", bəzən də ("qeybül-" qüyub" – qeyblərin qeybi kimi) başqa sözlərlə ifadə olunan Allahın zatı mütləq varlıqdır. Onun heç bir hədd-hüdudu yoxdur. O, – istər məfhum, istərsə də xarici nümunə baxımından olsun – məhdudlaşmadan pak və münəzzəhdir; nə bir adı var, nə də sifəti; nə həmin isim və sifətlə məhdudlaşır, nə də həmin isim və sifət olmadan; nə müəyyən bir çərçivəyə salına bilir, nə də o çərçivə olmadan. Hətta məhdudluq və konkretlilik Onun üçün şərt deyil (məna kəsb etmir). Baxmayaraq ki, onlar öz yerində bir növ, konkretləşmədir, lakin Allahın zatı onlardan pak və münəzzəhdir. Onun adı və sifətləri zatından qaynaqlanır və təcəlli məqamında aşkar olur. Buna görə də, Allahın zatını əql, güman, kəşf vasitəsilə dərk etmək qeyri-mümkündür və bütün bunlar həmin məqamı qavramaqda tamamilə acizdir. Əgər kimsə bu haqda fikirləşsə, çaşqınlıqda qalar, yaxud azğınlığa düşər, nəinki, ona çatmaz, hətta ondan uzaqlaşarlar. Qurani-Kərimdə buyurulur: "Rəbbin onların

keçmişini də, gələcəyini də bilir. Onların elmi isə Allahın zatını əhatə edib qavraya bilməz."(١)

ALLAHIN ZATI HAQQINDA FİKİRLƏŞMƏK

İnsan Allahın zatından başqa, hər şeyi dərk edə bilər. Çünki onun idrakı məhdud, Allahın zatı isə hər şeydən üstündür. Hətta "işarə" ilə bu məqama yol tapmaq qeyri-mümkündür – istər hissi işarə ilə, istərsə də zehni, əqli və xəyali işarə ilə. Bəli, məhdudiyyətə sığmayan zata necə işarə etmək olar? Elə bu səbəbdən də, Allah-taalanın zatı haqqında fikirləşmək qadağan olunur. İmam Rza (ə) buyurmuşdur: "Allahın zatını hansısa bir şeyə bənzədən kəs Onu tanımamış, zat məqamına çatmaq (onu anlamaq) istəyən kəs Onun yeganəliyini qəbul etməmişdir. Allahın zatını zehnində təsəvvür edən kəs Onun həqiqətinə çatmamış, Allahın zatının hədd-hüdudu olduğunu deyən kəs Onu təsdiq etməmiş və Onun zatına işarə edən kəs Allaha üz tutmamışdır."(٢)

Hətta əql ilə eşq bir-birinə qoşulub Allahın zat məqamına doğru yüksəlmək istəsə, çaşqınlıqda qalaraq bir yerə çata bilməyəcək və bu sahədə öz acizliklərini etiraf edəcəklər.

Dua əhli "dua", ibadət əhli "ibadət", zikr əhli "zikr" və ariflər "irfan" məqamında Allahın zahiri adları ilə Onun həqiqi zatına üz tutur və Onu adları və sifətləri ilə yad edirlər. Başqa sözlə, Allahın zatını dərk etmək qeyri-mümkün olduğundan Onun zatını adları ilə çağırırlar.(٣)

QURAN NÖQTEYİ-NƏZƏRİNDƏN ALLAH

Allah-taala haqda dəqiq, əhatəli və aydın tərif bəyan edən Qurani-Kərim Onu bizə yalnız adları və sifətləri ilə tanıtdırır. Qurani-Kərim Allah-taalanın ad və sifətlərini ən

---

١- [١]. "Taha" surəsi, ayə ١١٠.

٢- [٢]. "Tövhid", Şeyx Səduq, "tövhid və nəfyut-təşbih" bölümü, səh.٣۴.

.Bax: “Məqalat”, Məhəmməd Şücai, ٣-cü cild, səh. ١٨٧-١٩١ . [٣] -٣

kamil həddə insanlara təqdim edərək onu “alim”, “geniş mərhəmət sahibi”(۱), “tez hesab çəkən”, “diri”, “əbədi”(۲), “uca”, “böyük”, “haqq”(۳), “əzəmət və kərəm sahibi”(۴), .“hər şeydən ehtiyacsız”(۵) sifətləri ilə vəsf edir

Allah-taala təsəvvür etdiyimiz hər şeydən üstün və ucadır(۶), eyni zamanda biz heç vaxt Onun həqiqətini, “cəlal” və “camal” sifətlərini olduğu kimi dərk etməyə qadir (deyilik.(۷

Allah təkdir(۸), Onun tayı-bərabəri və bənzəri yoxdur (۹) və özündən başqa heç bir (məbud da mövcud deyil.(۱۰

Allah varlıq aləminin və kainatın həqiqi maliki, padşahıdır. O, hər nöqsandan pak, müqəddəs, salamatlıq və əmin-amanlıq bəxş edən, izzətli, islahatçı, böyük, yenilməz (qüdrət sahibi(۱۱) və hər şeyə qadirdir.(۱۲

Allah bağışlayan və mehribandır. Bu iki sifət Onda elə əks olunur ki, Quranın bütün surələri bu iki sifətlə – “Bismillahir-Rəhmanir-Rəhim!” (Bağışlayan və mehriban Allahın adı) ilə başlayır. O, bəndələrinə qarşı mehriban və rəhmli olmağı özü üçün əzəldən müəyyən etmişdir!(۱۳) Onun əzəməti, böyüklüyü və kərəmi son həddədir. O, insana şah damarından da yaxındır. İnsanın adi hərəkətlərindən tutmuş ürəyindən keçən ən (gizli hisslərədək Ona məlumdur.(۱۴

.Bəqərə” surəsi, ayə ۱۱۵“ . [۱]-۱

.Ənam” surəsi, ayə ۶۲; “Taha” surəsi, ayə ۱۱۱“ . [۲]-۲

.Loğman” surəsi, ayə ۳۰“ . [۳]-۳

.Ər-Rəhman” surəsi, ayə ۲۷“ . [۴]-۴

.İxlas” surəsi, ayə ۲“ . [۵]-۵

.Taha” surəsi, ayə ۱۱۴“ . [۶]-۶

.Ənam” surəsi, ayə ۱۰۰“ . [۷]-۷

.İxlas” surəsi, ayə ۱; “Nəhl” surəsi, ayə ۱۵“ . [۸]-۸

.Şura” surəsi, ayə ۱۱“ . [۹]-۹

.Ali-İmran” surəsi, ayə ۱۸“ . [۱۰]-۱۰

۱۱- [۱۱] . “Həşr” surəsi, ayə ۲۳.

۱۲- [۱۲] . “Bəqərə” surəsi, ayə ۲۸۴.

۱۳- [۱۳] . “Ənam” surəsi, ayə ۱۲.

۱۴- [۱۴] . “Qaf” surəsi, ayə ۱۶.

O, yenilməz qüdrət və qüvvət(۱), nemət(۲), rəhmət(۳), böyük fəzilət sahibi(۴), tövbələri qəbul edən(۵), bəndələrini sevən(۶), duaları eşidən və qəbul edən, kainatı (göyləri və yeri) yaradan,(۷) ixtiyar sahibi, aləmlərin rəbbi, maliki və idarəedicisidir.(۸) Onun yaradılışda, hakimiyyətdə, rübubiyyətdə, şəfaətdə, ümumiyyətlə, heç bir sahədə şəriki və bənzəri yoxdur.(۹) Bütün insanlar Ona möhtac, O isə ehtiyacsızdır, insanların ibadətinə belə, möhtac deyil, şükrə və tərifə layiqdir. Onun bütün işləri bəyənilən(۱۰), rəhmət və qüdrəti genişdir. O, insanlara istədiyi kimi əta edir, ruzi verir(۱۱), hər yerdə bizimlə olaraq hər işimizdən agahdır.(۱۲) Bir sözlə, hansı tərəfə üz tutsaq, Allah (oradadır.(۱۳

۱- [۱] . "Ğafir" surəsi, ayə ۳; "Ənfal" surəsi, ayə ۸.

۲- [۲] . "Ğafir" surəsi, ayə ۳.

۳- [۳] . "Ənam" surəsi, ayə ۱۲۳.

۴- [۴] . "Ali-İmran" surəsi, ayə ۷۴.

۵- [۵] . "Bəqərə" surəsi, ayə ۳۷; "Ali-İmran" surəsi, ayə ۸.

۶- [۶] . "Büruc" surəsi, ayə ۱۴.

۷- [۷] . "Həşr" surəsi, ayə ۲۴; "Ənam" surəsi, ayə ۱۴.

۸- [۸] . "Fatihə" surəsi, ayə ۲.

۹- [۹] . "Ənam" surəsi, ayə ۵۷, ۱۶۲ və ۱۶۴; "Zümər" surəsi, ayə ۴۴.

۱۰- [۱۰] . "Fatir" surəsi, ayə ۱۵.

۱۱- [۱۱] . "Maidə" surəsi, ayə ۶۴.

۱۲- [۱۲] . "Hədid" surəsi, ayə ۴.

۱۳- [۱۳] . "Bəqərə" surəsi, ayə ۱۱۵.

ALLAH–TAALANIN MADDİ OLMAMASININ SÜBUTU.۹

İŞARƏ

Sual: Allah-taalanın maddi və mütləq şəkildə ehtiyacsız olmasını necə sabit etmək ?olar

ALLAH CİSİM VƏ MADDİ DEYİL

Maddi və cismani varlıq məkana malikdir.. Buna günəşi, ayı, ağacı, havanı, işığı və s. misal göstərmək olar. Allah maddi deyil; çünki maddi varlıqlar məhduddur, böyük olmalarına baxmayaraq, sonsuz deyillər. Ən böyük kəhkəşanların mövcudluq dövrü sona çatır və onlardan böyüyü təsəvvür olunur. Allah isə qeyri-məhdud, sonsuz və mütləq kamaldır. Əks-təqdirdə, möhtac və naqis olar. Maddə həm də mürəkkəbdir, yəni hissələr, ünsürlər və atomlardan təşkil olunmuşdur. Bu hissələr bir-birlərindən ayrılır. Mürəkkəb olan hər şey hissələrə və tərkiblərə ehtiyaclıdır. Allah-taala isə onlara .möhtac deyil. Çünki O, mütləq əhatəli və alimdir. Hər yerdə hazırdır

Həmçinin maddə bir haldan başqa hala keçir, onun tərkibində dəyişikliklər baş verir; bitkilər, heyvanlar, hətta günəş, dəniz və dağlar... da daim dəyişilir və bir haldan başqa hala keçir. Heyvanlar və bitkilər böyüyür və zəifləyir. Hərarət

və böyük partlayışlar nəticəsində günəşin çəkisi azalır. Dağlar günəş hərarəti, sel, zəlzələ, soyuq və digər amillərin təsirinə məruz qalır. Amma Allah-taala dəyişmir, haldan hala keçmir; çünki Onda zəifliyə səbəb olacaq heç bir nöqsan yoxdur. Təbii ki, birbaşa Allahın məxluqu sayılan, zat məqamından kənar amillər Ona təsir edə bilmir. Əks halda, O, özündən başqasına tabe olub ondan təsirlənər. Bu da əzəmətli Allahın (mütləq hakimiyyətinə uyğun deyil.(١

ALLAHIN EHTİYACSIZLIĞI

Allah mütləq şəkildə heç bir şeyə möhtac deyil; çünki O, zəruri varlıqdır (vacibül-vücuddur) və zəruri varlığın səbəbə ehtiyacı yoxdur. Əksinə O özü mümkün varlıqların (mümkünül-vücud) səbəbidir. Əslində yaranan bütün varlıqlar Ona möhtacdır. Əgər Allah başqa bir varlığa azacıq belə ehtiyac duyarsa, həmin varlıq Onun səbəbi olasıdır. Belə olduqda, artıq o, varlığı vacib olan sayıla bilməz. Başqa sözlə, Allahın "sübuti sifətləri"ni (elm, qüdrət, həyat (dirilik) və kamal) isbat etməklə, belə bir həqiqətə çatacağıq ki, bütün varlıqlar bu sifətlərdə Allaha möhtacdır. Əgər Allah-taala bu yöndə onlara möhtac olsaydı, onda, mütləq qüdrət və mütləq elm sahibi olmazdı. Bir sözlə, belə varlıq Allah yox, məxluq olardı. Halbuki, kamal və mütləq sifətlərə malik varlıq !yalnız Allahdır

səh:٥٨

.Bax: "Məarifi İslam", Məhəmməd Cavad Bahunər, səh. ١۶-١٨ . [١] -١

İLAHİ SİFƏTLƏRİN MƏNASI.۱۰

İŞARƏ

Sual: Allah-taalanın məhdud bir varlıq olmadığını nəzərə almaqla, Onun məhdud ?olmayan sifətlərini necə dərk edə bilərik

İLAHİ SİFƏTLƏRİN DƏRKİ

Əsas sual bundan ibarətdir: İnsan əqli Allahın zatının hansı sifətlərə malik olduğunu başa düşməyə qadirdirmi? Onun zatına layiq olan və layiq olmayan sifətlər hansılardır? Görəsən, insan əqli ilahi sifətləri dərk etməyə qadirdirmi? Bu haqda ?fikirləşən insan müəyyən nəticəyə nail ola bilərmi

Müsəlman sxolastlar bu sualları müxtəlif şəkildə cavablandırmışlar. Biz burada yalnız :Əllamə Təbatəbainin ən tutarlı və mükəmməl cavabını qeyd etməklə kifayətlənirik

İnsan əqli Allahın sifətlərini dərk etməyə qadir olduğundan, onlar haqqında araşdırma da apara bilər. Allahın "elm", "qüdrət" və "həyat" kimi zati; "rəhmət", "məğfirət" (bağışlamaq), "ruzi", "nemət" və "hidayət" kimi feli sifətlərini isbat etməyimizin, eləcə də, varlıqların Ona möhtac olduğunu qavramağımızın səbəbi odur ki, həmin kamal sifətlərin nümunələrini özümüzdə də görürük. Məxluqatda kamal sifətlərinin olması onların əsas mənbəyi olan Allahın həmin

kamala malik olmasını göstərir. Eyni zamanda, Allahın zatı və sifətlərinin incəliklərinə bələd olduğumuzu iddia etmirik. Əksinə, etiraf edirik ki, əqlimizlə isbat və vəsf etdiklərimiz Onun malik olduqlarından fərqlənir. Məsələn, özümüz məhdud olduğumuzdan, Allaha aid isbat və vəsf etdiyimiz elm də məhdud olur. Halbuki O, məhdud şeylərdən pak və üstündür. Bu məfhumlar məhdud olduğundan Allahın sonsuz vücudunu əks etdirə bilmir. Əlbəttə, bu, əqlin həmin mövzuda hökmünün mötəbər olmamasına səbəb deyil. Məsələn, insanın Allah-taala ilə tanışlığı əlini dəniz suyuna yaxınlaşdırıb ondan götürmək istəməsinə bənzəyir. Belə ki, o şəxsin su içməkdə məqsədi yalnız susuzluğunu aradan qaldırmaqdır. O, dənizdən iki ovucun tutacağı miqdardan artıq su götürə bilmədiyi üçün bundan yuxarı hədd haqqında əsla fikirləşmir.(١)

ALLAHIN SƏLBİ SİFƏTLƏRİ

Biz əqlimiz və düşüncəmiz miqdarında Allahın sifətlərini başa düşürük. Lakin Allaha aid edilən məfhumların həqiqi və düşüncəmizdən üstün mənalarını qəbul etmək üçün səlbi sifətlərə müraciət edir, ilahi sifətlərlə bağlı düşüncə nöqsanlarını aradan qaldırırıq. Eyni zamanda, "Allah alim, qadir və diridir!" – deyib əlavə edirik ki, O, vəsfə sığmır və bizim vəsflərimizdən olduqca üstündür. Bu bizi həqiqətə daha da yaxınlaşdırır.(٢)

Biz inanırıq ki, bu məfhumlar əqlimizin dərk etdiyi mənaların fövqündədir. Bəzilərinin iddia etdikləri kimi, bütün bu ilahi sifətlərin və adların ayrılıqda "məcaz", "təmsil" və "istiarə" olduğunu qəbul etmirik. Məsələn, "Həsən bildi" ilə "Allah bildi" ifadələri arasında heç bir fərq qoymayıb onların

---

١- [١]. "Məcmueyi-rəsail", Əllamə Təbatəbayi, səh. ٢٢٧.

٢- [٢]. "Əl-mizan", ٨-ci cild, səh.۵٧ və ۶-cı cild, səh. ١٠٠-١٠٢; "Məcmueyi-rəsail", səh. ٢٢۴-٢٢۶.

eyni məna daşıdığını düşünürük. Bu məna alimin müəyyən bir şey bilməsindən ibarətdir. Bunu da bilirik ki, Həsənin elm və biliyi yalnız zehn vasitəsilədir. Lakin bunu Allaha nisbətdə təsəvvür etmək qeyri-mümkündür; çünki Allahı zehnlə vəsf etmək olmaz. Əlbəttə, bu xüsusiyyət elmin əyani nümunələrindəndir və məfhumun dəyişilməsinə səbəb olmur. Burada məfhum birdir və əyani nümunələrin xüsusiyyətləri məfhuma təsirsizdir. Deməli, Allahın sifətlərinin bəyanında ümumi qayda onların məfhumlarını səlbi sifətlər vasitəsilə nöqsanlardan uzaq bilməkdir.(١)

Nəticə: Biz Allahın sifətləri dedikdə, insanın sifətlərindən başa düşdüyümüz mənaları nəzərdə tuturuq. Əql insanın malik olduğu sifətləri dərk etdiyi kimi, Allah-taalanın sifətlərini də dərk edir. Lakin insanla Allah arasında dərəcə fərqinə görə, Allahın sifətlərinə şübhə yaranır. Bu şübhə səlbi sifətlərin köməyilə aradan qaldırılır. Buna əsasən, sübuti və səlbi sifətlər vasitəsilə məfhumda heç bir dəyişiklik etmədən onu həqiqi xarici nümunələrə tətbiq edərək deyirik: "Allah mövcuddur, lakin Onun varlığı məxluqların varlığından fərqlənir. Allahın elmi var. Lakin Onun elmi insanların elmindən fərqlənir. Onun qüdrəti var. Lakin məxluqların qüdrəti kimi deyil. O diridir. Lakin bu dirilik məxluqların diriliyindən fərqlənir...(٢)

١- [١]. Bax: "Rəsaili-tövhidi", Əllamə Təbatəbayi, tərcümə və təhqiq: Əli Şirvani, səh. ٥٤-٥٥.

٢- [٢]. "Üsuli fəlsəfə və ravişi realizm", ٥-ci cild, səh. ١٠٥-١١٠.

ZƏRURİ VARLIĞIN (ALLAHIN) MÜTLƏQ KAMİL OLMASI.۱۱

İŞARƏ

Sual: "Vücud"un sübutunda qeyd olunduğu kimi, mümkün varlıqlar öz varlıqlarını yalnız "zəruri varlıq"dan (Allahdan) alırlarsa, nə üçün "zəruri varlıq" mütləq kamil olmalıdır? O zat bütün varlıqların yaranmasına səbəb olduğu, eyni zamanda özünün heç bir yaradanı olmadığı halda, naqis ola bilməzmi? Nə üçün zamandan kənarda – mücərrəd ?varlıqlar üçün belə – hərəkət və dəyişiklik qeyri-mümkündür

ZƏRURİ VARLIQ

Zəruri varlığın" mütləq kamilliyi, məhz, həmin məfhumun özündən alınır. Belə ki," "zəruri varlıq" naqis olarsa, hansısa bir kamal üçün imkan halı olmayasıdır. Başqa sözlə, Onun zatı kamal sayılan sifətə malik olmayacaqdır. Belə bir şəraitdə, "zəruri varlığın" zatı bəzi kamallara malik olub, digər kamallardan uzaq olmalıdır. Bu da, – əqlə əsasən, – "zəruri varlığın" varlıq və yoxluqdan ibarət olması mənasını bildirəcəkdir, yəni Allah-taala bir sıra kamallara sahib və digər kamallardan uzaqdır. Mürəkkəb varlıq – hətta əqli təhlillərə əsasən, hissələrdən təşkil olsa – öz hissələrinə möhtac olacaqdır. Belə olan təqdirdə, möhtac olan varlıq mümkün sayılacaqdır; yəni malik olmadığı kamallarla bağlı imkan

formasını daşıyacaqdır. Başqa sözlə, Allahın zatı vacib varlıqdan uzaqlaşıb, mümkün varlıqlar sırasına daxil olacaqdır. Halbuki bu – bizim fərz etdiyimiz zat – Allah-taalanın .zəruri varlıq olması ilə uyğun gəlmir və həqiqətə əksdir

Zəruri varlığın" əqlin təhlil etdiyi hissələrdən ibarət olmasının səbəbi odur ki, əql" təklikdə məhdud varlıqları iki hissədən – vücud və mahiyyətdən ibarət bilir, başqa sözlə, mümkün varlıqlarla təhlil edir. (Çünki mümkün olan hər bir şey "vücud" və "mahiyyət"dən təşkil olunmuşdur.) Lakin "zəruri varlıq" mütləq vücuddur və əql heç bir mahiyyəti ona aid edə bilmir. Nəticədə, Allah-taala hər bir tərkibdən, hətta əqlin (təhlilindəki tərkibdən uzaqdır.(١

Beləliklə, "zəruri varlığın" məfhumuna diqqət yetirdikdə, deməliyik ki, Allah-taala bütün kamallara malikdir və həqiqətdə, mütləq kamaldır. Onun müqəddəs zatından bəzi kamalları ayırmaq Onu vacib və zərurilik halından çıxarıb, mümkün bir varlıq .saymaqdır. Bizim fərziyyəmizə görə isə Allah "zəruri varlıq"dır

HƏRƏKƏT VƏ ZAMAN

Hərəkətin zamansız baş verməməsinin səbəbi hərəkətlə zamanın arasında ayrılığın olmamasıdır. Varlıqlar hərəkət vasitəsilə zamana malik olur. "Cisimlərin varlıq zatında həm hərəkət və diyişiklik, həm də zamanla həqiqi əlaqələri var!" – deyə bilmərik. Başqa sözlə, bizim dərk etdiyimiz və adını "zaman" qoyduğumuz həqiqət hərəkət, keçici dövr, tədrici yeniləşmə və seyr etməkdən başqa, bir şey deyil. Bunlar xarici həqiqətə işarə edən təbirlərdir və həqiqətin, yaxud maddi varlıqların xüsusi .keyfiyyətindən və sabit deyil, keçici olmasından ibarətdir

---

Bax: "Nihayətül-hikmət", Əllamə Təbatəbayi, səh. ۵۶; "Amuzeşi-fəlsəfə", ۲-ci cild, . [۱] -۱ .səh. ۳۵۱-۳۵۲

Zaman” hərəkətin və keçici dövrün, məhz, xarici həqiqətidir və maddi həqiqətlərin“ zatında qoyulmuşdur. Bəzən filosofların dilində belə bir ifadə ilə qarşılaşırıq: “Zaman hərəkət və keçici dövrün miqdarından ibarətdir.” Diqqət yetirmək lazımdır ki, hərəkət və keçici dövrün miqdarı onların, məhz, özüdür; hərəkət və keçici dövrü bir şey, onun miqdarını isə başqa bir şey təsəvvür etmək olmaz. Həqiqətdə, onun miqdarı müəyyən formadan (xarici hərəkətdən) ibarətdir. Belə ki, müəyyən bir hərəkət və keçici dövr (”zaman” adını özünə götürür.(۱)

Zamanın mücərrəd olması” məsələsinə gəldikdə isə, bu düzgün iddia deyildir. Zaman“ maddi varlıqların xüsusiyyətlərindəndir. Mücərrəd varlıqların yalnız bir qismi üçün ikinci dərəcəli zaman və məkan nəzərdə tutmaq olar. O da bədənlə əlaqəli ruhdur. Deməli, insanın bədəni harada olsa, ruhu da oradadır. Bədən mövcud olduğu kimi ruh da mövcuddur. Belə məkan və zamana sığmaq həqiqətdə, bədənin xasiyyətindəndir. (Sadəcə ruh onunla əlaqəli olduğundan məcazi olaraq ona aid edilmişdir.(۲)

Bax: “Amuzeşi-fəlsəfə”, Məhəmməd Şücai, ۲-ci cild, səh.۱۴۵-۱۴۶; “Məad”, ۲-ci cild, . [۱] -۱ .səh. ۱۱۴-۱۱۵

.Amuzeşi-fəlsəfə”, ۲-ci cild, səh. ۱۲۵-۱۲۶“ . [۲] -۲

ALLAHIN DÜZ DANIŞMASI.۱۲

İŞARƏ

Sual: Qurani-Kərimdə buyurulanların həqiqiliyinə yəqinlik məqsədilə Allahın düz ?danışmasını necə isbat etmək olar

Allahın danışığı ilahi rübubiyyətin, dünya və insana müdiriyyətin tələbidir. Bu danışıq elm, hikmət, insanların hidayəti və düzgün mərifətin əsasıdır. Onun hansısa söhbətlərinin həqiqətə uyğun gəlməməsi (yalan olması) ilahi hikmətin əksinədir. Allahın hikməti və müdrikliyi insanları Onun buyruqlarına inanmağa dəvət edir, onlara düzgün mərifət yolunu tanıtdırır. Beləcə, yalan Allahın sözlərinə etimadsızlıq yaradır. Bu, məxluqatın hidayət və mərifəti yönündəki ilahi məqsəd və hikmətə uyğun (gəlmədiyindən, Allah-taalanın bütün kəlamları və sözləri haqq və doğrudur.(۱

Bundan əlavə, yalan çirkin sifətlərdən sayıldığına, nadanların, ehtiyaclıların, aciz və qorxaqların üslubu olduğuna görə, Allahın rübubiyyət məqamından uzaqdır. O, heç bir şeyə ehtiyac duymadığı və Onda heç bir nöqsan olmadığı üçün yalan danışmır. Bütün gözəl və kamal sifətlərə kamil şəkildə malik olduğundan ən döğru danışandır. Qurani-(Kərimdə buyurulur: "...Allahdan daha doğru danışan kim ola bilər?"(۲

səh:۶۷

.Amuzeşe əqaid", Misbah Yəzdi, ۱-ci və ۲-ci cild, səh. ۱۱۷" . [۱] -۱

.Nisa" surəsi, ۸۷-ci ayə" . [۲] -۲

Öncə isbat olunduğu kimi, Allah-taala mütləq varlıq və mütləq həqiqətdir. Buna görə də Ona "yoxluq" və "fanilik" yol tapa bilməz. Digər tərəfdən, isbat olunmuşdur ki, kamal varlığa bərabərdir və nöqsanın mənbəyi yoxluqdur. Buna əsasən, Allah-taalanın zatı həqiqi kamala malikdir; çünki həqiqi kamal varlığa və həqiqətə qayıdışdır. Allahın zatı mütləq varlıq olduğu üçün mütləq kamaldır. Başqa sözlə, Onun zatı mütləq varlıq olduğu üçün (mümkün varlıqlar kimi) Ona əsla hədd təyin etmək olmaz. Demək, bütün səciyyəvi xüsusiyyətlər, o cümlədən, ən yüksək və mütləq kamal Onun zatına aid edilir. Onun müqəddəs zatı heç vaxt naqis sifətlərlə (nadanlıq, zəiflik, qaranlıq və yalan...) vəsf olunmaz. "Elm", "doğru danışıq", "qüdrət" və "həyat" kimi kamal sifətləri ən yüksək həddə Ona aiddir. Çünki O, mütləq varlıqdır və kamillik varlığa bərabərdir.(۱)

۱- [۱] . "Üsuli fəlsəfə və rəvişi realizm", ۵-ci cild, səh. ۱۳۲.

İŞARƏ

Sual: Zəruri varlığın əbədiliyini necə isbat etmək olar? Zəruri varlıq özünü yox edə ?bilərmi

Zəruri varlıq" məfhumundan Allahın əzəli və əbədi olması aydınlaşır. Çünki zəruri" varlığın səbəbə heç bir ehtiyacı yoxdur və O, mümkün varlıqların səbəbidir. Buradan :"zəruri varlıq" üçün iki sifət isbat olunur

Onun başqa varlıqlara möhtac olmaması; çünki Onun başqa bir varlığa azacıq belə .۱ ehtiyacı olsa, həmin varlıq Onun səbəbi (yaradanı) olacaqdır. Səbəb dedikdə, başqa .varlığın ona möhtac olması nəzərdə tutulur

Mümkün varlıqlar Onun nəticəsi və Ona möhtacdır. Allah, onların yaranışının ilk . ۲ .səbəbidir

Bu iki məsələni nəzərə almaqla deyə bilərik: Başqa bir varlığa möhtac olan varlıq ona tabedir və səbəbi aradan qalxsa, vücuda gələ bilməz. Başqa sözlə, bir varlığın müəyyən bir zamanda məhvi onun möhtac və mümkün varlıq olmasının əlamətidir. "Zəruri varlıq" sözsüz ki, mövcuddur, həmişə yaşayacaq və heç bir varlığa da möhtac deyil. Beləliklə, "zəruri varlıq" üçün iki sifət isbat olunur: ۱. Əzəlilik – yəni Onun üçün keçmişdə "yoxluq" məfhumu təsəvvür olunmur. ۲. Əbədilik – yəni gələcəkdə

səh:۶۹

də əsla yox olmayacaq. Deməli, yoxluğa və məhvə məhkum hər bir varlıq “zəruri varlıq” deyil.(۱)

Qeyd edilənlərdən aydın olur ki, zəruri varlığın özünü məhv etməsi mümkün deyil; çünki Onun varlığı vacib və zəruridir. Əgər bu zərurəti öz üzərindən götürmək istəsə, onun zatında inqilab yaranar və bu da onun zəruri varlıq olması ilə uyğun gəlməz. Başqa sözlə, zəruri varlığın məhvi qeyri-mümkün bir varlıq deməkdir. Buna əsasən, özünü məhv etməyə qadir olan varlığın məhv olması mümkündür və məhv olması mümkün olan varlıq zəruri yox, mümkün varlıq adlanır.

۱- [۱] . “Amuzeşe əqaid”, ۱-ci və ۲-ci cild, səh. ۸۴-۸۵.

İŞARƏ

Sual: “İlahi ədalət” məsələsi ilə əlaqədar belə bir sual yaranır: Quran ayələrinə və tutarlı dəlillərə əsasən, zinadan dünyaya gələn şəxs mömin ola bilməz. Ümumiyyətlə, onun günaha meyilli olması üçün zəmin daha böyükdür. Digər tərəfdən, “hədisi-qüdsi”də deyilir ki, zinadan dünyaya gələn şəxs behiştə daxil olmaz və heç vaxt Əhli-beyti (ə) sevməz. İlahi ədalətə əsasən, zinada heç bir rolu olmayan şəxs belə ?olmalıdırmı

Ədalət” hər şeyin yerini düzgün təyin etmək və onu öz yerində qərar verməkdir.“ Əmirəlmöminin Əli (ə) bu haqda buyurmuşdur: “Ədalət hər şeyi öz yerində qərar)verməkdir.”(۱

Bu tərifə əsasən, ilahi ədalət odur ki, Allah-taala hikməti ilə dünyanı xeyirli və kamil, .eləcə də, müxtəlif varlıqları son hədəfə uyğun halda yaratmışdır

Digər tərəfdən, ilahi ədalətə əsasən, kainat öz varlıq mərtəbəsinə mütənasib şəkildə xəlq olunmuş və hər bir yaranmış üçün ona uyğun gələn qayda-qanunlar, adət-ənənələr mövcuddur. Bizim həyat sürdüyümüz maddi aləm də bundan istisna deyil. Bu .səbəbdən, ona xüsusi nizam hakimdir

---

.Nəhcül-bəlağə”, hikmət: ۴۳۷“ . [۱] -۱

İxtilaflar, dəyişikliklər, hərəkət, təsir emək və təsirlənmək onun ayrılmaz .xüsusiyyətlərindən sayılır

VARLIQLARIN TƏSİRİ

Dünyanın qayda-qanunlarından biri varlıqların bir-birinə təsiri və təsirlənməsidir. Yəni bir sıra amillər bir varlığın müəyyən formaya düşməsinə təsir göstərir və o, həmin amildən təsirlənir. Buna torpaq, günəş və su vasitəsilə toxumun bitki olmasını misal .çəkmək olar. Belə ki, bitkinin dəyişməsi bu üç amilin keyfiyyətinə bağlıdır

Başqa bir misal: Valideynin ruhi xüsusiyyətləri, eləcə də, fizioloji və bioloji xüsusiyyətlər rüşeymə, uşağın cisminə birbaşa təsir göstərir. Şəriətə uyğun olmayan yolla bağlanan nütfədən dünyaya gələn uşaq anaya hakim ruhiyyə səbəbindən günaha daha meyilli olur. Bu, maddi aləmə uyğun qayda-qanunlardan təsirlənir. Bir .sıra amillər varlığa təsirini göstərir və həmin varlıq bu amillərdən təsirlənir

Yer üzündəki varlıqlar içərisində insan özünəməxsus xüsusiyyətə və formaya malikdir. Bu da, insanın həqiqi tərkibindən – cisim və ruhdan aslıdır. İnsanın quruluşu elə tənzimlənmişdir ki, bu dünyada müəyyən amillər müqabilində müqavimət göstərib onlardan təsirlənir, hətta onların təsirinin qarşısını alır. O, elm, iradə və azadlığa malik olduğu üçün maddi və digər amillərin təsiretmə qabiliyyətinin qarşısını almaq .qüdrətinə malikdir

ZİNADAN DÜNYAYA GƏLƏN ŞƏXSİN İXTİYARI

Zinadan dünyaya gələn şəxs elm və biliyini artırmaq, doğru yol seçərək ata-anasının yaratdığı cərəyana əks hərəkət etmək gücünə malikdir. Əlbəttə, bu təbii cərəyanla mübarizə aparmaq böyük müqavimət tələb edir. Lakin Allah-taala həmin müqavimətə görə, öz istəyinin əksinə hərəkət edib saleh əməl yerinə yetirənin savabını ikiqat verəcəkdir. Əgər zinadan

dünyaya gələn şəxs ata-anasının qurşandığı günahın təsirindən məcburi şəkildə günaha yönəlmişsə, niyə cəzalanmalıdır? İlahi əzab insanın qarşısında yaxşı və pis yol olduqda və insan seçim apara bildikdə həyata keçir. Belə ki, yaxşı yol seçib saleh iş görərsə, savab qazanar, əksinə, əgər pis yol seçib günaha yol verərsə, ilahi əzaba düçar olar. Bu isə bütün insanlara, hətta zinadan dünyaya gələnlərə belə, aiddir. İlahi əzabın zinadan dünyaya gələn şəxs barəsində də bəyan olunmasının səbəbi odur ki, o, .ixtiyar və iradə sahibidir, öz yolunu və taleyini dəyişdirmək qüdrətinə malikdir

Uşağın şəriətə uyğun gəlməyən çatışmazlıqları maddi aləmə hakim nizamın əksinə olmadığı üçün ilahi ədalətə zidd də deyil. Digər tərəfdən, zinadan dünyaya gələn uşağın elm, iradə və azadlığa malik olması insana hakim olan adət-ənənənin tələbinə görədir. Bu da ilahi ədalətdən sayılır. Həmçinin, həmin şəxs ixtiyar sahibi və öz yolunu dəyişməyə qadir olduğu halda, onu dəyişmədiyi üçün ilahi ədalət çərçivəsində .cəzalanacaqdır

səh:۷۳

ALLAHIN ƏDALƏTLİ OLMASININ SƏBƏBİ.۱۵

İŞARƏ

?Sual: Nəyə əsasən Allahı ədalətli bilirik

Allah-taala ən yüksək ixtiyara, yenilməz qüdrətə malik olduğu və heç bir qüvvənin təsirinə məruz qalmadığı halda, mümkün olan hər işi yerinə yetirmir. O, qadir olduğu .hər işi yox, istədiyi işi yerinə yetirir

Məlum olduğu üzrə, Onun istək və iradəsi səbəbsiz, ölçüsüz deyil. O, kamal sifətlərinin tələb etdiyi işi görür. Əgər onun kamal sifətləri bir işin baş verməsini tələb etmirsə, həmin iş yerinə yetirilmir. Allah-taala mütləq kamal sahibi olduğundan, Onun istəyi məxluqların kamal və xeyridir. Əgər bir məxluqun varlığı dünyada şər işlərin yaranmasına səbəb olursa, onun şər olmasının səbəbi vücudundakı təbiətə qayıdır. Demək, Allahın kamal sifətlərinin tələbinə görə, dünya ən çox kamal və xeyrə malik halda yaranmışdır. Bununla da, Allah-taalanın hikmət və müdriklik sifətinə sahib .olması isbat olunur

Allahın iradəsi (Onun varlığı xeyir işlərin mənbəyi olduğundan) insanın yaranışını zəruri edir. İnsanın ən əsas üstünlüklərindən biri onun ixtiyar və iradə azadlığına malik olmasıdır. Şübhəsiz, ixtiyar qüvvəsi varlığın kamal sifətlərindəndir. Ona sahib varlıq digərindən üstün və kamil

hesab olunur. İnsan bu xüsusiyyətə sahib olduğundan, həm yaxşı və saleh əməllər yerinə yetirib əbədi və son kamala çata bilər, həm də çirkin işlər görüb əbədi bədbəxtliyə və uçuruma yuvarlana bilər. Əlbəttə, Allahın istəyi insanın təkamülə çatmasıdır. Lakin təkamülə çatmaq insanın ixtiyarında qoyulduğu üçün onun şeytani istəklərə uyaraq azğınlığa düşməsi də mümkündür. Onun öz istək və ixtiyarı ilə belə .azğınlığa düşməsi də ikinci dərəcəli olaraq ilahi iradə dairəsində qərar tutacaqdır

Haqqa yönəlmək üçün xeyir və şər yollarını düzgün tanımaq lazımdır. Allah-taala insanı xeyir və məsləhətli işlərə çağırmış, günaha və azğınlığa səbəb işlərdən çəkindirmişdir ki, onun təkamülə doğru hərəkəti üçün zəmin yaransın. Çünki ilahi göstərişlər insanın öz əməllərinin nəticəsinə çatması üçün təyin edilmişdir. Bunun Allah-taalaya heç bir faydası yoxdur. Elə bu səbəbdən də, bu göstərişlərin insanın qüdrətinə münasib olması ilahi hikmətdəndir. Çünki itaəti (icrası) mümkün olmayan .göstərişlər yersizdir

Beləliklə, ədalətin ilk mərhələsinin (təklif məqamındakı ədalətin) dəlili budur ki, əgər Allah-taala öz bəndələrinə onların qüdrətindən xaric bir vəzifə təyin etsə, onların .yerinə yetirilməsi mümkünsüz olacaq və həmin vəzifə yersiz sayılacaq

İnsanlar arasında hökm verərkən ədaləti gözlədikdə, bu işin insanların müxtəlif savab və ya cəzalara layiq olmasını müəyyən etmək məqsədilə yerinə yetirilməsi isbat olunur. Belə ki, əgər ədalətin əksinə olarsa, ilahi məqsədin naqis olmasına gətirib .çıxaracaq

Nəhayət, mükafat və cəza verərkən yaradılışın son məqsədinə diqqət yetirməklə ədalət təmin olunur. Belə ki, Allah-taala insanları yaxşı və pis əməllərin nəticələrinə çatmaq üçün yaratmışdır. Əgər tələblərin əksinə mükafat və

cəza verilsə, məqsəd həyata keçməz. Beləcə, ilahi ədalətin dəlili budur ki, Onun zati sifətləri hikmət və ədalətlə rəftar etməsinə səbəb olur. O, zülmə, haqsızlığa, puç və yersiz işlərə səbəb olacaq heç bir sifətə malik deyil.(۱)

səh:۷۷

۱- [۱]. "Amuzeşe əqaid", ۱-ci cild, səh. ۱۶۲-۱۶۴.

Sual: Deyirlər ki, haram qida övlada öz təsirini göstərir. Əgər övlada haram mal ?yedirən ata-anadırsa, onların günahının acısını nə üçün övlad dadmalıdır

Aşağıda qeyd olunan incə mətləblər bu sualın cavabının daha yaxşı başa :düşülməsində bizə kömək edəcəkdir

İlahi hikmət, yaxud Allahın işlərinin məqsədyönlü olması: Bizim etiqadımız budur ki, .۱ Allahın fellərində (işlərində) xüsusi məqsəd vardır. Onun feli məsləhətə əsaslanır və xeyri məxluqlara qayıdır. Belə də deyil ki, Onun yaratdıqlarının mənfəətlərini nəzərə almaqla onun yerinə yetirilib-yetirilməməsi bərabər səviyyədə olsun. Buna görə də Allahın fellərində məqsəd fail (işi görən) yox, felin özüdür. Çünki Allahın zatı kamil, (mütləq və ehtiyacsızdır, Onun üçün heç bir məqsəd təsəvvür edilə bilməz.(۱

Bu təhlilə diqqət yetirdikdə, Allahın felləri məqsədli görünür. Yəni Allah-taala puç və .yersiz işlərdən uzaq və felləri hikmət üzündəndir

səh:۷۹

Bax: "Amuzeşi kəlami İslami", Məhəmməd Səidi Mehr, ۱-ci cild, səh. ۳۱۰ və ۳۱۴; . [۱] -۱ ."Məcmueyi-asar", Şəhid Mürtəza Mütəhhəri, ۲-ci cild, səh. ۱۴۳ və ۱۴۵

İlahi ədalət: Ədalətin ən düzgün mənası haqq sahibinə haqqı vermək və ya hər şeyi .۲ yerli-yerində qərar verməkdir. Deməк, ilahi ədalətin mənası belədir: “Allah-taala hər bir varlıqla ona layiq şəkildə rəftar edir, onu layiq olduğu məqamda görür, nəyə layiqdirsə, onu da bəxş edir və bu işdə onların istedad və bacarığı nəzərdən (qaçırılmır.”(۱)

Hikmətlə ədalətin əlaqəsi: “Hikmət” failin (iş görənin) çirkin işlərdən çəkinməsi .۳ mənasını daşıyır. Bu məna ədalətə də aiddir. Çünki ədalət yaxşı, zülm və haqsızlıq isə (pisdir. Buna əsasən, ədaləti hikmətin bir hissəsi hesab etmək olar.(۲)

Müsibətlərin mənbəyi: Dünyada insanların əzab-əziyyətə, işgəncələrə məruz .۴ :qaldığını görür və bunu gizlədə bilmirik. Bunun isə iki səbəbi ola bilər

a) İnsanın başına gələn müsibət və bəlalar pis işlərdən qaynaqlanır və onun xəta və günahlarının nəticəsidir. Onun yaranışındakı hikmətli məqsədə diqqət yetirdikdə, insanın ixtiyar sahibi olaraq yarandığını görürük. Bəziləri öz azadlıqlarından düzgün .istifadə etmir, günaha bataraq acınacaqlı aqibətə düçar olurlar

b) İnsanın başına gələn ağrı-acı və bəlaların bir hissəsi onun əməlləri ilə heç də əlaqəli deyil və günahlarının cəzası sayılmamalıdır. Məsələn, öncə bəyan olunduğu kimi, övladların bəlalarla üzləşməsi ailənin, ata-ananın onlara haram tikə yedirtməsi və .əməlləri ilə yox, başqa səbəblərlə bağlıdır

İlahi ədalət və insanın başına gələn bəlalar: Belə görünür ki, ilahi ədalət və hikmət .۵ bölməsindəki dini prinsiplərə əsasən, bəşərin başına gələn bəlaların iki qismi ilahi :ədalət və hikmətlə heç bir ziddiyyət təşkil etmir. Bu məsələni iki cür təhlil etmək olar

Aydındır ki, insanın öz əməlinin nəticəsi olan bəlaların .۱

.Amuzeşe kəlame islami”, ۱-ci cild, səh. ۳۲۶-۳۲۷“ .[۱]-۱

.Yenə orada, səh. ۳۲۵ .[۲]-۲

Allahla heç bir əlaqəsi yoxdur. Allahın ədalətinə görə, bu bəlalar insanın öz əməllərinin nəticəsidir. Lakin insanın öz əməlləri ilə bağlı olmayan və başqalarının günahı nəticəsində qarşısına çıxan çətinlik və bəlaları Allah-taala öz ədalət və rəhməti sayəsində aradan qaldırır; yəni O, elə bu dünyada, yaxud axirətdə zərər çəkən insana elə bir nemət bağışlayır ki, bu yolla öncəki məşəqqət və çətinliklər aradan qalxır və yaddan çıxır. Haram mal yeyənin pis əməli nəticəsində övladın müsibətə düçar olmasına baxmayaraq, Allah-taala öz ədaləti ilə bu müsibəti aradan qaldırır. Əlbəttə, Allahın bu işi övladın müxtəlif səbəblər üzündən öz istəyinin ardınca getməyib yaşayış yolunu dəyişdiyi zaman baş verir. Əgər öz iradəsindən düzgün şəkildə istifadə etməyə və həyati proqramlarını valideyninin tutduğu yoldan ayırmağa qadir olsa, hidayət yoluna yönəldilir. Müsibətlərin davamı və onların ağrısı insanın öz əməllərinin nəticəsi oluduğundan, ilahi ədalət həmin övladın (pis işlər ardınca gedərək öz həyat .proqramlarını dəyişmədikdə,) istər dünya, istərsə də axirtdə cəzalanmasını tələb edir

:İkinci təhlil aşağıdakı nöqtələrə diqqət yetirdikdə aydın olur .٢

a) Kainatın xüsusi nizamı var. Ona hakim qayda-qanunlar əbədi və dəyişməzdir. Bu qayda-qanunların ən üstünü "səbəb-nəticə" qanunudur. Bu qanuna əsasən, yaranmış hər bir varlığın müəyyən səbəbi olduğu üçün səbəb və nəticə arasında müəyyən əlaqələr mövcuddur. Amma nəzərə almaq lazımdır ki, hər nəticə hər səbəbdən vücuda .gəlmir

b) Dünyaya hakim nizam-intizam əbədidir və dünya mövcud ikən onun qayda-qanunları və nizam-intizamının dəyişməsini fərz etmək qeyri-mümkündür. Necə ki, .şirin olmayan şəkər və rütubətsiz su fərz etmək mümkün deyil

c) Dünyanın sabit, əbədi və dəyişməyən qanunlarının

müqəddiməsi budur ki, varlıqlar arasında fərqlərin mövcud olması zəruridir. Məsələn, səbəb və nəticə arasındakı əlaqə tələb edir ki, kor, ya şikəst halda doğulmağa səbəb varsa, ona (bir uşağın kor, yaxud şikəst doğulması ilə) uyğun gələn nəticə də olmalıdır. Başqa bir misala diqqət yetirin: Haram mal yemək və onu başqasına yedirtmək insanı dünyada bəla və müsibətlərə düçar edir. Əksinə, halal mal yemək və onu başqasına yedirtmək mal-dövlətin bərəkətli olması ilə nəticələnir. Demək, Allahın yaratdıqları arasında fərqlərin mövcudluğu sabit və diyişməyən qayda-qanunlara görədir. Onların dünyadan kənarlaşması mümkün deyildir. Ümumiyyətlə, bu nizama əsasən, belə bir .tələb ilahi ədalət və hikmətdən qaynaqlanır

Bunlara diqqət yetirdikdə, demək olar ki, haram mal yeyən övladın bəzi kamallara çatmamasının, eləcə də, bəla və müsibətə düçar olmasının səbəbi obyektiv aləmə hakim qayda-qanunlardır. Haram yeyən övladın müsibətə düçar olması Allahın ədalətinə əsla zidd deyil. Bu, Allahın haqsızlıq və yaxud insanlar arasında fərq qoymasından qaynaqlanmır. Onu Allah tərəfindən pis bir iş hesab etmək olmaz. Bundan əlavə, ilahi ədalət və hikmətə görə, həmin övlad ixtiyar və iradə azadlığına malikdir. Ondan yaxşı istifadə etməklə özünü atasının süfrəsindən yediyi haram malın acınacaqlı nəticəsindən azad edə bilər. Diqqət yetirmək lazımdır ki, insan zəhmətkeş, məsuliyyətli bir varlıqdır. O, gözəl həyat sürmək üçün çalışmalı, bəyənilməz amillər və başqalarının (hətta öz atası olsa belə) çirkin əməlləri ilə mübarizə apararaq gələcəyini .işıqlandırmalıdır

SEYİDLƏR VƏ İLAHİ ƏDALƏT.١٧

?Sual: Seyidlərin digər insanlardan üstünlüyü Allahın ədaləti ilə uyğundurmu

Seyidlərin əksəriyyətinin dünyadan imanlı halda getməsi Allahın ədaləti ilə heç də ziddiyyətli deyil. Çünki Allahın ədalətinə görə, hər kəs öz qabiliyyəti, bacarığı, əməlləri, niyyəti və danışığı əsasında haqqını alır. Seyidlər də başqaları kimi, ixtiyar sahibi olaraq müxtəlif çirkinliklər, xətalar və azğınlıqlardan kənarlaşıb haqqa tapınsalar, Allahın .ədaləti sayəsində varlıq aləminə hakim nizama görə, dünyadan mömin gedəcəklər

Digər tərəfdən, genetik və irsi amil baxımından seyidlərin nəsil-nəcabəti imamlarla əlaqələnir. Bu, onların mömin və doğru yolda olması üçün daha da münasib şərait yartsa da, haqqa yönəlməyin müxtəlif amillərindən təkcə biridir. Buna görə də bəzi seyidlər irsi xüsusiyyətlərə malik olduqları halda, onların doğru yoldan uzaq düşüb əyri və batil yol seçdiyinin şahidiyik. Allah-taalanın ədalətinə əsasən, bir insan öz ixtiyarı ilə doğru yolda qədəm götürsə və təkamülə çatması üçün çalışsa, müsbət nəticəyə çatar və imanlı halda dünyadan gedər. Seyidlərin çoxu genetiki amildən əlavə, öz ixtiyar və iradəsi ilə doğru

yolu seçir. Bunun müqabilində Allah-taala da onlara gözəl nəticə əta edəcəkdir. Digər tərəfdən, Allahın ədalətinə görə, öz istəyilə azğın yol seçən insan acınacaqlı aqibətə düçar olar, dünyadan imansız gedər. Deməli, Allah-taala öz ədaləti əsasında, öz istək .və ixtiyarı ilə batil yolu seçən seyidlər üçün acınacaqlı aqibət müəyyən etmişdir

səh:۸۴

ALLAHIN VƏSFİNDƏ İŞLƏDİLƏN ƏLA (UCA) İFADƏSİ.١٨

Sual: “Sübhanə Rəbbiyəl-əla” (Mənim uca Allahım pak və müqəddəsdir) cümləsindəki ?“əla” sözünün mənası nədir

Ucalıq” mənasını verən “əla” sözü “ülüvv” kökündən alınmışdır. Allahı uca sifəti ilə vəsf“ və zəif varlıqları Onunla müqayisə edərkən “əla”, “əliyy” və “mütəali” kimi sözlər (işlədilir.(١

Lakin Allah-taalanın ucalığı zati olduğundan, məxluqlara Onun lütf və mərhəməti sayəsində üstünlük verildiyindən, məxluqların üstünlüyünü Allah-taalanın üstünlük və ucalığı ilə müqayisə edərək “Allah yaratdığı üstün və uca məxluqlarından üstün və (ucadır!” – demək düzgün deyil və bu müqayisə mənasızdır.(٢

Əla” (uca) ifadəsi Allah-taalanın öz məxluqlarının düşüncəsindən üstünlüyünü, zatının“ dərk olunmamasını bildirir. (Onun bu məqamı əqlin fövqündə durur və hətta

---

.Rəsaili-tövhidi”, səh. ۴۶“ . [١] -١

.Şərhi tövhidi-Səduq”, Qazi Səid Qumi, ١-ci cild, səh. ٨٨“ . [٢] -٢

ilahi övliyalar belə, onu öz kəşflərində dərk edə bilmirlər.) Qurani-Kərimdə buyurulur: “(Rəbbin) Onların keçmişini də, gələcəyini də bilir. İnsanların elmi isə Onu (Allahın (zatını) əhatə edib, qavraya bilməz!”(١)

səh:٨۶

.Taha” surəsi, ayə ١١٠“ .[١]-١

Sual: Allah-taala bizi sevdiyi üçün yaratmışdır. Sevgi və məhəbbət də bir növ, ?ehtiyacdır. Görəsən, Allah-taalanın bizi yaratmağa ehtiyacı varmı

Bu irad məhəbbətin, xüsusilə, Allahın məhəbbətinin mənasına lazımınca diqqət yetirilmədiyi üçün irəli sürülmüşdür. Ümid edirik ki, bu məsələ aşağıdakı incə nöqtələrə :diqqət yetirməklə aydınlaşsın

Məhəbbətin tərifi: Qəzzali "Ehyau ülumid-din" adlı dəyərli əsərində məhəbbət və .۱ küdurətə belə tərif verir: "Məhəbbət insan təbiətinin ləzzəti hiss olunan şeylərə meyilli (olması, küdurət isə çətinliyi, ağrı-acısı hiss olunan şeylərə nifrətindən ibarətdir."(۱

Sədrül-Mütəəllihin də, məhəbbətə belə tərif vermişdir: "Məhəbbət insan təbiətinə uyğun şeyə rəğbət göstərməkdir; istər əqli, istər hissi (həqiqi), istərsə də xəyali bir şey (olsun."(۲

Deməli, məhəbbət aşiqlə məşuq arasında mülayimlik

səh:۸۷

.Ehyau ülumid-din", ۴-cü cild, səh. ۲۷۵" . [۱] -۱
.Fəlsəfə və Quran dər zəmineyi Əl-mizan" kitabından nəqlən, ۳-cü cild, səh. ۱۴۵" . [۲] -۲

meyarı olan cazibədən ibarətdir. Başqa sözlə, məhəbbət şüurlu varlığın qəlbində qarşı tərəfin varlığı ilə yaranan sakitlik, meyl və istəklərə uyğun bir hala deyilir.(۱)

۲. Məhəbbətə ehtiyac hissi: Bəşər məhəbbətə ehtiyaclıdır. Məhəbbət insanın ruhi-psixoloji duyğularının və ehtiyaclarının əsasını təşkil edir.(۲) Bu ehtiyac təmin olunmadığı zaman həyəcan və iztirab baş qaldırar. Məhəbbətin azlığı, yaxud olmaması insanın ruhunda mənfi təsir qoyub, acınacaqlı nəticələr yaradır və ictimai əlaqələri zədələyir.(۳)

Məhəbbət qaranlığa qalib gələn işıqlı çıraq, dərin duyğu, zirvələrə ucalmaq və təkamül yoludur. Buna görə də sevgi bəşər üçün ən zəruri ehtiyacdır.(۴)

۳. Məhəbbətin səbəbləri: Məhəbbət üçün müəyyən səbəblər göstərilir. Ən əhəmiyyətli səbəb insanın özü-özünü (nəfsini) sevməsidir.(۵) Hər bir əql sahibinin məhəbbət bəslədiyi ilk şey onun öz nəfsidir. Məhəbbətin tərifində qeyd etdiyimiz kimi, insanın hansısa bir şeyə sevgisi onun təbii meylinə uyğun səbəblərdən doğur. Aydındır ki, hər bir varlıq özünü hamıdan yaxşı tanıdığı üçün hər şeydən artıq öz nəfsinə daha çox məhəbbət göstərəcək. Demək olar ki, hər bir varlıq ən çox özünü sevir. Özünüsevmə hər bir şüurlu varlığın təbiətində olan yaşamaq hissidir, həmçinin varlıq kamalı da onun diqqət mərkəzindədir. Çünki nöqsan kamalın olmamasıdır və kamalın yoxluğu da, bir növ, mövcud olmamaqdır. Şüurlu varlıqlar yoxluğa və məhv olmağa nifrət etdikləri üçün (bir növ, məhv olmaq sayılan) naqisliyi xoşlamırlar. Deməli, özünüsevmə varlıq kamalına və həyata meyil deməkdir.

۱- [۱]. Bax: "Əxlaq dər Quran", Misbah Yəzdi, ۱-ci cild, səh. ۳۵۹-۳۶۰.

۲- [۲]. "Rəvanşenasiye-tərbiyəti", Əli Şəriətmədari, səh. ۲۵۱-۲۵۳.

۳- [۳]. "Məsaile nocəvanan və cəvanan", Məhəmməd Xudayarifərd, səh. ۳۱.

۴- [۴]. Bu məsələ ilə əlaqədar bax: "Ayini mehrvərzi", Məhəmmədrza Kaşifi, ۱-ci və ۲-ci bölüm.

۵- [۵]. Məhəbbət səbəblərilə tanış olmaq istəyənlər Məhəmmədrza Kaşifinin "Ayini-mehrvərzi" kitabının ۴-cü bölümünə müraciət edə bilərlər.

Allaha məhəbbət: İnsan fitrətinin məhəbbətlə qarışması Allah-taalanın zatında . ۴ məhəbbətin olmasına sübutdur. Çünki Allahda olmayan həqiqətin insanın vücudunda təzahürü qeyri-mümkündür. Görəsən, bir şəxs bir şeyə sahib olmadığı halda, onu !?başqasına əta edə bilərmi

Əbül-Həsən Deyləmi yazır: “Mənim yanımda bir filosofdan eşqin yaranması haqda (soruşulduqda, dedi: “Eşqini bildirən ilk varlıq Allahdır.”(۱

Digər tərəfdən, öncə qeyd etdiyimiz kimi, məhəbbətin ən mühüm səbəblərindən biri şüurlu varlığın özünü sevməsidir. Allah-taalanın şüurlu bir varlıq kimi özünü sevməsi mümkündür. Lakin Qurani-Kərimdə Onun öz bəndələrinə məhəbbəti ilə əlaqədar nazil (olan ayələr də vardır.(۲

Görəsən, Allahın bu məhəbbəti özünü sevməsindən fərqlidirmi? Ümumiyyətlə, Allahın ?məhəbbəti insanların məhəbbəti kimidirmi

Allahın bəndələrinə məhəbbəti bir cəhətdən özünü sevməsidir. Çünki məxluq . ۱ (yaradılmış) Allahın zatından qaynaqlanan işləri, həqiqətdə, Onun ad və sifətlərinin (əlamətidir. O, öz zatını sevdiyi üçün zatının nişanəsi olanlara da məhəbbət bəsləyir.(۳

Qazi Həmədani bu haqda yazır: “Ey eşidənlər, can həzrət Mustəfaya (s) fəda olsun! Məxluqlar elə güman edirlər ki, Allahın göstərdiyi məhəbbət və əta etdiyi nemətlər onlara xatirdir. Xeyr, bu belə deyil! Əksinə O, bunları özünə xatir görür; çünki aşiqin məşuqa mərhəməti yalnız öz eşqinə görədir. Bunu heç zaman unutma! Sən elə güman edirsən ki, Allahın həzrət Mustəfaya (s) məhəbbəti ona xatirdir? Xeyr, bu, Onun öz (eşqinə sədaqətidir.”(۴

.Ətful-əlf”, səh. ۲۸“ . [۱] -۱

.Məsələn, “Bəqərə” surəsi, ayə ۶۵; “Ali-İmran” surəsi, ayə ۳۱ . [۲] -۲

.Bax: “Əl-mizan”, ۱-ci cild, səh. ۴۱۱ . [۳] -۳

.Təmhidat”, səh. ۲۱۷“ . [۴] -۴

Allahın öz bəndələrinə məhəbbəti maddi aləmdə mövcud olan “təsirlənən” . ٢ məhəbbət deyil. İbn Sinanın dediyi kimi, Onun özünü sevməsi xeyrin dərkidir. O, öz camalını dərk etdiyi üçün aşiq və zatını tanıdığı üçün məşuqdur.(١) Onun feli zatından ayrı olmadığı və yaratdıqları felinin nəticəsi olduğu üçün onlara məhəbbət göstərir. Lakin bu məhəbbət maddi aləmdə mövcud və bəyan edilən təsirəməruz məhəbbət mənasında deyil. Əksinə xeyir və kamalı dərk etmək mənası daşıyan zata məhəbbətdir. Bu sevgi onun bəndələrə lütf, kəramət və rəhmətində görünür.(٢) Başqa .sözlə, Allah-taalanın sonsuz mərhəmətinə çatan insan Onun məhəbbətini qazanır

Buradan aydın olur ki, Allahın bəndələrə məhəbbəti Onun zatından qaynaqlanan kamal və xeyirin dərk və əta olunmasıdır. Bu, insanların bir-birinə qarşı məhəbbəti kimi deyil; çünki insanın istəklərində daxili təsirlər mövcuddur. Allahın məhəbbəti bizim bir-birimizə bəslədiyimiz məhəbbətdən fərqləndiyi üçün bizim məhəbbətimizdə mövcud olan ehtiyac Allahın məhəbbətində əsla məna kəsb etmir. Biz tənhalıqdan çıxıb ruhi sakitlik və təkamülə çatmaq və ictimai birlik yaratmaq üçün məhəbbətə möhtacıq. Elə bir məhəbbətə ki, insanın nəfsi fərəhlənərək təsir göstərir. Allahın öz bəndələrinə məhəbbətində isə bunlar əsla təsəvvür olunmur. Çünki O, tənhalıqdan çıxıb təkamülə çatmağa möhtac deyil. O, zatən ehtiyacsıdır. Onun məxluqlara sevgisi xeyir və kamal bəxş etməsidir. Bu, Onun zatında mövcuddur və bütün varlıqlarda aydın şəkildə .görünür

---

.Bax: “Risaleyi-eşq”, səh. ۴-۶ . [١] -١

.Ərbəin”, səh. ٣٩٠-٣٩١“ . [٢] -٢

Sual: Mən Allahın varlığını inkar etmirəm. Lakin deyilənlərə görə, hər bir şeyin yaradanı ?vardır. Görəsən, Allahın yaradanı və xaliqi kimdir

Bəli, hər bir şeyin, hər bir şəxsin xaliqi və yaradan səbəbi var. Amma diqqət yetirmək lazımdır ki, görəsən, bu qanunun meyarı varmı? Görəsən, Allah-taalada bu meyar ?mövcuddurmu? O da bu qanuna aid edilirmi

Əvvəla, "hər bir varlıq və nəticənin bir səbəbi vardır" – qanunu meyara əsaslanır. İslam filosofları bu məsələ ilə bağlı ayrıca bəhs etmiş və ona "Səbəbə ehtiyac meyarı" ünvanını vermişlər. Bunu qısa şəkildə belə bəyan etmək olar ki, əgər səbəb əlaqəsinin predmeti mütləq şəkildə varlıqdırsa, demək, varlıq (olduğu kimi) səbəbə möhtacdır. Lakin bu mətləb aydın və anlaşıqlı olmadığı kimi, onun heç bir dəlili də yoxdur. Üstəlik, onun əksini sübut edən dəlillər də var. Allah-taalanın varlığını sübut edən dəlillər göstərir ki, səbəbə möhtac olmayan varlıq da mövcuddur. Buna əsasən, "hər bir varlıq səbəbə möhtacdır" – qanununun predmeti mütləq deyil və onun şərti vardır. Bəs, bu ?predmetin şərti nədir

İslam filosoflarının nəzərincə, onun şərti "mümkün varlıqlar"dır; yəni zati olaraq mövcudluğu, yaxud yoxluğu

mümkün olan və fərziyyəsi qeyri-mümkün olmayan hər bir varlıq səbəbə möhtacdır. Halbuki Allah-taala "mümkün" yox, "zəruri" bir varlıqdır; Onun fərz olunmaması mümkün deyil. Onun üçün varlıq zəruri, yoxluq isə qeyri-mümkündür. Mövcud olub-olmaması bərabər olan varlığın səbəbə ehtiyacı var. Belə ki, səbəb bir tərəfi digər tərəfə qalib edərək ona varlıq verir. Çünki o şey öz-özünə nə mövcud, nə də yox ola bilər. Allah-taala isə "zəruri varlıq"dır – Onun üçün varlıq vacibdir. Buna əsasən, "hər bir şey səbəbə möhtacdır" – ifadəsində (Allaha da aid) hər varlıq yox, mümkün (varlıqlar nəzərdə tutulur.(١)

Bundan əlavə, əgər Allahı (zəruri varlığı) yaradan səbəbin mövcudluğunu fərz etsək, fəlsəfədə batilliyi sübut edilmiş sonsuzluğa – mühakimə ilə sübutların bir-birindən asılı olaraq davam edib, müəyyən bir nəticəyə çatmamasına – düçar olacağıq. Əgər (sonu olan və sonu olmayan) bir sıra səbəb və nəticələri, xaliq və məxluqları zati olaraq zəruri, səbəbi və yaradanı olmayan varlığı nəzərə almadan fərz etsək, ümumi şəkildə və ayrı-ayrılıqda onların heç biri zəruri olmayacaqdır. Zəruri olmadığına görə, vücuda da gəlməyəcəkdir. Çünki hər bir nəticə zəruri olaraq (zaman baxımından yox, dərəcə baxımından) vücuda gəlir və onun yoxluğu əsla mümkün deyil. Əgər onun min bir şərtlə yaranmasını, hər bir silsilənin mövcud olmamasını nəzərə alsaq, vacibin mövcud olmadığını görəcəyik. Məlum olduğu kimi, varlığın özünün özünə səbəb olması və öz məhvinin qarşısını ala bilməsi də belədir; çünki o silsilənin, yaxud bütün silsilənin səbəbinin mövcud olmasını fərz etsək, nəticə vacib olaraq vücuda gələcəkdir. Lakin bizim fərziyyəmizə görə, həmin səbəbin də yox olması mümkündür və nəticənin yox olması yolu həmin səbəbin yox olması vasitəsilə açıqdır. Necə ki o səbəbin yox olmasının yolu səbəb

---

.Bax: "Amuzeşi-fəlsəfə", ٢-ci cild, səh. ٢٩-٣٠ . [١]-١

olmaması vasitəsilə də açıqdır. Bu minvalla o, sonsuz olaraq nəticəsiz qalacaqdır. Yəni hər bir nəticəni nəzərə alsaq, onun yox olması yolu öncəki bütün səbəblərin yox .olmasının vasitəsilə açıqdır

Beləliklə, bütün silsilələr “vacib” yox, “imkan” mərhələsində olub, zəruri mərhələyə çatmayınca, vücuda gələ bilməz. Bu silsilədə təkcə zatən zəruri varlıq yoxluq imkanının qarşısını alır. Lakin varlıq aləmi mövcud olduğu üçün vacibdir, vacib olduğu üçün də bu aləmin başında zəruri varlıq durur və Onun zatı ilə bütün mümkünlərin varlığı zərurət (tapır.(١

.Bax: “Üsule fəlsəfə və rəvişe realizm”, ٥-ci cild, səh.٧۴-٧۶ . [١] -١

İŞARƏ

Sual: Mənim "yaşamağa razı deyiləm və məcburiyyət üzündən yaşayıram" – deməyə haqqım varmı? Mən bu dünyaya qədəm qoymağa razı olmadığım üçün əgər bir günah iş görsəm, (sözsüz ki, günahsız deyiləm) məsuliyyət daşıyırammı? Əgər Allah-taala məni yaratmasaydı, günah edib axirətdə əzab-əziyyətlərə, işgəncələrə məruz qalmazdım!

İCBARİ YARADILIŞ

Hər şeydən öncə qeyd etmək lazımdır ki, insan bu dünyaya öz istəyilə gəlməsə də, varlıq və onun təsirləri kimi misilsiz nemətə malik olmuşdur. Bunun müqabilində yoxluq və puçluq ən böyük zərərdir. Allah-taala öz lütf və mərhəməti sayəsində bizi yoxluqdan çıxarıb varlıq aləminə gətirmişdir. Bu işdə heç bir iradəmiz olmasa da, belə bir hədiyyəyə sahib olduğumuz üçün Ona şükür etməliyik!

İnsan dünyaya gəlişində heç bir rol ifa etməsə də, Allah-taala öz mərhəməti ilə onu necə yaşamaq, necə olmaq, necə hərəkət etməkdə tamamilə azad qoymuşdur. Bu da ən böyük nemətdir. Təəssüflər olsun ki, bəşər ondan yaxşı istifadə etmir. Bəli, əgər Allah-taala onu bu zəmində

düzgün, yaxud əyri yol seçməkdə məcbur etsəydi, bu sualı irəli sürmək haqqına malik !idi. Həqiqət isə belə deyil

İNSANIN MAHİYYƏTİ

Əgər insan öz mahiyyəti və məqamına diqqət etsə, heç vaxt belə bədbinliyə yol verməz. Amma insan bu üç əsas məsələ üzərində düşünsə, bu bədbinlikdən uzaqlaşar :və gözəl nəticə əldə edər

İnsan varlıq aləminin gül-çiçəyi, tacı və bütün məxluqların ən şərəflisidir. Həqiqətdə .١ (bütün dünya, məhz, onun üçün yaranmışdır.(١)

İnsanın mahiyyəti izaha ehtiyaclı bir kitabdır. Onu müəllifindən, yəni Allahdan başqa .٢ heç kəs izah edə bilməz. Çünki bu kitabın müəllifi Onun özüdür. Bu mövzuda ayə və rəvayətlərə diqqət yetirmək zəruridir. Quran insanın xaliqi kimi Allah-taalanı tanıtdırır. Onun Allaha qarşı mərifəti nə qədər artsa, həm dünyanı, həm də özünü bir o qədər yaxşı tanıyar. Çünki varlıq aləminin Xaliqi öz yaradılışında təcəlli edir və bütün yaradılış Onun nişanəsi olduğundan, Allahın xəlifəsi adını qazanan insan da Onun adlarının aşkar olduğu ünvandır. Allahı və Onun adlarının əzəmətini tanımaqla insanın məqamını (daha da artıq başa düşmək olar.(٢)

Qurani-Kərim əllidən çox ayədə pis sifətlərə toxunmuş və onlara malik olan insanı .٣ da məzəmmət etmişdir. Buna “paxıllıq”,(٣) “süstlük”,(۴) “tələskənlik”,(۵) “haqsızlıq”(۶) və “nadanlıq” kimi sifətləri misal göstərmək olar. Bütün bu rəzil sifətlər insanın təbiətindən qaynaqlanır və onların yaranma mənbəyi

---

.İsra” surəsi, ayə ٧٠; “Mizanul-hikmət”, ١-ci cild, səh. ٣۶٠-٣۶١“ . [١] -١
.Təfsiri mövzuiyi-Qurani-Kərim”, ١٣-cü cild, səh. ۵٩-٧١“ . [٢] -٢
.Mühəmməd” surəsi, ayə ٣٨“ . [٣] -٣
.Nisa” surəsi, ayə ٢٨“ . [۴] -۴
.İsra” surəsi, ayə ١١“ . [۵] -۵
.Əhzab” surəsi, ayə ٧٢“ . [۶] -۶

insanın təbii meyillərdir. Necə ki, fəzilətlər və səciyyəvi xüsusiyyətlər ən üstün təbii meyillərdən yaranıb ərsəyə gəlir. Diqqət etmək lazımdır ki, “(Yerdə və göydə) elə bir şey yoxdur ki, onun xəzinələri Bizdə olmasın. Lakin Biz ondan yalnız müəyyən (lazım olduğu) qədər göndəririk!”(١) – ayəsində “Yer aləmində çirkin və rəzilə sifətlərin heç bir əsası yoxdur!” – mənası nəzərdə tutulmur. Əlbəttə, “(Ey insan!) Sənə yetişən hər bir yaxşılıq Allahdan, sənə üz verən hər bir pislik isə özündəndir!”(٢) – ayəsinə əsasən, (bütün pisliklər və rəzil sifətlər insanın özündəndir.(٣

Bu həqiqəti unutmaq olmaz ki, batini nur insanın fitrətindən şölələnir. Əgər bu ilahi mənbə (fitrət) nəfsin istəklərilə örtülməyib qəflət yuxusundan oyansa, daha da işıqlanar. Amma o, günah pərdəsinin arxasında qalanda, günahkar insan öz mahiyyətini görmür, fitrətində nur olmadığı üçün bir müddət sonra kimliyini tamamilə yaddan çıxarar. İnsanın fitrəti yalnız elm və məhəbbətlə şölələnir, çünki Allahı insana tanıtdıran və insanı Ona çatdıran elmdir. Əgər qəflət yuxusundan oyanmaq, günahlardan və rəzil sifətlərdən uzaq olmaq istəyirsinizsə, elm ardınca getməli, ona əməl etməlisiniz. Buna əsasən, elm və biliyə yiyələnmədən ilahi mərifət ardınca getmək nadanlıqdır. Eləcə də, əməlsiz elm axtaran insanın ömrü dəyirman daşının öz .oxu ətrafında fırlanaraq dayanmasına və hərəkətsiz qalmasına bənzəyir

.İnsan özünü tanımaq üçün səy göstərməli, özünü ucuz qiymətə satmamalıdır

Ümidvar olmağın əhəmiyyəti: Allah-taala Onun rəhmətindən ümidsizliyi böyük . ۴ günahlardan və bəzən küfr bildiyi üçün həzrət Peyğəmbəri-Əkrəmə (s) xitabən :buyurmuşdur

---

.Hicr” surəsi, ayə ٢١“ . [١] -١

.Nisa” surəsi, ayə ٧٩“ . [٢] -٢

.Təfsiri Qurani-Kərim”, səh. ٧٨-٧٩“ . [٣] -٣

{قُلْ يا عِبادِىَ الَّذِينَ أَسْرَفُوا عَلى أَنْفُسِهِمْ لا تَقْنَطُوا مِنْ رَحْمَهِ اللَّهِ إِنَّ اللَّهَ يغْفِرُ الذُّنُوبَ جَمِيعًا إِنَّهُ هُوَ الْغَفُورُ الرَّحِيمُ}

Ya Peyğəmbər, bəndələrimə) de: "Ey Mənim (günah törətməklə) özlərinə zülm)" etməkdə həddi aşmış bəndələrim! Allahın rəhmətindən ümidsiz olmayın. Çünki Allah (tövbə etdikdə) bütün günahları bağışlayar. Həqiqətən, O, bağışlayan və rəhm edəndir!"(۱) Allahın belə xitab etməsinin səbəbi budur ki, əgər bir şəxs Allahın rəhmətindən ümidsiz olsa, onun öz həyatında yaxşı və bəyənilən əməllər yerinə yetirməsi, yaxud çirkin əməllərdən, böyük və kiçik günahlardan çəkinməsi üçün daxili bir amil olmayacaq. Çünki insanın daxilən təhrik olunmasında iki amil rol oynayır: ۱. .Ümid və rəhmət; ۲. İlahi əzabdan qurtuluş

Ümumiyyətlə, ilahi lütf və mərhəmət bəndələrin paklanmasına səbəb olur. Buna görə .də belə bir əhəmiyyətli məsələni unutmaq olmaz

---

.Zümər" surəsi, ayə ۵۳" . [۱] -۱

ALLAHIN RUHUNUN GENİŞLİYİ.۲۲

İŞARƏ

Sual: Deyirlər ki, Allah mücərrəddir. Digər tərəfdən mələklərin də mücərrəd olduğunu bilirik. Bu, Allah və mələklərin cinsinin bir olması mənasını ifadə etmirmi? Ümumiyyətlə, Allahın cinsi nədir? Allah öz ruhunu insana üfürdü. Bəs, heyvanların ruhu haradan gəldi? Bildiyimiz kimi, bütün insanların fitrətində Allah vardır. Buna görə də Allaha pərəstiş istəyi fitridir. Hətta heyvanlar belə, Allaha itaət edirlər. Görəsən, onların da .ruhu Allahdandır? Bu barədə izahat verməyinizi xahiş edirik

:Düzgün cavab əldə etmək üçün aşağıdakı məsələlərə diqqət yetirmək zəruridir

VARLIQ ALƏMLƏRİ

Varlıq aləmində dörd ümumi aləm mövcuddur. Onlar bir-birinə nisbətdə şiddət və :zəifliyi nəzərə alınmaqla tərtib olunmuşlar

Lahut" aləmi, yaxud "adlar və sifətlər" aləmi: Bu aləm Allah-taalanın hədsiz-" .۱ hüdudsuz kamallarından xəbər verir. Necə ki, Onun zatının pak olması hər bir eyib və nöqsandan uzaqlıq, zaman və məkanca hüdudsuzluq, yox olmamaq mənalarını göstərir. Başqa sözlə, bu aləmdə Allah-taalanın xüsusi adları, sifətləri və bəzi cilvələri .aşkar olunur

Əql, ruh və cəbərut” aləmi, yaxud “tam mücərrəd” aləm: Bu aləm maddə və onun“ .٢
.hökmlərindən pak və xalidir

Xəyal, bərzəx və mələkut” aləmi, yaxud “misal” aləmi: Bu aləm maddədən uzaq olsa“ .٣
.da, onun hökmlərilə hərəkətdədir

Təbiət” aləmi, yaxud “nasut” aləmi: Bu aləm maddə və onun hökmlərindən ayrı“ .۴
(deyil.(١

Allahın mücərrəd olması məsələsinə gəldikdə, Onun mücərrəd varlıq sayılan mələklərlə müştərək olması düzgün fikir deyil, O, mücərrəd aləmdən, hətta adlar və .sifətlər aləmindən də üstündür

Qeybi huviyyət”, “qeybi zat”, “zat məqamı”, “zat mərtəbəsi”, bəzən də (“qeybül-“ qüyub” – qeyblərin qeybi kimi) başqa sözlərlə ifadə olunan Allahın zatı mütləq varlıqdır. Onun heç bir hədd-hüdudu yoxdur. O, – istər məfhum, istərsə də xarici nümunə baxımından olsun – məhdudlaşmadan pak və münəzzəhdir; nə bir adı var, nə də sifəti; nə həmin isim və sifətlə məhdudlaşır, nə də həmin isim və sifət olmadan; nə müəyyən bir çərçivəyə salına bilir, nə də o çərçivə olmadan. Hətta məhdudluq və konkretlilik Onun üçün şərt deyil (məna kəsb etmir). Baxmayaraq ki, onlar öz yerində bir növ, konkretləşmədir, lakin Allahın zatı onlardan pak və münəzzəhdir. Onun adı və sifətləri .zatından qaynaqlanır və təcəlli məqamında aşkar olur

Allahın bütün adları və sifətləri zat məqamından sonra gəlir və təcəlla məqamında zahir olur. Allahın zatı gözlə görünmədiyi üçün Onu adları və sifətlərilə yad edirik. Əlbəttə, bu o demək deyil ki, Allahın zatında adların və sifətlərin kamalları mövcuddur. Əksinə Onun bütün adları və sifətləri pak zatında cəmlənmişdir. Bu xüsusiyyətlər Onun

---

Bax: “Rəsaili-tövhidi”, səh. ١۴١-١۴٣; “Məad ya bazgəşt be suyi-Xuda”, ١-ci cild, . [١] -١
.səh. ٢١٢-٢٢۵

vahid, bölünməz və bir olan zatının eynidir. Onun adları və sifətləri bir-birindən ayrı deyil, O, pak zatından ayrılıqda məna kəsb etmir. Onun adları və sifətləri məna cəhətdən bir-birindən fərqlənsə də, eyniyyət məqamında (gerçəklikdə) vahiddirlər. Allahın zatı bəsit olmaqla yanaşı, bütün kamilliklərə malikdir. Belə də deyil ki, Onun zatının (məsələn) bir qismini elm, bir qismini qüdrət, üçüncü qismini isə dirilik təşkil etsin. Elm, qüdrət və dirilik elə Onun zatıdır. Yəni zatından ayrı deyil, zatı ilə eynidir.

Əllamə Təbatəbai yazır: "Zəruri (vacib) varlıq xalis olduğu üçün qeyri-məhduddur. Buna görə də Onun (zata əlavə olunan) hər bir ismi, sifəti və məfhumi şərti deyil. Hətta həmin hökmdən belə pak və uzaqdır" (١)

Beləliklə, Allahın zatını əql, güman, kəşf vasitəsilə dərk etmək qeyri-mümkündür və bütün bunlar həmin məqamı qavramaqda tamamilə acizdir. Əgər kimsə bu haqda fikirləşsə, çaşqınlıqda qalar, yaxud azğınlığa düşər, nəinki, ona çatmaz, hətta ondan uzaqlaşarlar. Qurani-Kərimdə buyurulur:

{يعْلَمُ مَا بَيْنَ أَيْدِيهِمْ وَمَا خَلْفَهُمْ وَلَا يحِيطُونَ بِهِ عِلْمًا}

"Rəbbin onların keçmişini də, gələcəyini də bilir. Onların elmi isə Allahın zatını əhatə edib qavraya bilməz".

İnsan Allahın zatından başqa, hər şeyi dərk edə bilər. Çünki onun idrakı məhdud, Allahın zatı isə hər şeydən üstündür. Hətta "işarə" ilə bu məqama yol tapmaq qeyri-mümkündür – istər hissi işarə ilə, istərsə də zehni, əqli və xəyali işarə ilə. Bəli, məhdudiyyətə sığmayan zata necə işarə etmək olar? Elə bu səbəbdən də, Allah-taalanın zatı haqqında fikirləşmək qadağan olunur. İmam Rza (ə) buyurmuşdur: "Allahın zatını hansısa bir şeyə bənzədən kəs Onu tanımamış, zat məqamına çatmaq (onu anlamaq) istəyən kəs Onun yeganəliyini qəbul etməmişdir. Allahın zatını zehnində

١-[١]. "Rəsaili-tövhidi", səh. ٢٠-٢١.

təsəvvür edən kəs Onun həqiqətinə çatmamış, Allahın zatının hədd-hüdudu olduğunu deyən kəs Onu təsdiq etməmiş və Onun zatına işarə edən kəs Allaha üz (tutmamışdır."(١

Hətta əql ilə eşq bir-birinə qoşulub Allahın zat məqamına doğru yüksəlmək istəsə, çaşqınlıqda qalaraq bir yerə çata bilməyəcək və bu sahədə öz acizliklərini etiraf .edəcəklər

Dua əhli "dua", ibadət əhli "ibadət", zikr əhli "zikr" və ariflər "irfan" məqamında Allahın zahiri adları ilə Onun həqiqi zatına üz tutur və Onu adları və sifətləri ilə yad edirlər. Başqa sözlə, Allahın zatını dərk etmək qeyri-mümkün olduğundan Onun zatını adları ilə çağırırlar.(٢) Buna görə də bəziləri haqq olaraq etiqad edirlər ki, İslam dininin zühur etməsinin əsas səbəbi Allahı olduğu kimi tanıtdırmaqdır.(٣) Qurani-Kərim sözsüz ki, Allahı tanıtdıran bir kitabdır. Bu barədə ayələr o qədər aydın və dəqiqdir ki, ən böyük alimlər belə, onun müqabilində acizdirlər. Allahı bəşərin dərk etdiyi səviyyədə tanımaq (üçün Quran ayələrinə müraciət edərək onların üzərində fikirləşin.(۴

VARLIQLARIN RUHU

:Qeyd etdiyimiz sualın ikinci hissəsilə əlaqədar bir neçə nöqtəni qeyd etmək zəruridir

Ruh həyata, şüura və iradəyə malik olan və məxluq sayılan varlıqlara aid edilir. . ١ ,Şüursuz varlığa, eləcə də

.Tövhid", Şeyx Səduq, "tövhid və nəfyut-təşbih" bölümü, səh.٣۴" . [١] -١

.Bax: "Məqalat", Məhəmməd Şücai, ٣-cü cild, səh. ١٨٧-١٩١ . [٢] -٢

.Cəvane müsəlman və dünyaye mütəcəddid", Seyid Hüseyn Nəsr, səh. ٣۶" . [٣] -٣

Bəqərə" surəsi, ayə ٣٧, ١١۵ və ٢٨۴; "Ali-İmran" surəsi, ayə ١٨, ٧۴, ٣٠ və ٨; "Ənam"" . [۴] -۴ surəsi, ayə ۶٢, ١٠٠, ١٠٣, ١٨, ١٢, ١٣٣, ١۴, ١۶۴, ۵٧ və ١۶٢; "Taha" surəsi, ayə ١١١ və ١١۴; "Loğman" surəsi, ayə ٣٠; "Ər-Rəhman" surəsi, ayə ٢٧; "İxlas" surəsi, ayə ١-٢; "Hədid" surəsi, ayə ٣; "Nəml" surəsi, ayə ۵١; "Şura" surəsi, ayə ١١; "Əraf" surəsi, ayə ١٨٠; "Həşr" surəsi, ayə ٢٣; "Nəhl" surəsi, ayə ۶٠; "Ənfal" surəsi, ayə ٨; "Rəd" surəsi, ayə ١٣; "Ğafir"

surəsi, ayə ۳; “Büruc“ surəsi, ayə ۱۴; “Maidə” surəsi, ayə ۶۴; “Zuxruf” surəsi, ayə ۸۴;
. ...“Zümər” surəsi, ayə ۴۴

Allaha – ruhu şamil etmək olmaz. Bu məsələni başa düşdüyümüz kimi təsdiqləyir, həmçinin öz sözlərimizdə ruhu diri və şüurlu varlıqlara aid edirik. Beləliklə, bir şəxs ruhu mənalandırarkən onu maddi olmayan şüurlu məxluqlara aid etsə, səhv etməmişdir.(١)

٢. İsbat olunmuş məsələlərdən biri də budur ki, heyvanlar şüur və iradəyə malikdir. Bu şüur və iradə onların vərdişləri ilə bağlı deyil. Heyvanların bir sıra hərəkət və halətləri göstərir ki, onların şüur və iradəsi vərdişlərində mövcud olanlardan üstündür. Bu həqiqəti Qurani-Kərim də təsdiq etmişdir.(٢)

٣. Fəlsəfi və əqli sübutlara əsasən, şüur və iradəyə diqqət yetirsək, ruh maddi yox, mücərrəddir. Həqiqətdə, ruhun xüsusi fəaliyyətlərinə görə, onu maddi varlıq hesab etmək olmaz.(٣) İnsanın ruhunun mücərrədliyi fəlsəfi dəlillər və Quran ayələri ilə isbat olunsa da, bu dəlillərin bəzisi (o cümlədən, iradənin, şüurun və görmə qabiliyyətinin mövcud olması) heyvanların ruhunun da qeyri-maddi və mücərrəd olmasını açıqlayır.

٤. Bütün varlıq aləminin Allahın məxluqu olması və Ona aid edilməsinə baxmayaraq, Qurani-Kərimdə insanın ruhunun Allahın ruhundan olması ilə əlaqədar xüsusi söz açılmışdır.(٤) Bu səbəbdən də, bütün varlıqlar arasında yalnız insan Allahın xəlifəsi olmağa layiq görülmüşdür.(٥) Heyvanların ruhunun Allahın ruhundan olmasına gəldikdə, ayə və rəvayətlərdə bu barədə heç nə deyilməmişdir.

VARLIQLARIN TƏSBİHİ (ZİKRİ)

Ayə və rəvayətlərə əsasən, Allah-taalanın müqəddəs zatına

١- [١]. Bax: “Məarifi Quran” (Xudaşünasi, keyhanşünasi və insanşünasi), Misbah Yəzdi, ١-٣-cü cild, səh. ٣٥٥-٣٥٦.

٢- [٢]. “Məad, ya bazgəşt be suyi-Xuda”, ١-ci cild, səh. ٥٢-٦٤.

٣- [٣]. Bax: Yenə orada, səh. ١٧٨-١٩٢.

٤- [٤]. “Hicr” surəsi, ayə ٢٩; “Ənbiya” surəsi, ayə ٩١; “Səcdə” surəsi, ayə ٩.

٥- [٥]. “Bəqərə” surəsi, ayə ٣٠-٣٣.

təsbih", "təqdis" və "tənzih" edilməsi (Onu bütün eyib və nöqsanlardan uzaq bilmək)" yalnız insana yox, bütün varlıqlara aiddir; yəni bütün varlıqlar Allah-taalanın pak zatına həqiqi mənada təsbih və təqdis edir, Onu eyib və nöqsandan uzaq bilirlər. Varlıq aləminə qədəm qoyan hər mövcud öz məqamı həddində Allahı dərk edir, öz istedadı qədər Ona inanır, gücü çatdığı qədər Ona doğru can atır, elmi və biliyi qədər Ona dua edir. Allaha üz tutduğu üçün Onun yolunda addımlamağa başlayır. Allah-taalaya itaət və pərəstiş yalnız insana, ya heyvana yox, bütün varlıqlara aiddir. Ayə və rəvayətlər bu həqiqəti aydın şəkildə açıqlayır. Biz bu mövzuda iki ayə və iki rəvayətə işarə etməklə :kifayətlənirik

{تُسَبِّحُ لَهُ السَّمَاوَاتُ السَّبْعُ وَالْأَرْضُ وَمَنْ فِيهِنَّ وَإِنْ مِنْ شَىءٍ إِلَّا يسَبِّحُ بِحَمْدِهِ وَلَكِنْ لَا تَفْقَهُونَ تَسْبِيحَهُمْ إِنَّهُ كَانَ حَلِيمًا غَفُورًا}

Yeddi göy, yer və onlarda olan bütün məxluqlar Allaha təsbih deyir. Elə bir şey" .١ yoxdur ki, Allaha tərif deyib Ona şükür etməsin. Lakin siz onların təsbihini (anlamazsınız. Allah, həqiqətən, həlim və bağışlayandır."(١

Allah-taala bu ayədə əvvəlcə yeddi göyün, yerin və onlarda olanların təsbihinə toxunur, sonra məsələnin əhatəsini genişləndirərək buyurur: "Elə bir şey yoxdur ki, Allaha tərif deyib Ona şükür etməsin." Burada Allah-taala bütün məxluqların təsbihini çox zərif və incəliklə bəyan etmişdir. Nə üçün hamı Ona təsbih edir? Bu qədər məxluq hara, O hara? Bəli, Onun zatı pak və müqəddəsdir və məxluqlar Ona çata bilməz. Lakin Allah-taala həlim və bağışlayan olduğundan hamı Ona ümid bəsləyir, Ona çatmağı arzulayır və arzularına da nail olurlar. Qeyd etdiyimiz ayədə buyurulur: "Lakin siz insanlar bütün məxluqların (Allaha) təsbihini başa düşmürsünüz və ona dəqiq elminiz ".yoxdur

Doğrudan da, biz insanlar varlıqların Allaha zikr deməsini

.İsra" surəsi, ayə ۴۴" . [١]-١

və Onu yad etməsini anlamırıq. Bunu yalnız peyğəmbərlər, övliyalar və ariflər başa düşür, görürlər. Əgər biz də Allaha aşiq olsaydıq, eşqin ən yüksək mərhələsinə nail olan və bütün məxluqatın təsbih etməsini görən həzrət Davud (ə) kimi dağların təsbihini görərdik. Bəli, dağlar həmişə Allaha təsbih və təqdis edirlər. Lakin bunu .eşidən qulaq, görən göz lazımdır

{أَلَمْ تَرَ أَنَّ اللَّهَ يسَبِّحُ لَهُ مَنْ فِى السَّمَاوَاتِ وَالْأَرْضِ وَالطَّيرُ صَافَّاتٍ كُلٌّ قَدْ عَلِمَ صَلَاتَهُ وَتَسْبِيحَهُ وَاللَّهُ عَلِيمٌ بِمَا يفْعَلُونَ}

Ya Mühəmməd!) Məgər göylərdə və yerdə olanların, qanadlarını açıb uçan quşların)“ .۲ Allaha təsbih və təqdis edib şəninə tərif dediklərini görmürsənmi? Onlardan hər biri öz (duasını, şükür-sənasını bilir. Allah onların nə etdiklərini biləndir!”(۱)

Bu ayədə insanlara xəbərdarlıq edilərək buyurulur: “Bütün məxluqlar öz namazını və təsbihini yaxşı bilir.” Bu incə nöqtə belə bir həqiqəti göstərir ki, bütün məxluqlar Allahı .istəyir və Onu istədiklərini yaxşı bilirlər

Əd-durrul-mənsur” kitabında həzrət Peyğəmbərin (s) belə buyurduğu nəql olunur:“ .۳ “Həzrət Nuh (ə) vəfat edərkən iki oğluna buyurdu: “Mən sizə Allah-taalaya təsbih və həmd-səna etməyi əmr edirəm. Çünki Allah-taalaya təsbih və həmd-səna etmək hər bir məxluqun namazıdır. Buna görə də bütün məxluqlara ruzi verilir.”(۲) Yəni, məxluqlar Allaha təsbih deyib, bu işi davam etdirməklə öz ruzilərini alır və nöqsanlarını .aradan qaldırırlar

Yenə də həmin kitabda həzrət Peyğəmbərin (s) belə buyurduğu nəql olunmuşdur: .۴ “Bütün heyvanların, həşəratlar, yer, qarışqalar, bitkilər, çəyirtkələr, atlar, dəvələr, bütün canlı və cansızların ömür müddəti onların təsbihlərindədir. Onların (Allaha) təsbihi sona çatdıqda, Allah-taala onların canlarını alır. Onların canlarının alınmasının ölüm mələyinə

.Nur” surəsi, ayə ۴۱“ .[۱]-۱

.Əl-mizan”, ۱۳-cü cild, səh. ۱۲۰“ .[۲]-۲

(Əzrailə) heç bir dəxli yoxdur."(١)

Bu və digər rəvayətlərdən aydın olur ki, Allaha təsbih demək öncə dediyimiz kimi, ümumi bir məna kəsb edir, bütün məxluqlara və varlıq aləminə şamil olunur.(٢)

١- [١] . ١٢٢ .Yenə orada, səh

٢- [٢] .: Əlavə məlumat əldə etmək istəyənlər bu kitablara müraciət edə bilərlər
"Bazgəşt be-həsti", Məhəmməd Şücai, səh.۵٧-٧٠; "Məad, ya bazgəşt be suye Xuda", ١-ci cild, səh. ٢٠-۴٠.

İLAHİ İMTAHANIN FƏLSƏFƏSİ.٢٣

İŞARƏ

Sual: Nə üçün Allah-taala birinə ən gözəl nemətlər verir, digərini isə, böyük bəbəxtliklərə düçar edir? Əgər bu, ilahi bir imtahandırsa, Allah-taalanın həmin şəxsi doğulduğu andan ömrünün sonuna kimi bədbəxtlik və fəqirlik içində imtahana ?çəkməsi zülm və haqsızlıq sayılmırmı

DÜNYANIN HİKMƏTLİ NİZAMI

Əqidəmizə əsasən, Allah-taala "alim", "qüdrətli" və "mütləq xeyirxah" olduğundan, nizam-intizamı və varlıq aləmini ən gözəl, ən kamil şəkildə yaratmışdır.(١) Həmçinin, inanırıq ki, Allah-taala varlıq aləmini bir sıra sabit, əbədi (eyni zamanda zati olan) qayda-qanunlarla idarə edir. Başqa sözlə, Allah-taalanın müəyyən üslubları var ki, dünya işlərini yalnız həmin üslublarla idarə edir. Bu üslublar və qayda-qanunlar insanlar arasında adət-ənənə forması almış ictimai müqavilə, əhd-peyman, qərar və zehni iltizam deyil, dünya və ondakı varlıqların keyfiyyəti üzərində qurulan "təkvini" bir .həqiqətdir və onun dəyişdirilməsi qeyri-mümkündür

.Maddi aləm varlıq mərtəbəsinə uyğun hökmlərə malikdir

.Muminun" surəsi, ayə ١۴; "Tin" surəsi, ayə ۴" . [١]-١

Belə ki, əgər bu hökmlər, qayda-qanunlar və adət-ənənələr mövcud olmasa, maddi aləmdən heç bir əsər-əlamət qalmaz. Bu aləmdə ziddiyyət, məhdudluq, fanilik mövcuddur. Təbiət aləminin də müxtəlif və fərqli xüsusiyyətləri var. Bu aləmdə qəm-qüssə şadlığa, işgəncə rifaha, ümid məğlubiyyətə qarışmışdır. Bütün bu təsirlər onun özünəməxsus quruluşunun tələbidir. Maddi aləm özünəməxsus prinsiplərinə görə, "şər" adlandırdığımız bəlalar, müsibət, əzab-əziyyət, möhnət və xəstəliklərin, eləcə də, "xeyir" adı verdiyimiz xoşbəxtliklər, səadət, müvəffəqiyyət, şadlıq və zəfərlərin mənbəyidir. Bəzən bu şər və xeyir işlərdə insanın istək və iradəsi də rol oynayır; yəni insan – maddi aləmdə onun varlığının bir hissəsi olan – öz elmi, məlumatı və ixtiyarı ilə ya əyri yola qədəm qoyaraq şər işlərin, ya da düz yolda hərəkət edərək özü və cəmiyyəti üçün müxtəlif xeyir işlərin mənbəyi olur. Bəzən də bu xeyir və şər işlərdə insanın istək və iradəsi heç bir yol oynamır. Bəzi şər, yaxud xeyir işlər maddi aləmə hakim qayda-qanunların və adət-ənənələrin tələbi ilə insanın ixtiyarından xaric təbii (amillərə bağlıdır.(١

XOŞBƏXTLİK VƏ BƏDBƏXTLİK

Qeyd olunan həqiqətlərə diqqət yetirdikdə, yəqinliklə demək olar ki, Allah-taala heç bir şəxsə bütün nemətləri bağışlamamışdır. Belə ki, kimsə tam mənada bədbəxt edilmir. Görəsən, "Allah ona bütün nemətləri bağışlamışdır!" – ifadəsini işlətmək üçün maddi dünyada hər cəhətdən nemətlərə malik bir insan tapmaq olarmı? Digər tərəfdən, "Allah-taala onu bütün bədbəxtliklərə düçar etmişdir!" – demək üçün təbiət aləmində hər cəhətdən bədbəxt şəxs tapmaq mümkündürmü? Gördüyümüz kimi, dünyaya məxsus olan qayda-qanunlar və

.Ədli-İlahi", səh. ١۶٩-١٧٢" .[١]-١

adət-ənənələrin tələbi ilə, xoşbəxtliklər və bədbəxtliklər bir-birilə qarışmışdır. Elə bir şəxs tapmaq olmaz ki, tam xoşbəxtlik, yaxud tam bədbəxtlik içində olsun. Elə insanlar var ki, məişət baxımından rifah içində yaşadıqları halda, ruhi, psixoloji və fiziki çətinliklərdən uzaq deyillər. Elələri var ki, yüksək istedada, hədsiz gözəlliyə malik olduqları halda, yoxsulluğa, əxlaqsızlığa, ailə problemlərinə düçar olaraq əzab-əziyyət çəkirlər. Bəli, elələri də var ki, fəqir olduğu, yeməyə bir şey tapmadığı halda, fiziki və psixoloji cəhətdən sağlamdır. Elə insanlar da var ki, maddi rifah içində yaşasa da, .gözəllik və elmdən məhrumdurdlar

Xoşbəxtlik və bədbəxtlik həqiqətdə insanın öz əməlləri, rəftarları, iradə və istəklərindən asılıdır və Allah-taala ilə əlaqəli deyil. İnsan düzgün, yaxud əyri yol seçməklə özünü xoşbəxt, yaxud bədbəxt edə bilər.(۱) Dini təlimlərə əsasən, insanın iradəsi olmadan baş verən xeyir və şər işlərin səbəbi onun sınağa çəkilməsidir. Bu imtahan, nəinki, Allahın ədalətinə zidd deyil, hətta Onun hikmətinə əsaslanır. Bu imtahan vasitəsilə yaxşı insanlar pis insanlardan seçilir. Görəsən, şagirdlərin ilin ya birinci rübündə, ya ortasında, ya da sonunda imtahan verməsi, onlara haqsızlıq və zülmdürmü? Yoxsa, bu, onların yuxarı sinfə keçmələri üçün köməkdirmi? Allah-taala maddi aləm və onun qayda-qanunlarını elə tənzimləmişdir ki, insan həmişə imtahan halında olaraq, yalnız Allah bəndəsi olduğunu, niyyət və məqsədinin xalisliyini .göstərsin

İmtahan və sınaq, habelə onun müxtəlif yönləri insanın tutarlı cavab tapmasına kömək edir. Ayə və rəvayətlərə əsaslanaraq bu böyük ilahi nemətin bir qismini :araşdırırıq

---

.Şura" surəsi, ayə ۳۰; "Ali-İmran" surəsi, ayə ۱۶۵-۱۶۶; "Rum" surəsi, ayə ۴۱" . [۱]-۱

İlahi imtahan: Allah-taala imtahanını “bəla”, “fitnə” və eyni kökdən olan sözlərlə yad .۱ etmişdir.(۱) Ərəb dilində “bəla” sözü həm nemət, həm də möhnət və müsibət mənasında işlədilir. Hər iki məna ilahi imtahan sayılır. Möhnət və müsibət insanın səbir, nemət isə şükür sınağı üçündür.(۲) Qurani-Kərimdə də “xeyir” və “şər” işlər imtahan kimi qələmə verilmişdir.(۳) Çətinliklər, müsibətlər və bədbəxtliklər ilahi imtahan (sayıldığı kimi, nemətlər, şadlıqlar və xoşbəxtliklər də ilahi sınaq hesab olunur.(۴

Nə üçün imtahan?: Ayə və rəvayətlər ilahi imtahanın fəlsəfə və hikmətini müxtəlif .۲ :ifadələrlə bəyan etmişdir. Onların ən əhəmiyyətlisi bunlardır

Bəla və imtahan insanın oyanışına səbəb olur. İmtahana çəkilən şəxs qəflət, çirkinlik .۱ (və azğınlıq içində olmasından xəbər tutur.(۵

(İlahi imtahan Allahı insanın yadına salır.(۶ .۲

Nemətə sahib və möhnətə düçar olmaq zülümkar və kafir şəxsin pak və mücahid .۳ (şəxsdən ayırd edilməsinə səbəb olur.(۷

(İmtahan insanın niyyətinin nə qədər xalis və saf olmasını müəyyən edir.(۸ .۴

Bəla və müsibət əməlin keyfiyyətini və insanlardan hansının daha gözəl əməl sahibi .۵ (olduğunu ayırd edir.(۹

(Bəla, müsibət və çətinliklər insanın günahlarını yuyur.(۱۰ .۶

Ənbiya” surəsi, ayə ۳۵; “Bəqərə” surəsi, ayə ۴۹; “Büruc“ surəsi, ayə ۱۰; “Tövbə”“ . [۱] -۱ .surəsi, ayə ۱۲۶; “Maidə” surəsi, ayə ۴۹; “Hud” surəsi, ayə ۷ və s

.Müfrədati Rağib”, səh. ۶۱“ . [۲] -۲

.Ənbiya” surəsi, ayə ۳۵“ . [۳] -۳

Ali-İmran” surəsi, ayə ۱۸۶; “Ənkəbut” surəsi, ayə ۱-۳; “Mizanul-hikmət”, ۱-ci cild,“ . [۴] -۴ .səh. ۴۷۸, hədis: ۱۸۸۶ və səh. ۴۷۹, hədis: ۱۸۸۸

.Mizanul-hikmət”, ۱-ci cild, səh. ۴۹۰“ . [۵] -۵

.Əraf” surəsi, ayə ۱۳۰; “Tövbə” surəsi, ayə ۱۲۶“ . [۶] -۶

.Ali-İmran” surəsi, ayə ۱۷۹, ۱۳۸ və ۱۴۲“ . [۷] -۷

.Ali-İmran” surəsi, ayə ۱۵۴“ . [۸] -۸

.Hud” surəsi, ayə ۷; “Kəhf” surəsi, ayə ۷; “Mülk” surəsi, ayə ۲“ . [۹] -۹

.Mizanul-hikmət”, ۱-ci cild, səh. ۴۹۰“ . [۱۰] -۱۰

۷. İlahi imtahan və sınaq təkəbbürü, qüruru insanın qəlbindən çıxarıb ona təvazökarlıq öyrədir, eləcə də, Allahın lütf və mərhəmət qapılarını bəşər cəmiyyətinin üzünə açır.(۱)

۸. Mömin şəxs ilahi imtahan vasitəsilə təcrübə kəsb edir.(۲)

Ümumiyyətlə, belə bir qənaətə gəlmək olar ki, nemət, səadət və xoşbəxtlik, habelə bəla, müsibət və bədbəxtlik içində yaşamaq əqidə və imanı möhkəmlətmək, Allaha üz tutmaq, boş-boş xəyallardan uzaqlaşmaq və əməldə tövhidə çatmaq üçündür.

۳. İman və imtahan: Bir sıra ayə və rəvayətlərdə göstərilir ki, möminlər Allaha iman gətirdikləri üçün hamıdan çox sınağa çəkilərlər. Hətta mal-dövlətləri və övladları onlar üçün sınaq vasitəsi hesab olunmuşdur.(۳) Möminlərin imtahanı zinətə bənzədilmiş, sanki mömin şəxs onunla bəzənmişdir.(۴) Bu sınaq həm də "ana südü" kimi qələmə verilmişdir. Körpə öz aclığını onunla aradan qaldırır.(۵)

Mömin şəxs öz imanı həddində müxtəlif sınaqlara çəkilər və bu, onun imanının keyfiyyət və kəmiyyətinin çoxalmasına səbəb olur. Çünki bu imtahan sayəsində onun imanının əsas ünsürləri artır; yəni həm mərifəti çoxalır, həm də Allaha qəlbən təslimçiliyi öz mənasını kəsb edir. Həqiqətdə, bu imtahanlar vasitəsilə mömin şəxsin qiymət və dəyəri artır. Elə buna görə də, həzrət Adəm (ə),(۶) həzrət Nuh (ə),(۷) həzrət Yunis (ə),(۸) həzrət Əyyub (ə)(۹) və həzrət Mühəmməd (s)(۱۰) kimi

səh:۱۱۱

۱- [۱]. "Mizanul-hikmət", ۱-ci cild, səh. ۴۸۱, hədis: ۱۸۹۵.

۲- [۲]. Yenə orada, hədis: ۱۸۹۷.

۳- [۳]. "Ənfal" surəsi, ayə ۲۷-۲۸; "Təğabun" surəsi, ayə ۱۴-۱۵.

۴- [۴]. "Mizanul-hikmət", ۱-ci cild, səh. ۴۸۷, hədis: ۱۹۲۸.

۵- [۵]. Yenə orada, səh. ۴۸۸, hədis: ۱۹۳۲.

۶- [۶]. "Bəqərə" surəsi, ayə ۳۵-۳۸; "Əraf" surəsi, ayə ۱۹-۲۵; "Taha" surəsi, ayə ۱۱۵-۱۲۳.

۷- [۷]. "Bəqərə" surəsi, ayə ۱۲۴; "Saffat" surəsi, ayə ۹۹-۱۱۳.

۸- [۸]. "Ənbiya" surəsi, ayə ۸۷-۸۸; "Saffat", ۱۳۹-۱۴۸.

۹- [۹]. "Ənbiya" surəsi, ayə ۸۳-۸۴.

۱۰- [۱۰]. "Hicr" surəsi, ayə ۶-۸; "İsra" surəsi, ayə ۹۰-۹۳; "Təkvir" surəsi, ayə ۲۲-۲۵.

ilahi peyğəmbərlər o qədər əzab-əziyyətlərə məruz qalaraq ən ağır müsibətlərlə sınaqdan keçdilər.(1)

Allah-taala imtahanı dünyaya hikmətli qanun kimi hakim etmiş, sakitlik və həyəcanla, çətinlik və rahatlıqla birgə qərar vermişdir. Beləcə, təqvalı insanlar yoxlanılır və möminlərə doğru yolu tutmaqda, habelə həmin yolu davam etdirməkdə kömək olunur.(2) Bu məsələ çox əhəmiyyətlidir. Bir şəxs özünün imtahana çəkildiyini görəndə, bilsin ki, Allahın qəzəbinə düçar olmuşdur.(3) Deməli, aşiqlərin öz kamilliklərini müsibətlər və çətinliklərdə görməsi səbəbsiz deyil.

Diqqət yetirmək lazımdır ki, insanın yaxşı və pis yol seçməkdə ixtiyar sahibi edilməsi imtahan yönünə malikdir. Buna görə də imtahan yaxşı həyata nail olmaq məqsədinə şərikdir. Necə ki, insanın tərəqqi və tənəzzül yollarını seçməsi də imtahan yönlüdür. Bu baxımdan da, imtahan insanın yaxşı həyat sürməsində mühüm rol oynayır. "Mülhimə" (danışan, xeyir və şər işləri bilən),(4) "müsəvvələ" (çirkin əməllərə sövq etdirən və onları insana gözəl göstərən)(5) "əmmarə" (pis işlər görməyə əmr edən),(6) "ləvvamə" (günah etdiyi üçün, yaxud yaxşı əməlim azdır deyə, özünü qınayan),(7) "mütməinnə" (öz əməlindən və imanından arxayın olan)(8) nəfslərin, eləcə də, müxtəlif dəyişikliklərin mövcudluğu ilahi imtahan və onun mərtəbələrinin yüksək əhəmiyyət kəsb etdiyini göstərir.(9)

səh:112

1- [1]. "Əl-ibtila", Məhəmməd Saleh Abdullah Mirğəni, 2-ci bölüm.

2- [2]. "Bəqərə" surəsi, ayə 214; "Ali-İmran" surəsi, ayə 142; "Nisa" surəsi, ayə 95-96.

3- [3]. "Mizanul-hikmət", 1-ci cild, səh.485-486.

4- [4]. "Şəms" surəsi, ayə 7-8.

5- [5]. "Yusuf" surəsi, ayə 18.

6- [6]. "Yusuf" surəsi, ayə 18.

7- [7]. "Qiyamət" surəsi, ayə 2.

8- [8]. "Fəcr" surəsi, ayə 27-28.

9- [9]. "Təfsiri mövzuiyi Quran (Surət və sirəti insan dər Quran)", 13-cü cild, səh. 94-96.

ALLAHIN TƏYİN ETDİYİ QİSMƏT QƏZAVÜ–QƏDƏR.۲۴

?Sual: “İnsan ixtiyar sahibi olmağa məcburdur!” – müddəası barədə nəzəriniz nədir

Biz Allahın təyin etdiyi qəzavü-qədər və qismətə, yəni əşya üçün ölçü və miqdar təyininə inanırıq. Təqdir məxluqların idarə olunmasından ibarətdir. Belə ki, təqdir fenomenlərə təsirlidir və bu, təbii olaraq hər bir fenomenin – cins, növ, şəxs və şəxsin halətləri də bir-birindən fərqləndiyi kimi – uzaq və yaxınlığını nəzərə almaqla bir-birindən seçilir. Məsələn, insanın ümumi taleyi onun müəyyən vaxta qədər həyat sürməsidir. Hər bir şəxs barədə yazılan təqdir bundan ibarətdir ki, ata və ana vasitəsilə dünyaya göz açsın. Eləcə də, insanın ruzisində, çətinlik və ixtiyari işlərində təqdir onların hər biri üçün xüsusi şəraitin yaranması deməkdir. Həqiqətdə, Allahın müəyyən etdiyi təqdir və qismətin mənası odur ki, O, hər hansı bir məxluqu zəruri xüsusiyyətləri, şəraiti, tutumu, qeyd-şərti, həddi-hüdudu və istedadlarını nəzərə .alaraq vücuda gətirir.(۱) Bu da insanın ixtiyarı ilə heç də ziddiyyət təşkil etmir

---

Fürqan” surəsi, ayə ۲; “Qəmər” surəsi, ayə ۴۹; “Yasin” surəsi, ayə ۳۸; “Muminun” “ . [۱] -۱
.surəsi, ayə ۱۸; “Əla” surəsi, ayə ۳

Çünki onun ixtiyar sahibi olması, ixtiyari olaraq yerinə yetirdiyi əməllər və ixtiyari işlərinin müqəddimələri hər hansı bir varlığın özünəməxsus dairədə gerçəkləşməsinə bənzəyir. Bu da Allahın təyin etdiyi təqdirdir. Məsələn, (ixtiyari əməl sayılan) danışıq mütləq insanın özünə uyğun olaraq gerçəkləşməli və danışıq forması almalıdır. Buna görə də Allah-taala nəfəs borularını, qırtlağı, səs tellərini, dili, dişləri və dodaqları yaratmış, bu üzvləri (azad əməl sayılan) danışığın gerçəkləşməsi üçün müqəddimə təyin etmişdir. O, azad işlərin müqəddimələri üçün də xüsusi şərtlər təyin etmişdir. Məsələn, insanın qidalanması üçün bədəndə bəzi üzvlər yaratmış və onların funksiyalarını müəyyən etmişdir. İnsanın qidalanmasında bəzi üzvlər mühüm rol .oynayır. Əgər onlar olmasa, azad qidalanma prosesi gerçəkləşməz

Ümumiyyətlə, bu qəbil təqdirlə bağlı bütün işlər məcburidir (təkvinidir), insanın iradə azadlığı onda heç bir rol oynamır. Bədən üzvlərimiz bizə məcburi verilmişdir. Bədənimizdə hansı üzvün olub-olmaması ilə bağlı heç bir ixtiyarımız yoxdur və bu işə qüdrətimiz çatmır. Bəli, azad əməllərin müqəddimləri məcburi olaraq yaranmışdır .((əgər bu müqəddimələr olmasaydı, ixtiyari əməllər həyata keçməzdi

Allah-taala müəyyən etdiyi təqdirlə insanın yaşayışı üçün bəzi məhdudiyyət və şərait qərar vermişdir. Bizə məcburi olaraq əta olunan fəaliyyət onun daxilində yerinə yetirilir. Biz bu çərçivə daxilində ixtiyar sahibi olub istədiyimiz işi görə bilsək də, ona tabe olub-olmamaq ixtiyarımızdan xaricdir. Başqa sözlə, bütün azad işlərin müqəddimələri və həyata keçirən hissələri (məsələn, bədən üzvləri) – varlıq aləminin tələbinə görə – Allahın müəyyən etdiyi təqdir əsasında məcburdur. Lakin həmin (müqəddimələrdən necə istifadə etmək bizim öz ixtiyarımızdadır.(١)

.Bax: “Sual və cavablar”, Məhəmməd Rza Kaşifi, ١-ci cild, səh.۶١-۶٣ . [١]-١

İŞARƏ

Sual: Allah-taalanın məxluqlara lütfü (diqqəti) barəsində mütaliələrimdə bu lütfün qabiliyyət və bacarıq məsələsilə birgə bəyan olunduğunu, səbəb-nəticə qanununun zərurət olaraq heç bir şəraitdə dəyişdirilməsinin və hissələrinin bir-birindən ayrılmasının mümkün olmadığını müşahidə etdim. Bu qanunu qəbul edir və soruşmaq :istəyirəm ki

Qabiliyyət məsələsində varlığın nöqsanlarla üzləşməsi obyektiv nizamın məcburi . ۱ ?olmasından irəli gəlirmi

Bir şəxs üçün qeyri-ixtiyari amillərin yaratdığı şərait Allah-taalanın ədaləti ilə necə . ۲ uyğun gəlir? Bir şəxs sabit və dəyişməz səbəb-nəticə qanununa əsasən, bir sıra ?qabiliyyətsizliklərlə üzləşir. O, buna görə etiraz edə bilərmi

İnayət" sözü failin (iş görənin) öz işinə diqqət yetirməsi mənasını veir. Belə ki, onun işi" xeyirlə, yaxud xeyrin ən gözəl halında tamamlansın. Diqqət yetirmək lazımdır ki, insan barəsində işlədilən "inayət"in məfhumu hədəf və məqsəd baxımından Allah-taalaya aid edilən mənadan tamamilə fərqlənir; yəni insanın öz işlərində "inayət"i – diqqəti malik olmadığı bir sıra mənfəətlərə çatmaq üçündür. Lakin Allah-taala mütləq şəkildə kamil və zatən ehtiyacsız olduğundan, onun öz fellərinə diqqəti zatından üstün bir .məqsəd daşımır

Deyilənlərə diqqət yetirdikdə, məlum olur ki, Allah-taalanın diqqəti bu mənadadır: O, fail və varlıq aləminin yaradanı kimi, məxluqları müqəddəs zatı və qüdrətinin göstəricisinə bir nümunə olduğu üçün, ciddi səy göstərərək onları ən çox xeyir və kamilliyə malik halda yaratmışdır.(١)

Allahın diqqətinin tələb etdiyi ən mühüm işlərdən biri varlıq aləminin ən gözəl və kamil şəkildə yaranmasıdır. Onun diqqətinə əsasən, elə bir aləm, nizam-intizam xəlq olunmalıdır ki, varlığın kamal sifətləri ən yüksək dərəcədə gerçəkləşsin. Yəni müxtəlif aləmlər və onun varlıqları elə yaransın ki, məxluqların əksəriyyəti ən üstün keyfiyyətlərdən bəhrələnsin. Varlıq aləminin bu gözəlliyi və üstünlüyü başqa yollarla da isbat oluna bilər; məsələn, dəlillərdən biri budur: Əgər Allah-taala dünyanı ən gözəl nizam-intizamla yaratmasaydı, səbəbi bu ola bilərdi ki, ya (dünyanı ən gözəl və kamil şəkildə yaratmağa) Onun elmi çatmır, ya bunu istəmir, ya onu yaratmağa qadir deyil, ya da onu (kamil şəkildə) yaratmağa paxıllıq etmişdir. Halbuki bu fərziyyələrin heç biri Allah-taala barəsində düzgün deyil. Beləcə, varlıq aləminin ən kamil və ən gözəl nizama malik olduğu isbat edilir.(٢) Qurani-Kərimdə də bu məsələyə işarə ilə buyurulur: "O, yaratdığı hər şeyi gözəl (biçimdə) yaratdı."(٣) Başqa bir ayədə belə buyurulur: "(O gün) Dağlara baxıb onları donmuş (hərəkətsiz durmuş) güman edərsən, halbuki, onlar bulud keçdiyi kimi keçib gedirlər. Bu, hər şeyi möhkəmliklə, yerli-yerində edən Allahın işidir!"(۴)

Allah-taalanın diqqəti və "varlıq aləminin ən kamil və

١- [١] . Bu məsələ ilə əlaqədar bax: "Təliqətun əla nihayətul-hikmə", Misbah Yəzdi, səh. ۴۶٢-۴۶٣; "Əl-məbdə vəl-məad", Sədruddin Şirazi, səh. ٢۴۵-٢۴٧.

٢- [٢] . Bax: "Amuzeşi-fəlsəfə", ٢-ci cild, səh. ٣٩٢; "Əl-məbdə vəl-məad", səh. ١٩٣-٢٢٢.

٣- [٣] . "Səcdə" surəsi, ayə ٧.

۴- [۴] . "Nəml" surəsi, ayə ٨٨.

ən gözəl şəkildə yaranması" barəsindəki araşdırmalara diqqət yetirdikdə, belə bir sual yaranır: Dünyada şər işlərin – nöqsanların, naqisliklərin mövcud olması varlıq aləminin ən gözəl və ən kamil şəkildə yaranması ilə necə uyğun gəlir və bunu Allahın diqqəti ilə necə əlaqələndirmək olar? Başqa sözlə, Allahın lütf və diqqəti varlıq aləminin ən gözəl şəkildə yaranmasını tələb edir. Lakin şərlər, naqisliklər gözəl quruluşla, nəticədə, Allahın diqqəti ilə uyğun gəlmir. Bu ziddiyyəti aşağıdakı məsələlərə diqqət yetirməklə :aydınlaşdırmaq olar

Bu sualın cavabını Allahın lütf və diqqətini araşdırarkən qeyd etdik; belə ki, Allah- .١ taalanın məxluqları yaratmaqda ciddi səyi və diqqəti onların mütləq, tam xeyir və kamilliyə malik olmaları yox, əksinə daha artıq xeyir və kamilliklə yaranmalarıdır (çünki mütləq, tam kamillik və xeyir yalnız Allah-taalanın pak zatına aiddir). Diqqətin tələbinə gəldikdə isə, onun mütləq və tam gözəlliklə deyil, məxluqların mümkün qədər gözəlliyə malik olması ilə uyğun gəldiyini bəyan etdik (çünki tam gözəllik məxluqlara yox varlıq .(aləminin Xaliqinə aiddir

Dünyanın bütün şər işləri, naqislikləri, nöqsanları və pislikləri varlığa yox, yoxluğa .٢ aiddir. Buna əsasən, dünyadakı varlıqları iki qismə – yaxşı və pis varlıqlara – bölmək olmaz. Deyə bilmərik ki, yaxşı varlıqları yaradan Allah, nə üçün pis varlıqları da (yaratmışdır?"(١

Dünya xeyir və şər işlərin bir-birilə yanaşı olmasını tələb edir. Xeyir və şəri bir- .٣ birindən ayırmaq olmaz. Əgər dünyada həyat və dirilik varsa, onun kənarında ölüm də olmalıdır; əgər sərvət, mal-dövlət varsa, onun kənarında yoxsulluq da olmalıdır; əgər qüdrət varsa, onun kənarında

---

.Bax: "Tövhid", Şəhid Mürtəza Mütəhhəri, səh. ٢٨٧-٢٨٨ . [١] -١

zəiflik də olmalıdır… Bizim yaşadığımız dünya maddi aləmdən, hərəkətdən, dəyişiklikdən, təzad və ziddiyyətdən ibarətdir. Bu xüsusiyyətlər valığın yox, maddi aləmin zatının ayrılmaz hissəsidir. Çünki bu varlıq aləmində (öz yerində isbat olunduğu kimi) digər aləmlər də mövcuddur. Maddi aləmin qayda-qanunları orada əsla hökm (sürmür. Buna, mücərrəd (metafizik) aləmləri misal göstərmək olar.(١)

Mövzunun izahı: Obyektiv aləmə hakim səbəb-nəticə qanununa əsasən, varlıq dərəcə nöqteyi-nəzərindən tənəzzülə doğru gedir. Bu tənəzzüldə hər bir nəticə öz səbəbindən sonra, hər səbəb də öz nəticəsindən öndə durur. Bununla da, varlıq dərəcələri elə bir dərəcəyə çatır ki, varlığı həddən artıq zəif olan "yox" kimi təsəvvür olunur. Əlbəttə, diqqət yetirmək lazımdır ki, vücudun nöqsanlı olması varlığın bir hissəsi deyil. Əksinə, əsl varlıq qeyri-məhdudluq, kamal və mütləqlik tələb edir. Varlıq öz zatında yoxluğu və puçluğu rədd edir. Eyni zamanda (nəticənin bir hissəsi sayılan) özünün tənəzzül dərəcəsində onunla birdir. Başqa sözlə, (səbəb vasitəsilə yaranan və mənbəyi səbəb olan) hər bir nəticənin tələbi sonrakı dərəcinin daha naqis olmasıdır. Bu nöqsanın özü yoxluğa doğru hərəkət deməkdir. Yenə də həmin dərəcədən naqis dərəcəyə tənəzzül edərək bizim dünyamıza – yəni "maddə" adlandırdığımız vəziyyətə çatır. Bu dünyanın özünəməxsus dərəcəsinə görə xüsusi qayda-qanuları var: hərəkət, tədricilik, qəbul, təsirlənmək naqislik… bu dünyanın zatının bir hissəsi sayılır. Bu qanunlardan savayı, əlavə qanunlar dünyaya məxsus deyil. Onlar başqa bir aləmdə .icra olunur və varlığın digər dərəcəsinə malikdir

Ümumiyyətlə, diqqət yetirmək lazımdır ki, yaşadığımız aləm varlıq mövzusunun ən axırıncı dərəcəsi və tənəzzülün

---

.Bax: "Üruci-ruh", səh. ۴۲-۴۴ . [١] -١

son həddidir. O, eyni zamanda kamil bir aləmdir. Bu aləmdə varlıq təkamülə və yoxluqları doldurmağa doğru hərəkət edərək öz ilk mərhələsinə və varlığına qayıdır. Qurani-Kərimdə buyurulur: “İnna lillahi və inna iləyhi raciun!” (Allah tərəfindən gəlmişik (və Ona tərəf qayıdacağıq!)(۱)

Maddi aləmdə xeyir işlər şər işlərdən olduqca çoxdur. Az olan şər işlərin yaranması .۴ .üçün çoxluq təşkil edən xeyir işləri tərk etmək hikmətdən uzaqdır

Azlıq təşkil edən bu şərlərin bəşər cəmiyyəti üçün çoxlu faydaları da vardır və onları .۵ (sayıb qurtarmaq olmaz.(۲)

Birinci və ikinci sualın cavabı isə yuxarıda, eləcə də, aşağıda qeyd olunan məsələlərə :diqqət yetirdikdə aydın olacaqdır

ŞƏR VƏ YOXLUQ

Eyiblərin, yoxluqların və şərlərin mövcud olması maddi aləmə hakim qanunların, nizam-intizamın nəticəsidir. Bunun səbəbi maddi aləmin varlığın ən aşağı dərəcəsində yerləşməsidir. Əgər təbiətə nəzər salmaq istəsək, bu xüsusiyyətləri onun daxilində görərik. Əgər bu aləmdə yaxşılıqların olmasını, pislik və nöqsanların olmamasını istəsək, buna təbiət aləmi adı vermək olmaz. Həmin aləm eynilə mələklərin yaşadığı .aləmdir ki, bəşəriyyətin yaşadığı nizam-intizamdan uzaqdır

Diqqət yetirmək lazımdır ki, məxluqlar öz dərəcələrində yerləşən ədədlərə bənzəyirlər. Varlıq dərəcələri ədədlərin dərcələrinə bənzəyir. Hər bir ədədin dərəcəsi onun zatının, yerinin dayaq nöqtəsidir. Yəni hər bir ədədin özü bir şeydir və dərəcəsi də ona əlavədir. Məsələn, bizim hər hansı birimiz bir evdə və məkanda sakin olmuşuqsa, bu məkan bizim dayaq

---

.Bəqərə” surəsi, ayə ۱۵۷; bax: “Tövhid”, səh.۲۹۰-۲۹۲“ . [۱] -۱

Bu mövzu ilə əlaqədar bax: “Tövhid”, səh. ۲۹۳ və ۳۰۳-۳۱۶; “Amuzeşi-fəlsəfə”, səh. . [۲] -۲ .۴۲۴-۴۲۵

nöqtəmiz deyil. Yəni mümkündür ki, mən özüm var ikən, filan şəhərdə sakin olmayım. Belə ki, bu məkanlar və dərəcələr bizim üçün bir növ əlavə olunan halətlərdir və bizim əsl varlığımızdan ayrıdır. Lakin ədədlərin dərəcələri özlərinin dayaq nöqtəsidir, beş ədədinin dərəcəsi dörddən sonra və altıdan öndədir. Görəsən, beş ədədinin yeri dəyişsə, beş olaraq qalarmı? Məsələn, beş ədədinin yerini dördlə altı arasında yox, on beşlə on yeddi arasında qərar versək, elə beş olaraq qalarmı? Əgər beş on beşlə on yeddi arasında qərur tutsa, həm yeri dəyişmişdir, həm də artıq özü deyil. Onu beş təsəvvür etmək olmaz. O, on altıdır. On altının on altı olması məhz on beşlə on yeddi arasında yerləşməsi səbəbindəndir. Beş ədədi də eynilə belədir. Belə təsəvvür etmək olmaz ki, ədədlərin özü bir şey, dərəcələri isə başqa bir şeydir və onları biz belə .adlandırmışıq. Əksinə, hər bir dərəcə, sözsüz, o dərəcənin zatının dayaq nöqtəsidir

Bütün varlıq aləmlərinin və onların məxluqlarının dərəcələri onların özlərinin dayaq nöqtəsidir. Əgər metafizik aləmin maddi aləm dərəcəsinə malik olduğunu desək, bu zaman ona metafizik aləm adını vermək olmaz. Təbiət və metafizik aləmdə olan varlıqların olduğu məkan onların varlığı ilə eynidir və əgər öz yerindən ayrılmaq istəsə, (əsla özü olmayacaqdır.(١

Belə xüsusiyyətlərə malik varlıq – şərlər, naqisliklər, eyiblər və yoxluqlarla bir olan maddi aləmin məxluqatı – öz zatının dayaq nöqtəsidir. Hərəkət, tədricilik, dəyişmə və .təsirlənmə... maddi aləmin varlıq dərəcəsinin biridir

Bəli, varlığın nöqsanlı olması maddi aləmə hakim qayda-qanunların, nizam-intizamın nəticəsidir və onun mənbəyi varlıq aləmində ən aşağı dərəcəyə malik olmasıdır. Bu, varlıq dərəcələri silsiləsində səbəb-nəticə qanununun

---

.Tövhid”, səh. ٢٩۴-٢٩۵“ .[١]-١

.bir hissəsidir. Nəticə öz səbəbindən, səbəb də öz nəticəsindən üstün və öndə olmalıdır

Sözsüz ki, maddi aləmə sabit və dəyişməz qayda-qanunlar, nizam-intizam hakimdir. Lakin bu aləmin qayda-qanunlarından biri də təkamül qanunudur; yəni insan öz elmini, məlumatını artırmaqla, iradəsini gücləndirməklə vəziyyətini dəyişə bilər və düzgün .yolu seçərək işlərini sahmana salıb ali dərəcələrə nail olar

Yaradılışın qəribəliklərindən biri də bu maddi aləmdə insanın yaranışıdır. Doğrudur, maddi aləm nöqsanlardan, eyiblərdən uzaq olma qabiliyyətinə malik deyil. Lakin insan (maddəlikdən üstün xüsusiyyətə malik) ruha malik olduğu üçün təkamül prosesini keçərək öz vəziyyətini dəyişə bilər. Əgər onun təkamül və inkişaf qabiliyyəti .olmasaydı, axirət aləmində cəzalanması yersiz və mənasız bir iş sayılardı

İnsanın bu maddi aləmdə yaşamasına baxmayaraq, onun üstün mərtəbələri, mənəvi aləmə doğru inkişaf və seyrini təmin etmək Allahın ədalətilə heç bir ziddiyyət təşkil .etmir

İŞARƏ

Sual: Nə üçün dünyada həm çirkinlik, həm də gözəlliklər mövcuddur? Nə yaxşı olardı ki, !?Allah-taala yalnız gözəllikləri yaradaydı

YARADILIŞDAKI FƏRQLƏR

Allah-taala varlıq aləmini ən gözəl və ən kamil şəkildə yaratmışdır. Bu kamil və gözəl aləm məxluqlar arasında fərqlərin mövcudluğunu zəruri edir. Biz fərqlərə malik dünyada birinə yaxşı, digərinə isə pis deyərək, "nə üçün bu yaxşıdır, o isə pisdir?" – sualını veririk. Halbuki dünyada pis olmasaydı, yaxşını müəyyən etmək də mümkün olmazdı. Bu, eynilə qaranlıq və işıqlı səhnələri olan rəsmə bənzəyir ki, onu gözəl göstərən iki fondan – həm qaranlıq, həm də işıqdan ibarət olmasıdır. Əgər şəkildə hər yer işıq olsaydı, həmin şəkil öz gözəlliyini itirər və istənilən nəticə alınmazdı. Görəsən, dünyada pislik olmasaydı, gözəllik mövcud olardı? Əgər pis insan olmasaydı, yaxşı insan olardı? Bizim bir şeyi gözəlliklə vəsf edib ona heyran olmağımız bütün dünyanın eyni formada olmamasından irəli gəlir. Əgər bütün dünya eyni, bütün insanlar yaxşı, bütün

bəşəriyyət imam Əli ibn Əbu Talibin (ə) və digər yaxşı insanların xüsusiyyətlərinə malik olsaydılar, artıq dünyada imam Əli (ə), digər təqvalı və gözəl insanlar tanınmazdı. Deməli, bizim yaxşı və gözəl adlandırdığımız şeylər öz yaxşılıq və gözəlliklərinə görə, çirkin şeylərin pislik və çikinliklərinə borcludur.(۱)

۱- [۱]. “Tövhid”, səh. ۳۱۲; “Ədli-ilahi”, səh. ۱۶۳-۱۶۵.

(ALLAHA MÜNASİBƏTDƏ XOŞGÜMANLIQ (HÜSNÜ–ZƏNN.۲۷

İŞARƏ

Sual: Müsəlman öz Allahına, hindu öz bütünə, ümumiyyətlə, hər kəs öz dininə, ayininə və Allahına üz tutaraq cavab alır. Bu da, insanın əqidəsini möhkəmləndirir. Bütün bu ?əqidələrdə insanlar müştərəkdir. Belə isə, insanın əqidəsindən üstün bir şey varmı

ALLAHIN HƏQİQƏT OLMASI

Etiqad" və "iman" barədə söhbət üçün əlavə vaxt və başqa zəmin lazımdır. Bunu" demək olar ki, insanın inandığı və etiqad bəslədikləri bir məsələ, istəklərin yerinə .yetməsi və təvəssüllərdən faydalanmaq isə başqa bir həqiqətdir

Bu mətləbə diqqət yetirmək lazımdır: İnsanın etiqadından üstün bir şey mövcud olmadığı halda, onun istəkləri yerinə yetə bilərmi? Görəsən, mövcud olmayan bir şey ?bizim istəklərimizə varlıq libası geyindirə bilərmi

Mövcud olan bu həqiqət nədir, din və məzhəblərin hansı biri tam mənada haqdır?" –" .kimi suallar haqqında söhbət bizim mövzumuzdan kənardır

Bəs, (azacıq belə, torpaq götürməklə) təvəssül və vasitəli istəklər necə yerinə yetirilir ?və (məsələn,) xəstəyə necə şəfa verilir

səh:۱۲۵

Qeyd etmək lazımdır ki, bir sıra rəvayətlərə və “qüdsi hədis” lərə əsasən, Allah-taalanın bəndələrə olan lütf və mərhəmətlərindən biri onların yaxşı güman etmələridir. Hər kəs iki mövzuda – ١. özünün pak və müqəddəs vücudunda; ٢. hər hansı bir iş, yaxud əşya barəsində – yaxşı güman etsə, Allah-taala o gümanı həyata keçirər və insanın ümidini qırmaz. Bəzi rəvayətlərdə bizə həm Allaha, həm də gündəlik məşğul olduğumuz və rast gəldiyimiz digər işlərə münasibətdə xoş gümanlı olmaq göstəriş verilmişdir. Bir rəvayətdə istixarənin insanın əqidəsinə uyğun təsiri göstərilir; yəni əgər insan bir hadisənin çətin olduğunu (və mütləq baş verəcəyini) güman etsə, həmin hadisə və müsibət onun üçün çətin olacaqdır. Əgər hadisəni yüngül hesab etsə, aqibət də yüngül olar. Əgər hadisəyə etinasız yanaşsa, ona heç bir təsir göstərməz.(١) Həzrət Əmirəlmöminin Əli (ə) buyurmuşdur: “Hər kəs sənə qarşı yaxşı gümanda olsa, onun gümanını təsdiq et, sənə qarşı güman etdiyi kimi keçin!”(٢)

Biz başqalarına xoş güman etməklə bu nöqtəyə də diqqət yetirməliyik ki, istəklərimizin qəbulu üçün xoşgümanlıq zəruridir. Rəvayətlərdən belə başa düşülür ki: “Allah-taala (yalnız özünə münasibətdə yox,) hər şeyə münasibətdə yaxşı gümanı təsdiq edir və işini yaxşı gümanlara uyğun yerinə yetirir.”(٣)

Başqalarına yaxşı güman, sanki Allaha qarşı yaxşı gümanın zahiri nümunəsidir. Güman edən şəxs Allaha etiqad bəsləməyən hindu olsa belə! Əslində, varlıq aləmi öz varlığını Allah-taaladan aldığı üçün hansısa bir şəxsə çatan xeyir də Ondandır. Beləliklə, hər bir yaxşı gümanın nəticəsi Allah haqqında yaxşı gümandır. Yəni Allah-taala bu xeyir və

١- [١] . “Süluki irfani dər sireyi Əhli-beyt (ə)” kitabından nəqlən, səh. ٣۴.

٢- [٢] . Yenə orada, səh. ٣۵.

٣- [٣] . Yenə orada.

yaxşılığı şəxsə, yaxud şeyə əmanət olaraq əta etmişdir. Bu zaman Allah-taala da .həmin gümanı həyata keçirəcəkdir

Rəvayətdə də bu mənaya işarə ilə buyurulur: “Hər kəs bir daş barəsində xoş güman etsə, (Allah-taala) onda bir sirr qoyar.” (Ravi təəccüb edərək) “Daşdadamı?!” – (soruşduqda, İmam (ə) buyurdu: “Həcərül-əsvədi” (qara daşı) görmürsənmi?”(١)

Beləliklə, dünya xalqlarının torpağa, daşa, ağaca, şəxsə və başqa bir əşyaya təvəssül etmələrinə səbəb olan etiqadlarında həqiqət var. Lakin bu həqiqət etiqadda yox, Allahın onlara lütf və mərhəmətindədir. Səbəblər və amillər onların yaxşı gümanı .əsasında hazırlanmışdır

---

.Yenə orada . [١] -١

İŞARƏ

Sual: Bağışlanmaq və günahlardan təmizlənmək Allahın istəyi və qüdrəti sayəsində mümkün olur. Əgər O istəsə, bizi bağışlayar, istəməsə, zəlalətə salar. Eləcə də, bir çox insanlar neçə il ibadət və zəhmətlərdən sonra haqq yoldan azırlar. Görəsən, bu baxış ?insanda ümidsizlik yaradırmı

Bu məsələnin başa düşülməsi hidayət və azğınlıq növlərini, onların şəraitini, Allahın .hikmətli iradə və istəyini dəqiq şəkildə tanımaqdan asılıdır

QURANDA HİDAYƏTİN QİSİMLƏRİ

:Qurani-Kərimdə hidayətin dörd qismindən söz açılır

Ümumi “təkvini” hidayət: Bu, Allah-taalanın məxluqlara hakim etdiyi nizam- . ۱ intizamdan ibarətdir. Belə ki, bütün varlıqlar bir-birlərilə həmahəng və əlaqəli şəkildə :və müəyyən hədəfə doğru hərəkət edirlər. Qurani-Kərimdə buyurulur

{...رَبُّنَا الَّذِی أَعْطَی کُلَّ شَیءٍ خَلْقَهُ ثُمَّ هَدَی}

Rəbbimiz hər şeyə öz surətini və şəklini verən, sonra da onu hidayət edən Allahdır.”(۱)“ .Belə bir hidayət müqabilində heç bir azğınlıq yoxdur

---

.Taha” surəsi, ayə ۵۰“ .[۱]-۱

İlkin və xüsusi “təkvini” hidayət: Bu bütün insanların əql və fitrət yolu ilə bir sıra .٢ həqiqətlərə, dəyərlərə və qayda-qanunlara doğru hidayət olunmasıdır. Buna “batini :dəlil” deyilir. Bu qisim hidayətin bir neçə xüsusiyyəti vardır

;a) Yalnız insanlara məxsusdur

;b) İnsanlar arasında ümumi yönə malik olub, heç bir istisna qəbul etmir

;c) Zati və daxilidir

d) Onun müqabilində heç bir azğınlıq yoxdur; Allah-taala heç kəsə onu Allahdan .uzaqlaşdıran fitrət və azğınlığa aparan əql verməmişdir

Ümumi “təşrii” hidayət: Bu, insanlara və cinlərə məxsusdur; çünki qanun müəyyən .٣ etmək üçün ixtiyar, qüdrət və ayırdetmə qabiliyyəti lazımdır və bunu nəzərə almadan heç bir məna kəsb olunmur. Qurani-Kərim nöqteyi-nəzərindən belə bir hidayət öz çərçivəsində ümumi yönə malikdir. Misal üçün, Allah-taala peyğəmbərləri və səmavi kitabları bütün bəşər cəmiyyəti üçün göndərmişdir. Belə bir hidayət müqabilində heç bir azğınlıq yoxdur. Çünki təşrii azğınlıq budur ki, Allah-taala peyğəmbərləri bəzi insanları azğınlığa yönəltmək üçün göndərsin və onlara azğınlığa yönəldən qayda-qanunlar, göstərişlər və hökmlər nazil etsin. Halbuki Allah-taala belə bir iş tutmaz və yalnız haqq söz nazil edər. “O, hər nə deyirsə, hamısı haqdır!” Burada bir neçə mühüm :məsələ mövcuddur

a) Allah-taala “hidayətçi”, “şəriət göndərən”, “qanunverici” və “nizam yaradan” adını daşıdığı üçün bütün insanların hidayətini və doğru yola yönəlməsini istəyir. Bu .səbəbdən də, hamı üçün haqq din göndərilmişdir

b) Bu barədə Allahın iradə və istəyi odur ki, insanlar məcburiyyət üzündən deyil, iradə azadlığı ilə düzgün və haqq yol seçsinlər. Əks-təqdirdə, O, bütün insanları məcburi olaraq düzgün və haqq yola yönəldərdi, peyğəmbərlər və

risalətə ehtiyac duyulmazdı. Buna görə də Qurani-Kərimdə buyurulur: “Biz onlara ”.doğru yolu göstərdik – istər şükür etsinlər, istərsə də nankor olsunlar

c) İnsanlar ümumi “təşrii” hidayət müqabilində (malik olduqları ixtiyar və iradə azadlığına diqqət yetirməklə) iki mövqe tutmuşlar: Bəziləri ona təslim olmuş, bəziləri boyun qaçıraraq tüğyan etmişlər. Elə buradaca hidayətin başqa bir qisminə diqqət :yetirək

Mükafata layiq “təkvini” hidayət: Bu hidayət ilahi peyğəmbərlər, əqli və fitri dəlillər .۴ müqabilində öz ixtiyarı ilə təslim olan şəxslərə, bir sözlə, möminlərə məxsusdur. Allah-taala onların üzünə başqa bir hidayət qapısı açmışdır. Başqa sözlə, onlar öz ixtiyarları ilə öncə qeyd etdiyimiz hidayətin mərtəbə və dərəcələrindən istifadə etdikləri üçün mükafata layiq görülürlər. Buna görə də ona “mükafata layiq təkvini hidayət” adı .verilmişdir

Bu hidayətin öncə qeyd olunan hidayət mərtəbələrindən əsaslı fərqi budur ki, onlar bələdçi və yol göstərmək yönünə, bu mərtəbə isə həmin xüsusiyyətlə yanaşı, .məqsədə nail olmaq cəhətinə malikdir

Bu təkvini hidayətin yuxarıda qeyd olunan iki qismdən (ümumi təkvini hidayət, ilkin və xüsusi təkvini hidayətlə) fərqi bundadır ki, həmin iki qisim hidayət istisnasız olaraq bütün insanlara aiddir. Bu qisim isə yalnız möminlərə məxsusdur. Əgər bir şəxs haqq və batil aşkar olduqdan sonra öz ixtiyarı ilə ilahi peyğəmbərlərin yolunu seçərək o yolda addımlasa, Allah-taala onun doğru yola yönəlməsinin təkmilləşməsi və davamı üçün öz təkvini və xüsusi mərhəmətini ona şamil edir, onun üçün yolu, seyr etmə imkanını daha da işıqlandırır və təkamül maneələrini aradan qaldırır. Bu haqda :buyurur: “Biz ona yolu müyəssər edəcəyik.”(۱) Başqa bir ayədə isə belə buyurur

---

.Ləyl” surəsi, ayə ۷“ .[۱]-۱

Doğru yolu tapanlara gəldikdə isə, (Allah) onların doğruluğunu daha da artırar və“ onlara təqvalarının mükafatını verər.”(۱) Beləliklə, bu hidayət doğru yolu tapanlara .aiddir və onlar öz ixtiyarları ilə hidayət yolunu keçmişlər

Bu hidayət müqabilində cəzaya səbəb olan azğınlıq qərar tutur. Yəni hər kəs bütün hidayət imkanlarından – zahiri peyğəmbərlərlə yanaşı, əql və fitrətdən, təkvini və təşrii hidayətdən – istifadə etdiyi halda, bilə-bilə haqq yoldan sapsa, ilahi kitaba arxa çevirsə, Allahın cəzasına düçar olar, müvəffəqiyət və hidayət işığı ondan alınar. Başqa sözlə, Allah-taala onu özbaşına buraxar və heç bir kömək etməz. Bununla da, o, öz :azğın yoluna davam edərək cəhənnəm əzabına düçar olar. Qurani-Kərimdə buyurulur

{وَمَا كَانَ اللَّهُ لِيُضِلَّ قَوْمًا بَعْدَ إِذْ هَدَاهُمْ حَتَّى يُبَيِّنَ لَهُمْ مَا يَتَّقُونَ...}

Allah bir tayfanı hidayət etdikdən sonra qorxub-çəkinməli olduqları şeyləri özlərinə“ (bildirmədən onları haqq yoldan çıxarmaz!”(۲)

Diqqət yetirmək lazımdır ki, belə bir cəzanın (azğınlığın və Allahın kömək etməməsinin) səbəbi təkcə günah yox, həm də günahın davamı, xüsusilə, Allah və haqq yolla düşmənçilikdir. Əlavə edək ki, azğınlıq daimi cəza deyil, daxilən dəyişib haqq yola yönələn kəsə Allah-taalanın lütf və mərhəməti şamil olar. “(Tövbə etdiyiniz təqdirdə,) ola bilsin ki, Rəbbiniz sizə rəhm etsin. Əgər siz (çirkin əməllərinizə və günaha) qayıtsanız, Biz də sizə yenidən cəza verərik.”(۳) Buna əsasən, Allah-taala heç vaxt insanı səbəbsiz olaraq azğınlığa salmır. Onun işi nöqsanları aradan qaldırmaq, kamillikləri son həddə çatdırmaqdır. Deməli, mükafata layiq təkvini hidayət və cəzaya səbəb azğınlıq insanın iradəsi ilə ziddiyyət təşkil etmir

---

.Məhəmməd” surəsi, ayə ۱۷“ .[۱]-۱

.Tövbə” surəsi, ayə ۱۱۵“ .[۲]-۲

.İsra” surəsi, ayə ۸“ .[۳]-۳

və məcburiyyətə səbəb olmur. Əksinə, insanın ixtiyari olaraq yerinə yetirdiyi əməllərin .nəticsidir

Bir daha qeyd edirik ki, hidayət iki qisimdir: Bəzən bələdçilik və yol göstərmək mənasındadır. Bu ümumi təşrii hidayətdir. Bəzən də məqsədə çatmaq mənası daşıyır. "Mükafata layiq təkvini hidayət" bu qəbildəndir. Bunu da qeyd etmək yerinə düşərdi ki, "mükafata layiq hidayət"ə malik olmağın bir sıra şərtləri var. Bu şərtlər əxlaq və irfan kitablarında bəyan olunmuşdur. Bir sözlə, ilahi müvəffəqiyyətlərin əldə olunub-olunmamasının bəzi amilləri var. Bu amillər bəzən insanın əməli, bəzən də qəlbi və .əqidəsi ilə bağlıdır

Cəzaya səbəb olan azğınlıqla əlaqədar bunu da əlavə edirik ki, azğınlıq "hidayət və doğru yolda olmamaq" mənasındadır. İnsandan hidayət nemətinin alınması onun azğınlığa düşməsi deməkdir. İstər ona səhv yol göstərilsin, istərsə də Allah-taalanın möminlərə məxsus etdiyi hidayət nemətindən məhrum olunsun. Cəzaya səbəb olan azğınlığın mənası da budur ki, Allah-taala insanı hidayət nemətindən məhrum edərək onun qəflət yuxusundan ayılmasına səbəb olan amillər yaratmır. Çünki insan batil yol seçərək bu yolda qərq olduğu üçün həmin işlər onun vücudu ilə qaynayıb-qarışır və bir daha ilahi müvəffəqiyyətə, lütf və mərhəmətə layiq görülmür. Bəli, əgər batil yolda (olmasaydı, ümumi "təkvini" və "təşrii" hidayət ona da şamil olardı.(١

Bir neçə il ibadət etdikdən sonra azğınlığa düşənlərə gəldikdə isə, onların azğınlığa düşmələrinin müxtəlif səbəbləri ola bilər. Ola bilsin ki, onların yaxşı və saleh əməllər yerinə yetirməkdə əqidələri (bir sözlə imanları) zəif olsun, ya öz əməllərini yerinə yetirməkdə xalis niyyətləri olmasın, ya da şeytana, nəfsani istəklərə, dünya malına .aldanmaq kimi əxlaqi pozğunluqlar nəticəsində batil yola düşsün

---

.Bu bəhsin cavabı cənab Həmid Hadəvinin köməyilə hazırlanmışdır . [١] -١

Diqqət yetirmək lazımdır ki, İslamda əxlaqi dəyərlər bir sıra təməllər üzərində qurulmuşdur. İnsan onların hər hansı birində süstlük etsə, tənəzzülə uğramasına, azğınlığa düşməsinə zəmin yaranacaqdır. Misal üçün, İslamın əxlaqi qaydalarında “niyyət” mühüm rol oynayır. Əxlaqi dəyərlərin, insani keyfiyyətlərin və səciyyəvi xüsusiyyətlərin, eləcə də, yaxşılıq və pisliklərin mənbəyi hesab olunur. İslam baxımından əxlaqi dəyərlərə və keyfiyyətlərə malik olmaq üçün yalnız yaxşı əməl yerinə yetirmək kifayət etmir. Həm də insanın həmin əməli yerinə yetirməkdə .məqsədi xeyir və ilahi olmalıdır. Bu zaman onun üçün əxlaqi əməllər səmərəli olar

Qurani-Kərimin “Bəqərə” surəsinin ۲۶۴-۲۶۵-ci ayələrində insanın sədəqə verməkdə :niyyətinin əhəmiyyət daşıdığı haqda buyurulur

{يا أَيهَا الَّذِينَ آمَنُوا لَا تُبْطِلُوا صَدَقَاتِكُمْ بِالْمَنِّ وَالْأَذَى كَالَّذِى ينْفِقُ مَالَهُ رِئَاءَ النَّاسِ وَلَا يؤْمِنُ بِاللَّهِ وَالْيوْمِ الْآخِرِ فَمَثَلُهُ كَمَثَلِ صَفْوَانٍ عَلَيهِ تُرَابٌ فَأَصَابَهُ وَابِلٌ فَتَرَكَهُ صَلْدًا لَا يقْدِرُونَ عَلَى شَىءٍ مِمَّا كَسَبُوا وَاللَّهُ لَا يهْدِى الْقَوْمَ الْكَافِرِينَ * وَمَثَلُ الَّذِينَ ينْفِقُونَ أَمْوَالَهُمُ ابْتِغَاءَ مَرْضَاتِ اللَّهِ وَتَثْبِيتًا مِنْ أَنْفُسِهِمْ كَمَثَلِ جَنَّةٍ بِرَبْوَةٍ أَصَابَهَا وَابِلٌ فَآتَتْ أُكُلَهَا ضِعْفَينِ فَإِنْ لَمْ يصِبْهَا وَابِلٌ فَطَلٌّ وَاللَّهُ بِمَا تَعْمَلُونَ بَصِيرٌ}

Ey iman gətirənlər! Sədəqələrinizi malını riyakarlıqla sərf edən, Allaha və axirət“ gününə inanmayan şəxs kimi, minnət qoymaq və əziyyət verməklə puça çıxarmayın. Belə şəxslərin halı üzərində bir az torpaq olan qayaya bənzər ki, şiddətli bir yağış o torpağı (yuyub) aparar və qayanı çılpaq daş halına salar. Onlar etdikləri işlərdən bir şey (savab) qazanmazlar. Şübhəsiz ki, Allah kafirləri hidayət etməz. Mallarını Allahın razılığını qazanmaq və ruhlarını möhkəmlətmək yolunda sərf edənlər uca təpə üstündə dağa bənzərlər. Oraya düşən bol yağış onun meyvələrini ikiqat artırar. Əgər bol yağış yağmazsa, az bir şeh də ona kifayət edər. Həqiqətən, Allah nə etdiyinizi ”!görəndir

Belə yaxşı və xalis niyyət yalnız iman sayəsində aşkar olur. Əlbəttə, imanın da müxtəlif dərəcələri var; bəzilərinin imanı möhkəm, bəzilərinin imanı isə zəifdir. Buna görə də

qəflət və məlumatsızlıq ucbatından insanın doğru yoldan azaraq tənəzzülə uğraması .mümkündür

Əxlaqın tənəzzülünə səbəb olan mühüm bir amil kimi insanın yolu üzərində qərar tutan nəfsin istəkləri o qədər güclüdür ki, bəzən Allah-taala öz peyğəmbərlərinə xəbərdarlıq :edərək onun təhlükəsini xatırladır və bir ayədə Davud peyğəmbərə (ə) belə əmr edir

{يا دَاوُودُ إِنَّا جَعَلْنَاكَ خَلِيفَةً فِي الْأَرْضِ فَاحْكُمْ بَيْنَ النَّاسِ بِالْحَقِّ وَلَا تَتَّبِعِ الْهَوَى فَيُضِلَّكَ عَنْ سَبِيلِ اللَّهِ...}

Ya Davud!) Biz səni yer üzündə xəlifə etdik. Buna görə də insanlar arasında ədalətlə)“ hökm ver və nəfsin istəklərinə uyma. Yoxsa, onlar səni Allahın yolundan sapdırar.”(۱) İnsanın azğınlığa düşməsində şeytanın rolu və vəsvəsələri çox təsirlidir. Hətta uzun (illər ibadətlə məşğul olan çoxlu abidlər və alimlər də onun tələsinə düşmüşlər.(۲

Ümumiyyətlə, diqqət yetirmək lazımdır ki, Allah-taala öz bəndələrinin xeyirli və yaxşı aqibətə çatmasını istəyir. Əgər doğru və haqq yoldan uzaqlaşıb əyri və batil yola !düşmüşüksə, bunun səbəbi biz özümüzük

---

۱- [۱] . “Sad” surəsi, ayə ۲۶.

۲- [۲] . Bax: “Əxlaq dər Quran”, ۱-ci cild, səh. ۶۵-۱۳۲.

ALLAHIN BİRLİYİNƏ İNANMAĞIN ŞƏRTLƏRİ.۲۹

İŞARƏ

Sual: Görəsən, üsuli-din və tövhidin mərtəbələrinə çatmaqla bağlı insan özü təhqiqat aparmalıdır, yoxsa, tövhid dünyagörüşünü ümumi şəkildə və Quran ayələrindən ?öyrənməlidir

İNSANIN YEGANƏ ALLAHA PƏRƏSTİŞİ

Qurani-Kərim nöqteyi-nəzərindən insanın tək olan Allaha etiqadı aydın olsun deyə, tövhidi müəyyən həddə qəbul etmək lazımdır. Lakin ondan sonra heç bir şərtə ehtiyac .yoxdur; baxmayaraq ki, onlara da nail olmaq çox yaxşı və bəyəniləndir

Yeganə Allaha pərəstiş (müvəhhid olmaq) üçün dərk olunması zəruri hədlər :aşağıdakılardan ibarətdir

;Yalnız Allahın zəruri varlıq (vacibül-vücud) olmasına inanmaq .۱

;Yalnız Onu xaliq bilmək .۲

Dünyanın yaradılışda Allahdan qeyrisinə möhtac olmadığına və onun idarəsində .۳ ;(təkvini rübubiyyətin) Allaha məxsus olmasına inanmaq

Allahdan başqa, kimsənin fərman vermək və qanun qoymaq haqqı olmadığına .۴ ;əminlik

səh:۱۳۷

.Allahdan başqa, heç bir kəsin ibadət və pərəstişə layiq olmadığına etiqad bəsləmək .۵

Əgər insanın vücudunda tövhidin bu beş dərəcəsi (başqa sözlə, vacibül-vücudda tövhid, xəlq etməkdə (xaliqiyyətdə) tövhid, təkvini rübubiyyətdə tövhid, təşrii rübubiyyətdə tövhid və ibadətdə tövhid dərəcələri) yəqin, etiqad və təsdiq həddində aşkar olunsa, o tövhidin əsasını və Allahın birliyini qəbul etmişdir. Lakin tövhidin kömək istəmək, qorxmaq, ümid və məhəbbət bəsləmək kimi digər dərəcələrini Quran ayələrindən və rəvayətlərdən başa düşüb tövhidə olan imanını artıra bilər. Allahın birliyinə inanmağın (müvəhhid olmağın) əsası isə yuxarıda qeyd etdiyimiz beş şərtdən (ibarətdir.(۱

Bax: “Məarifi-Quran”, ۱-ci cild, səh.۴۷-۵۴; “Məarifi-İslami”, Məhəmməd Cavad . [۱] -۱
.Bahunər, səh. ۸-۱۰ və ۲۷-۳۱

?Sual: Allahın varlığını fərziyyə hesab edən şəxslərin cavabında nə deyə bilərsiniz

Əvvəla: “Fərz edin ki, Allah mövcuddur!” – ibarəsi düzgün deyil, bizim və sizin müşahidələrimizlə, sözsüz ki, uyğun gəlmir. Mümkündür, sizin bəzi dostlarınız üçün .belə olsun, lakin bu hamıya aid deyil

İkincisi: Görəsən, bu, ehtimallar aləmində etina edilməyən fərziyyədir? Kimsə onun isbatı və inkarı üçün cəhd edibmi? Dinlərdə geniş allahşünaslıq bəhslərinə müraciət .etdikdə, belə bir işi qəbul etmək qeyri-mümkün olur

Üçüncüsü: Tarix boyu zühur edən, ilahi kəlamı çatdıran, bizim doğru yola yönəlməyimiz, islahımız, eləcə də, mərifətimizin çoxalması üçün bir sıra göstərişlər və təlimlər gətirən bu qədər peyğəmbərlər və elçilər də Allahın varlığını fərziyyə hesab ?ediblərmi? Görəsən, insaflı bir şəxsin vicdanı bunu qəbul edərmi

Dördüncüsü: İndiyə qədər müxtəlif dinlər və məktəblərdə allahşünaslıq yolları barəsində danışılarkən Allahı isbat etmək üçün Onun varlığı fərz olunmayıb. Əksinə, belə deyirlər: “Əgər Allah olmasaydı”, səbəb və nəticə (determinizm) zəncirini necə ,”isbat etmək olardı? “Əgər Allah olmasaydı

səh:۱۳۹

dünyaya hakim nizamı necə izah etmək olardı? "Əgər Allah olmasaydı", bəşərə ruhi və psixoloji aramlığı necə hədiyyə etmək olardı? Həqiqətdə, Onun mövcud olmamasını fərz etməklə varlığını isbat edirlər. Başqa sözlə, Allahın varlığını fərz etməklə yox, dünyaya hakim nizam və səbəb-nəticə zənciri kimi bir sıra məsələlərin varlığını fərz etməklə Onun varlığını isbat edirlər.

Lakin öz dostlarınızın şübhəsinə cavab vermək üçün onların diqqətini öncə deyilən məsələlərə, eləcə də, bu mövzuda çap olunan müxtəlif kitablara yönəldə bilərsiniz. Əgər Allahın nişanə və əlaməti sayılan bütün varlıqlara diqqət yetirsək, Onun varlığını inkar edə bilmədiyimiz kimi, fərz də etməyəcəyik.

səh:۱۴۰

ALLAHI TANIMAQ YOLLARI.٣١

?Sual: Allahı tanımaq yolları hansılardır

Allahı tanımaq üçün bəşər cəmiyyətinin qarşısında olan yollar qısa şəkildə üç qisimdən :ibarətdir

Qəlb və fitrət yolu: Yəni hər hansı bir insan öz xilqətinin, ruhunun tələbi ilə ilkin və .١ müqəddimə elmlər kəsb etmədən Allahı tanıyır. Əlbəttə, qeyd etmək lazımdır ki, fitrətdə məqsəd, əqli fitrət yox, qəlbi fitrətdir. İnsanlar fitri olan eşq qüvvəsinə iman və əqidə bəslədikdərindən, bu qüvvənin güclənməsi üçün çalışırlar. Əgər insanın belə bir :hissiyyata malik olduğunu öyrənmək istəsək, iki yolla üzləşəcəyik

;a) Şəxsən, özümüzü və başqalarını əməli olaraq yoxlayıb imtahan edək

b) Uzun illər boyu mənəvi məsələlərlə əlaqədar insanların psixologiyası ilə bağlı .məlumatları mütaliə və onları tədqiq edən alimlərin bu barədə nəzəriyyələrini öyrənək

Təbiət, yaxud elm və hissiyyat (empirik idrak) yolu: Bu da öz növbəsində üç hissəyə .٢ :bölünür

;a) Dünyaya hakim qayda-qanunlar və nizam-intizamla

;b) Məxluqları öz yoluna vadar edən xüsusi hidayətlə

.c) Aləmin yaranması ilə

Əqli (rasional idrak), yaxud məntiqi və fəlsəfi yol: Bu .٣

səh:١۴١

yolun çətin olmasına baxmayaraq, onu keçmək, başa düşmək və başa salmaq üçün çoxlu müqəddimələrə ehtiyac duyulsa da, o, Allahı tanımaq və Ona mərifət üçün ən .gözəl və ən möhkəm vasitədir

Qeyd etmək lazımdır ki, bu yolların hər biri müəyyən baxımdan digərindən üstündür: Qəlb və fitrət yolu fərdi baxımdan ən mükəmməl yoldur; yəni hər bir insan üçün ən gözəl, ən həssas və ən təsirli yol qəlb vasitəsilə Allaha mərifət bəsləməkdir. Lakin onun elmi bir məsələ olaraq hamıya öyrədilməsi qeyri-mümkündür. Hissi və elmi mütaliələr vasitəsilə yaradılışı tanımaq ümumi xarakter daşıyır. Bu yol sadəlik və aydınlıq baxımından ən yaxşı yoldur. Bu yol bizi təbiəti idarə edən tədbir, elm və hikmət sahibinin qüdrətli bir varlıq olmasına etiqadlı edir. Lakin bəşər cəmiyyətinin hissi elmləri bu qüdrətli varlığın Allah olub-olmadığını isbat etməkdə acizdir. Əql yolu isə (insanı müsbət və məntiqi bir elm vasitəsilə Allaha çatdırır.(١)

:Amma Allahı yaxşı tanımaq üçün aşağıdakı incə mətləblərə diqqət yetirmək zəruridir

:İnsanın Allah-taalaya münasibətdə elmini ümumi şəkildə iki hissəyə bölmək olar

Hüsuli elm": Onda məqsəd Allahı əql, təfəkkür, düşüncə, dəlil və sübut vasitəsilə" .١ .tanımaqdır

:Hüzuri elm": Bunun özü də iki hissəyə bölünür" .٢

a) Fitri dərketmə, yaxud fitri olaraq Allahı tanımaq (kəsb olunmayan hüzuri elm) insanın daxilində olub ixtiyar çevrəsindən kənardadır. İnsanların əksəriyyətinin əxlaq çərçivəsində məhdudlaşmayan bu fitri elmə və tanışlığa malik olması yalnız bir istedad və səbəbdir. İnsan öz səyi nəticəsində onu istedaddan həqiqət, qeyri-müəyyənlikdən .hüzuri dərk mərhələsinə çatdıra bilər

---

Üsuli fəlsəfə və rəvişi realizm", müqəddimə: Şəhid Mürtəza Mütəhhəri, ۵-ci cild," . [١] -١ .səh. ۵١-٧٠

b) İnsan kəsb olunan hüzuri elmə öz səyi ilə, təkamül mərhələlərini keçdikdən sonra Allahın lütf və mərhəməti sayəsində yiyələnə bilər. Bu mərifət müxtəlif – güclü və zəif – dərəcələrə malikdir. Onun axırıncı dərəcəsi yaradılışın son hədəfi və insanın ən yüksək kamalıdır. Bu hüzuri mərifətə yiyələnmək birinci qisimdə qeyd olunduğu kimi, müstəqil şəkildə insanın ixtiyarından xaric olsa da, ona yiyələnməyin müqəddimələri ixtiyari işlərdən sayılır. Həqiqətdə, ilahi mərifət kamalının bəxş edilməsi insana onun ixtiyari işlərinin bir hissəsinin mükafatıdır. Bu mükafat axirətdə tam və kamil şəkildə əta olunacaq. Baxmayaraq ki, hüzuri mərifətin digər dərəcələri bu dünyada Allahın .bəzi övliyaları üçün nəzərdə tutulmuşdur

Yuxarıda qeyd olunanlara əsasən, insan öz nəfsini, öz həqiqətini tanıyıb ruhuna diqqət yetirməklə, nəfsin saflaşdırılması və kamal yollarını öyrənməklə, həmçinin Allahı kəsb olunan "hüzuri" elmlə daha da yaxşı tanıya bilər. Həqiqətdə, Allahı tanımaq üçün bir körpü sayılan "özünü tanımaq" şəri və əməli "seyr-süluk"dan və müxtəlif yollardan ibarətdir. Buna əsasən, insanı Allaha və mərifət məqamına çatdıran onun öz mahiyyətini bilməsi və özünü dərk edib, əsl məqamına doğru hərəkət etməsidir. Bu da, (yalnız təqva kəsb etməklə müyəssər olacaqdır.(١

Bu məsələ ilə əlaqədar "Süruş" nəşriyyatının üç cilddə çap etdiyi Ustad . [١] -١ Məhəmməd Şücainin "Məqalat" adlı kitabını diqqətlə və təkrar-təkrar oxumağınızı .tövsiyə edirik

SİDDİQİN SÜBUTU.۳۲

?Sual: Allahı tanımaqda “Siddiqin” sübutunun mənası nədir

Siddiq” sözü “sadiq” (düz danışan) sözünün mübaliğə (hiperbolik) formasıdır. Bu söz“ Allah və Onun məxluqları ilə olan əhd-peymanda doğruluq mənasını bildirir.(۱) Bu sübutu ilk dəfə Əbu Əli Sina “İşarat” kitabının ۴-cü bölümündə “Siddiqin sübutu” adı ilə araşdırmışdır. İbn Sinanın bu məsələ ilə əlaqədar mülahizələrindən məlum olur ki, (onun zehnində bu sübutun ilk qığılcımı Qurani-Kərim ayələrindəndir.(۲

İbn Sinanın nəzəriyyə və mülahizələrinin ən böyük şərhçisi görkəmli alim Şeyx Tusi həmin sübutun “Siddiqin” adlandırılmasının səbəbi barədə yazır: “İlahiyyatçı qrupun üslubu iki yolla – təbiətşünaslar və teoloqlarla – müqayisədə ən düzgünü olduğundan, (bu qrup “Siddiqin” (doğruçu və düz danışanlar) adlanmışlar.”(۳

Səbəb budur ki, bu sübutda ən az müqəddimə və mənbələrlə Allahın varlığı isbat olunur. İbn Sinadan sonra böyük İslam filosofları ona diqqət yetirmiş, hər biri xüsusi bəyan və mülahizələrlə onu şərh etmişlər. Böyük filosof

---

.Təliqə bər şərhi-hikmət”, səh. ۴۸۸-۴۹۷“ . [۱] -۱

.Əl-işaratu vət-tənbihat”, İbn Sina, ۳-cü cild, səh. ۶۶“ . [۲] -۲

.Şərhül-işarat”, Nəsrəddin Tusi, səh. ۲۱۴“ . [۳] -۳

mərhum Mehdi Aştiyani “Siddiqin” dəlili ilə bağlı on doqquz növ mülahizə bəyan .etmişdir

Ümumiyyətlə, bu sübut varlıq həqiqətinə diqqət yetirməklə, məhz, Allahı isbat edir. Buna görə də Allahın varlığını zamanın yaranması yolu ilə isbat edən teoloqların, hərəkət vasitəsilə isbat edən təbiətşünasların, zati imkan vasitəsilə isbat edən ilahi .filosofların, kəşf və müşahidə ilə Allaha çatan ariflərin sübutları arasında fərq vardır

Burada “Siddiqin” dəlilinin bütün izahlarına və ya ən mühüm incəliklərinə işarə etmək əlavə vaxt apardığı üçün Əllamə Təbatəbainin “Üsuli-fəlsəfə və rəvişi-realizm” (“Fəlsəfənin əsasları və realizm üslubu”) adlı kitabında qeyd olunan görüşlər, mülahizələr və izahlar digər müəlliflərin izahlarından sadə və əhatəli olduğundan :həmin mülahizələri qeyd edirik

Sübut olunmasına şəkk-şübhə etmədiyimiz varlığın reallığı heç vaxt inkar oluna“ bilməz. Başqa sözlə, varlıq reallığı qeyd-şərtsiz olaraq həqiqətdir, heç bir halda qeyri-real olmur. Ötüb-keçməkdə olan dünya və onun hər bir dönəmi inkar edilmədiyindən, inkarı qəbul etməyən gerçəkliyin eyni deyil. Əksinə, o gerçəkliklə yanaşı (digər bir) gerçəklik də var. O gerçəklik olmadıqda, varlıqdan əsla bəhrələnmir, öz varlığı yox olur. Əlbəttə, bu gerçəkliyin əşyalarla eyniləşib bir olması, ya onlara nüfuzu, ya onlarda hülul etməsi, ya da gerçəklikdən bir qisminin ondan ayrılaraq əşyalara qovuşması mənasında deyil. (O, eynilə işıq kimidir. Qaranlıq cisimlər onunla işıqlanır, onun vücudu olmadıqda, zülmətdə qalır. Eyni zamanda, bu misal məqsədimizi bəyan etməkdə yetərsizdir). Başqa sözlə, Onun özü gerçəkliyin eynidir. Kainat və onun ayrı-ayrı .hissələri də Onun vasitəsilə gerçəkləşir və Onsuz heçliyə və puçluğa düçar olur

Nəticədə dünya və onun hissələri özü vücud (varlıq) müstəqilliyində və gerçəkliyə malik olmasında elə bir gerçəkliyə arxalanır ki, Onun özü gerçəkliyin eyni və özüdür. (O da elə müqəddəs zatı heç vaxt zavala uğramayan Allahdandır.)

Sual: Allahı tanımaq insanın nəfsini (özünü) tanıyıb dərk etməsilə bağlı olduğundan, bilmək istəyirəm ki, “insanın özünü tanıyıb dərk etməsi” nə deməkdir və onu necə əldə ?etmək olar

Sizin bu sualınıza imam Əlinin (ə) buyurduğu kəlamla cavab verə bilərik. Belə ki, o həzrət buyurmuşdur: “Mən ərəfə nəfsəhu, fəqəd ərəfə Rəbbəhu.” (Hər kəs özünü tanısa, şübhəsiz ki, Rəbbini də tanıyar.)(۱) Bu və buna bənzər rəvayətlərin izah və təfsirə ehtiyacı çoxdur və onun haqqında geniş şəkildə söhbət etmək alimlərin öhdəsinə qoyulmuşdur. Bu məsələ ilə əlaqədar ustad Məhəmməd Şücainin “Məqalat” kitabının ۳-cü cildindəki cəzbedici, eyni zamanda dərinmənalı bəyanlarınının bir :hissəsini müxtəsər şəkildə diqqətinizə çatdırırıq

:İnsanın özü haqqında düşünməsi: Qurani-Kərimdə buyurulur

{سَنُرِيهِمْ آياتِنَا فِى الْآفَاقِ وَفِى أَنْفُسِهِمْ حَتَّى يَتَبَينَ لَهُمْ أَنَّهُ الْحَقُّ...}

Quranın haqq olduğu müşriklərə bəlli olsun deyə, Biz öz qüdrət nişanələrimizi onlara“ (həm xarici aləmdə, həm də onların öz daxilində mütləq göstərəcəyik...”(۲)

səh:۱۴۹

Şərhi qurərul-hikəm və durərul-kəlim”, Əbdül-Vahid ibn Məhəmməd Təmimi,“ . [۱] -۱ .səh. ۲۳۲

.Fussilət” surəsi, ayə ۵۳“ . [۲] -۲

Qurani-Kərimin əmr və təkid etdiyi məsələlərdən biri də insanın özü haqqında təfəkkür etməsidir. İnsanın özü barəsində düşünməsinin müxtəlif yolları, şərtləri var. .Əgər onların hamısı düzgün yerinə yetirilsə, faydalı olar

:Ümumilikdə, insanın özü haqqında düşünməsini iki qismə bölmək olar

İnsanın "özü haqqında düşünməsi" özündə olan xüsusiyyətlər barəsində . ١ fikirləşməsidir. Belə ki, öz vücudunda olan təsirlərin gücünü anlayaraq, onun vasitəsilə .tövhid və varlığın dərin sirlərini dərk etsin

İnsanın "özü haqqında düşünməsi" hər şeyi unudaraq öz həqiqətinə qayıtması, . ٢ "özü"nə səfər etməsidir. Bu zaman insanın həqiqətində bir nur yaranar, mərifət və müşahidə qapıları üzünə açılar. Belə bir düşüncə insana çoxlu fayda verər və ariflik .məqamına çatmaq üçün ən əhəmiyyətli məsələlərdən biridir

İnsanın öz vücudunda olan xüsusiyyətlər haqqında düşünməsi: İnsanın "özü haqqında düşünməsi" ilə bağlı birinci qismdə qeyd etdik ki, bu qisim insanın öz vücudundakı sifət və xüsusiyyətlər barəsində fikirləşməsidir. Bu düşüncə insana mahiyyətinin sirlərini anlatmaqla yanaşı, onun mütəal Allah, Onun sifət və felləri barəsində mərifət və bəsirətini artırır, başqa sözlə, tövhid və onun dərəcələri, varlıq və onun həqiqətləri .barəsində agahlıq tapır

İmam Əmirəlmöminin Əlidən (ə) belə nəql olunur: "Özünü tanıyan kəs, şübhəsiz, hər (bir mərifət və elmin sonuna çatar."(١

Məlum olduğu üzrə, insan özü haqqında nə qədər çox fikirləşib şəxsiyyətini mükəmməl dərəcədə tanısa, həqiqətləri də bir o qədər kamil tanıyar. Demək, həqiqətləri tanımaq üçün insan mütləq özü haqqında düşünməlidir. Özünü

.Qürər və dürər", Amudi" . [١] -١

tanıyan insan varlığın hiqiqətlərini yaxşı tanıyır. İmam Əli (ə) bu haqda belə buyurmuşdur: “Özünü tanıyan özündən başqasını da yaxşı tanıyar, özünü tanımayan isə özündən başqasına münasibətdə də nadan olar.”(١)

Bizim həqiqətimiz kimdir və nədir? İlk baxışdan bu suala aydın və tutarlı cavab vermək asan deyil. “Biz yalnız zahiri bədəndən ibarət deyilik və onunla tamamlanmırıq!” – müddəasının dəlil-sübuta və geniş izaha ehtiyacı var. Tədqiqatçılar bu mövzuda aydın və möhkəm dəlillər qeyd etmişlər. Mən də bununla bağlı “Məad, ya bazgəşt be suye Xuda” (Məad, yaxud Allaha doğru qayıdış) adlı bir kitab tərtib etmişəm. Orada araşdırmalar aparmış, dəlillər göstərmişəm. Hər kəs bu barədə məlumat əldə etmək istəsə, həmin kitabın ١-ci cildinə müraciət etsin.

Əlbəttə, bu müraciətlərə elə də ehtiyac duyulmur. Çünki qərəz və təqliddən uzaqlaşıb, yaxşı fikirləşsək, açıq-aşkar görəcəyik ki, biz yalnız cisim və xarici bədəndən ibarət deyilik. Əksinə bizim həqiqətimiz bədənlə sıx əlaqəli başqa bir şeydir.

Hər halda, “bizim həqiqətimiz kimdir və nədir?” – sualının cavabında başqalarının dərk etdiklərinə diqqət yetirməli və müəyyənləşdirməliyik ki, bu barədə özümüz nə dərk edirik.

Birinci mərhələdə açıq-aşkar görəcəyik ki, bizim həqiqətimiz “mən” sözü ilə işarə etdiyimizdən ibarətdir. Biz hamılıqla “mən” deyə öz həqiqətimizə işarə edirik. Bu, hamıya bəllidir və onda heç bir qaranlıq, şübhəli nöqtə yoxdur. Əsas məsələ odur ki, bu sözdə məqsəd nədir? “Mən” sözü nəyə işarədir?

Bəzilərinin nəzərincə, bu söz “ruh”a işarədir, yəni bizim həqiqətimiz ruhdan ibarətdir. Bəzilərinin də nəzəriyyəsinə görə, bu söz “ruh” və “cisim”dən üstün həqiqətə işarədir.

١- [١]. “Qürər və dürər”, Amüdi.

Elə bir həqiqət ki, “ruh” və “cisim” müxtəlif mərtəbələrdə onun təzahürü olur. Belə ki, cisim onun ən aşağı, ruh isə ən mükəmməl və əhatəli təzahürüdür. Onun əsas təzahürü ruhdur. Cisim onun varlıq ölçüsü olsa da, çox aşağı səviyyədədir, ruh üçün yalnız xarici bir alətdir. Başqa sözlə, onun tam cilvəsi həmin ruhdur. Bu yüksək həqiqəti onun tam cilvəsində, camalını elə həmin aynada görmək lazımdır. Deməli, ruh, yəni .onun əsas və ilkin təcəllisi yüksək həqiqətdir

Bu nəzəriyyəyə əsasən, insanın mahiyyəti cisim yox, ruhdan ibarətdir. Baxmayaraq ki, .ruh o əsl həqiqətin yüksək səviyyədə zühuru və ona çox yaxındır

Bu nəzəriyyənin tərəfdarları deyirlər: “Mənim ruhum”, “mənim cismim” deyərək, ruhu və cismi “mən”ə aid etməyin özü də aydın və mükəmməl bir dəlildir ki, “mən” ilə işarə .edilən həqiqət nə ruh, nə də cisimdir. O, bu iki şeydən üstün bir həqiqətdir

Bu nəzəriyyədə göstərilənlər öz növbəsində mürəkkəb məsələlərdir. Bu haqda söhbət açmaq əzmində deyilik. Biz burada “mən” sözü ilə işarə etdiyimiz həqiqəti “əql” vasitəsilə araşdırırıq; istər məqsəd “ruhumuz”, istərsə də “ ruhumuz”dan üstün bir şey olsun. Belə ki, onun kamil cilvəsi, ilkin və əhatəli zühuru elə “bizim ruhumuz”dur. Çünki “özümüz” haqqında fikirləşmək istəyirik və bizim özümüz də hər hansı birimizin “mən” sözü ilə işarə etdiyi həqiqətdən ibarətdir. Bu sözdə məqsəd həmin iki mənanın hər hansı biri olsa da, heç bir fərqi yoxdur. Ona görə ki, bu iki mənanın fərqi “mütəcəlla” (cilvə olunan yer) ilə “cilvə”, yaxud “zahir” ilə “məzhər” (zühur olunan yer) arasında olan .fərqdən ibarətdir

İndi isə özümüz haqqında fikirləşək. Öncə bu incəliyi qeyd etmək lazımdır ki, bu “fikir” həqiqətdə “seyr” etməkdir. O, ən çox “vicdan”la, yəni “tapmaq”la həyata keçir. Həqiqətlərə nail

olmaq üçün ən yaxşı yol budur! Başqa sözlə, burada "hüsuli elm"lə yox, müşahidə elmi .ilə irəli gedirik

Müxtəlif təzahürlərdə vahid həqiqət: Öz barəmizdə fikirləşdikdə, açıq-aşkar "mən" sözü ilə işarə etdiyimiz "özümüz"ü çox deyil, bir həqiqət kimi görürük. Bununla belə, bu .bir həqiqəti, yəni özümüzü müxtəlif təsirlərlə və müxtəlif təzahürlərdə görürük

Təzahürlərin hər hansı birinə müraciət etsək, özümüzü aydın şəkildə görəcəyik və ya onu özümüz, özümüzü isə onunla eyni hesab edəcəyik. Özü də onu özümüzün bir hissəsi yox, əksinə onu özümüzün hamısı və özümüzü də onun hamısı biləcəyik. "Öz" həqiqətimizi və "mən" dediyimiz həqiqəti bütünlükdə təzahürlərin hər hansı birində xüsusi varlıq təsiri ilə tapacaq, mücərrəd həqiqətdən ibarət olan "özümüzü" mücərrəd .təzahürlərin hər birində müşahidə edəcəyik

Bu zaman "özünə" diqqət etdikdə, yalnız bir olduğunu görəcəksən. Sonra özünün xarici və daxili qüvvələrinin hər birinə nəzər salıb onlara bir-bir bax. Öz "eşitmə" duyğuna bax və gör, eşidən kimdir? Bu libas halına düşən nədir? Onun işi nədir? Bax gör ki, "eşidən" və "eşidən" adını daşıyan həqiqət kimdir? Görəcəksən ki, bu libası geyən və "eşidən" adı ifadə edən elə sən özünsən. "Mən" sözü ilə ifadə etdiyin özünü "eşidən", "eşitmək" işini yerinə yetirən cilvədə təcəlli edən, eşidəni "özün" və özünü "eşidən" !biləcəksən. Həm də onun bir hissəsini yox, hamısını

Görmə" duyğusuna nəzər salaraq görənin kim olduğuna diqqət yetir! Bax gör, zahiri" görünüş halına düşən kimdir? Bu görünüşdə onun funksiyası nədir? "Görmə" ?duyğusuna malik olan və "görən" adını daşıyan hansı həqiqətdir

Yenə də özünü görəcəksən. O, bu təzahürdə zühur etmişdir və "görmə" işini yerinə yetirir. Bununla da, siz

mən" adı daşıyan özünüzü bütün daxili və xarici – "eşitmə", "görmə", "dadbilmə"," "iybilmə", "toxunma" duyğularında, "şüur", "xəyal" və s. qüvvələrində tapacaq, eləcə .də, hər bir duyğunun və qüvvənin özünəməxsus varlıq təsirini biləcəksən

Başqa sözlə, məsələn, başqa bir şəxsin söhbətinə qulaq asdığınız zaman "eşitmə" duyğunuza diqqət yetirin. Bu zaman açıq-aşkar "mən" həqiqətini daşıyan özünüzü .başqa şeylərlə, hətta, təkcə qulaqlarla deyil, tam vücudunuzla eşitdiyinizi görəcəksiniz

Sanki qulaq "eşitmə" duyğusu üçün yalnız bir vasitədir. "Eşidən" və "dinləyən" şəxs "mən"dən başqa, bir şey deyildir. Eləcə də, həm daxili, həm də digər idrak qüvvələrinə müraciət etsəniz, onun da eyni şəkildə olduğunu görəcəksiniz. Məsələn, "görmə" duyğusunda "mən" həqiqətini gördüyünə, "dadbilmə" duyğusunda "mən" həqiqətinin .daddığına şahid olacaqsınız

Bu zaman biləcəksiniz ki, bir qüvvə nə qədər işlər yerinə yetirir. Bir həqiqət cilvələrə çevrilir və hər cilvədə digər varlıq təsiri mövcuddur. Nə qədər çox düşünsəniz, bir o qədər heyran qalıb həmin yolla "tövhid" barəsində bir çox həqiqətlərə çatacaq, Allahı hər nöqsandan pak biləcək, Onun oxşarı, tayı-bərabəri və bənzəri olduğunu inkar .edcəksiniz

Beləliklə, Allahın hər bir məhdudiyyətdən, nöqsan və eyibdən pak olduğunu, Onun zatı, sifətləri və fellərinin heç bir oxşarı olmadığını qəbul edərək aşağıdakı həqiqətləri :müəyyən həddə başa düşmək olar

a) Allahın görünməz zatı təcəlla məqamında adlar və sifətlərdə zühur edir. Bu zaman .hər bir adın öz hökmü, hər bir sifətin öz təsiri mövcud olacaq

b) Allahın və zatının mütləq vəhdəti adların təzahürlərində qorunur. Adların çoxluğu .Onun zatının çoxluğuna səbəb olmur

v) Bütün adların və sifətlərin həqiqəti, xarici nümunəsi birdir və o da Allahın görünməz .zatıdır

.q) Allahın təcəlla və təzahürlərinin hər birinin öz məqamı vardır

.d) Ariflər üçün seyr məqamında bir çox həqiqətlər ardıcıl şəkildə qarşıya çıxır

Cilvələrin faniliyi: Özümüz haqqında düşünməkdə davam etsək, özümüzdə və onun cilvələrində nəyə nail olacağıq? Bütün idrak qüvvələrimizdə nə görəcəyik? Daxili və xarici idrak qüvvələrinin hər hansı birinə müraciət etdiyimiz zamanlar özümüzü onda, onu da özümüzdə müşahidə edirik. Özümüzü “eşitmə” duyğusunda eşitmək, “görmə” duyğusunda görmək, “dadbilmə” duyğusunda dadbilmək, “əql” qüvvəsində ağıl, “xəyal” qüvvəsində təxəyyül sifətlərilə birgə görcəyik. Özü də dəlil və əqli hərəkət .vasitəsilə yox, canlı şəkildə

Bütün bu idrak qüvvələrində, yəni bütün bu cilvələrdə, bu cilvələrin özünü və varlıq təsirlərini deyil, yalnız özümüzü görürük. Hər bir cilvənin zatını təzahür zatında fani müşahidə edir və onun sifətini, yaxud felini təzahürün sifət, yaxud felində əsla görmürük. Sanki meydanda təzahürdən başqa, bir şey mövcud deyil və qalanları “sizin və atalarınızın (özlərindən uydurub) qoyduqları adlardan başqa heç bir şey deyildir!”(۱) Doğurdan da, görəsən, bu qüvvələrin hamısı fanidir, yoxsa, hamı bir növ, özünün ?xususi mənasında mövcuddur

Əgər bu mənanı yaxşı başa düşsən, müəyyən həddə zat, sifət və fellərdə tövhidi, başqa sözlə, Allahın zatında, sifətlərində və fellərində əşyanın, onların sifət və fellərinin faniliyini dərk edib, bu həqiqətlərə çatacaqsan. Əlbəttə, bu həqiqətlər oxşarlıq vasitəsilə dərk edilmir; çünki Allah-taala istər zat, istər sifətlər, istərsə də fellərdə məxluqata

---

.Nəcm” surəsi, ayə ۲۳“ . [۱] -۱

oxşarlıqdan pak və münəzzəhdir. Əksinə, məxluqlarda bu nümunələri görməklə müəyyən qədər tövhid həqiqətini və əşyanın faniliyini düzgün başa düşmək olar. (“Allahdan başqa, hər bir şey həlak olacaqdır.”(۱)

Əgər Allah-taalanı zat, sifət və fellərdə hansısa bir şeyə bənzətsək, nəinki, azğınlığa düşəcəyik, həm də səhvə yol verərək Ona qarşı mərifətimiz olmayacaq. İmam Rzanın (ə) həzrət Peyğəmbərdən (s) nəql etdiyi bir hədisdə buyrulur: “Allahı Onun məxluqatına (oxşadan Onu tanımamışdır.”(۲)

Bu məsələ ilə əlaqədar özümüzlə Allah arasında olan fərq yaradanla yaradılan !arasındakı fərqə bənzəyir. Bax gör, bunların arasında fərq nə qədərdir

Əgər bu incəliyi yaxşıca qavrayıb Allah-taalanın hansısa bir şeyə bənzəməkdən uzaq olmasını başa düşmək istəyirsənsə, bu həqiqətə diqqət yetir ki, biz özümüz, yəni “mən” sözü ilə ifadə olunan və qüvvələrdə təzahür edən həqiqət də öz növbəsində üstün qüvvədir. Həqiqətin özündən daha üstün həqiqəti var. Bu minvalla, o həqiqət Allaha çatır: “Əvvəl, axır, zahir, batin, əbədi, əzəli və diri, məhz, Odur. Göylərdə və yerdə ”!olanlar Ona məxsusdur. Bütün işlər Ona qayıdır

Varlıq bəxş edən yalnız birdir və o Allahdır. Məxluqlar Ona mənsubdur. Hər bir şey fani, O isə əbədidir. Belə olan təqdirdə, hansısa bir şeyi – istər zat, istər sifət, istərsə də fellərdə – Ona bənzətmək olarmı? Aydındır ki, cavab mənfidir. “Onun misli, tayı-”!bərabəri və bənzəri yaxdur

Bütün bu çətinliklər və ifadələr Allaha münasibətdə mərifətə nail olmaq üçündür və məqsəd Onu hansısa bir şeyə oxşatmaq deyil; çünki Onun heç bir oxşarı və bənzəri !yoxdur

Ümumiyyətlə, bu mərifətlə müəyyən qədər Allahın zatı, sifətləri və fellərində olan tövhidin mənasını dərk

---

.Qəsəs” surəsi, ayə ۸۸“ .[۱]-۱

.Tövhid”, “tövhid və nəfyut-təşbih” bölümü, səh. ۴۷“ . [۲] -۲

etmək olar. Başqa sözlə, insan özündəki xüsusiyyət və qüvvələri yaxşı dərk etsə, müəyyən qədər Allah-taalanın zatında əşyanın faniliyini də başa düşər. Tövhidə .mərifətlə bir çox nişanələrin həqiqət və incəlikləri aydın olar

Müxtəlif məqamlar: "Özümüz" haqqında başqa cür fikirləşsək, "mən" sözünü ifadə edən özümüzü belə görəcəyik: "Eşitmə" duyğusuna malik olub eşidir, "görmə" duyğusuna malik olub görür. Elə həmin halda, "əql" qüvvəsilə düşündüyünü, "təxəyyül" qüvvəsilə xəyallara daldığını və başqa qüvvələrlə digər işlər gördüyünü hiss edir. Biz eyni bir zamanda fərqli məqamlara malik olduğumuzu və müxtəlif işləri yerinə yetirdiyimizi görəcəyik. Müəyyən bir iş və ya məqam onu başqa işlər yerinə yetirməkdən, başqa bir məqama çatmaqdan saxlamayacıqdır. "Özün" haqqında düşünüb "özünü" belə gördükdə, aləmlərin Rəbbi barəsində "La yəşğəluhu şənun ən .şən" – məsələsini başa düşərək onu nisbətən düzgün şəkildə təsəvvür edə bilərsən

Bu, Allahın hər hansı bir məxluqunun xüsusiyyətidir ki, aciz, fəqir, məhdud və zəif olduğu zaman başqa bir məqama nail ola bilməsin. Yəni Allah-taalanın istəyi və bəxşişi .ilə belə bir kamala və xüsusiyyətə malik olsun

Bu zaman diqqət yetirsin ki, öz xaliqi və yaradanı olan Allah kimdir və Xaliqin varlıq kamalı nədir? Sonsuz kamal və camala malik Allah barəsindəki "La yəşğuluhu şənun ?ən şənin!" – məsələsi hansı şəkildədir

Özümüz"də gördüyümüz bu məna Allahın hədiyyəsidir və bizim eyiblər və naqisliklərlə" dolu olan məhdud varlığımıza uyğundur. Bu mənada azacıq və Allahın əta etdiyi miqdarda bəhrələnmişik. Allah-taalanın bu mənaya malik olması Onun özündəndir və özünün sonsuz, hər bir hədd-hüduddan, nöqsanlardan və eyiblərdən pak varlığına .münasibdir

Eyni zamanda, müxtəlif məqamlara malik olmaq, bir məqamın başqa bir məqama maneə yaratmaması varlıq

kamallarındandır. Onun mütləq və sonsuz olması, əsli və zatı Allaha məxsusdur. Allah-taala ondan çox məhdud və az miqdarda bizə də əta etmişdir. Bu, bizim vücudumuzda .gözə görünür

Əhatə etmək və hakim kəsilmək: “Özümüz”ün “bədənə” hakim kəsilməyimiz haqda fikirləşsək, bədənlə müqayisədə öz mənliyimizin və həqiqətimizin əhatəli olduğunu görəcəyik. Bu da bizim təəccüb və heyrətimizin artmasına səbəb olacaq. Bu əhatənin nə keyfiyyətini görəcəyik, nə də onun sirlərlə dolu qatlarını başa düşəcəyik. Burada əhatə və hakimliyi görməyimiz kifayətdir. Amma bu, çox dərin və çox dəqiq bir hesab .tələb edir

Bizim özümüzün, yəni “mən” sözü ilə işarə etdiyimiz həqiqətin öz bədənimizə mistik hakim kəsildiyini görəcəyik. İstədiyi zaman (bu iradənin həqiqətini də dərk etmirik) hər .hansı üzvü hərəkətə gətirər və (öz qüdrəti dairəsində) istədiyini edər

Siz öz fikrinizi işə salın. Bu zaman görəcəksiniz ki, hər vaxt istəsəniz, əlinizi tərpədəcək, gözünüzlə görəcək və öz iradə çərçivənizdə istədiyinizə əməl edəcəksiniz. Sonra bu hərəkətlərin hər hansı biri barəsində dərindən düşünün. Məsələn, öz əlinizi sabit və hərəkətsiz saxlayıb, sonra tərpətmək istədiyiniz halda, dərindən fikirləşin ki, iradə edib öz əlinizi tərpətdiyiniz zaman nə baş verir? İradə edən kimdir və onun iradəsi nədir? Onun sizin əlinizlə münasibəti və əlaqəsi necədir? Əlinizlə nə kimi əlaqəsi vardır? Onun keyfiyyəti nədən ibarətdir? Adətən iradə etdikdə nə olur və hansı hadisə baş verir? Nəhayət, bu məsələdə nə kimi sirlər mövcuddur? Bu suallar haqqında düşndükdə, nə başa düşdüyünüzə və nə dərk etdiyinizə diqqət yetirin. Baxın, görün ki, hadisənin ?dərinliyinə və incəliklərinə vara bilərsiniz, ya yox

Hər halda, bu əhatə və hakimiyyətə nail olacaqsınız. Onun

izahında aciz qalıb incəliklərinə vara bilməsəniz də, eynilə onu görəcəksiniz. Bu əhatə və hakimiyyət barəsində düşünüb, agah olduqdan sonra, anlayacaqsınız ki, həmin bu varlıq aciz və fəqirdir. Bu yolla müəyyən qədər Allahın əhatə və hakimiyyətini, onun .nədən ibarət olduğunu başa düşəcəksiniz

Əgər aciz və fəqir bir məxluq belə bir mistik əhatə və hakimiyyətə malikdirsə, yenilməz qüdrət və qüvvət sahibi olan Allah-taalanın əhatəsi necədir? Qurani-Kərimdə :buyurulur

{أَلَا إِنَّهُمْ فِي مِرْيَةٍ مِنْ لِقَاءِ رَبِّهِمْ أَلَا إِنَّهُ بِكُلِّ شَيْءٍ مُحِيطٌ}

Bil ki, şübhəsiz onlar öz Rəbbi ilə qarşılacaqları (qiyamət günü Allahın hüzurunda" duracaqları) barədə şəkk-şübhə içindədirlər. Bil ki, həqiqətən, Allah hər şeyi əhatə (etmişdir!"(١)

Bu məsələ barəsində də fikirləşin ki, "özünüz", yəni sizin şəxsiyyətiniz və mənliyiniz haradadır? Bədənin daxilindədir, yoxsa, onun xaricində? Bəlkə də, onlardan üstün olan başqa bir yerdədir?! Sonra Allahı hər bir eyib və nöqsandan, oxşarlıqdan pak bilib bu həqiqətə diqqət yetirin ki, "O, əşyaya qarışmadığı halda, hər bir şeyin daxilində və ayrı ".olmadığı halda, ondan xaricdədir

Özü"nə səfər və orada seyr etmək (insanın daxili aləmi barədə düşünmək): Öncə" qeyd etdiyimiz kimi, insanın "özü" haqqında düşünməsinin ikinci qismi "özü"nə səfəri, orada seyr etməsidir (yəni özü və daxili aləmi barədə düşünməsi). Bu Allaha doğru .seyrin ən yaxın yollarındandır və xüsusi təfəkkür tərzinə malikdir

Özünəməxsus keyfiyyət və yola malik xüsusi təfəkkür tərzində seyr edən şəxs Allahdan başqa, hər hansı bir şeydən üz çevirərək öz həqiqətinə qayıdır və onun nurlu həqiqəti təcəlla edir, mərifət və müşahidə qapıları üzünə açılır, seyretmə başlanır və .sözlərə sığmayan bir hadisə baş verir

Bu təfəkkür tərzi, yaxud bu səfər istər başlanğıcda, istərsə

[۱]-۱ . “Fussilət” surəsi, ayə ۵۴.

də mərhələlərinin tərtib və keyfiyyətində düzgün icra və bəyənilən nəticə üçün tam mənada mükəmməl təlimlər və işarələrlə həyata keçməlidir. Bu işə ciddi yanaşmaq lazımdır. Kamala çatmaq iddiasında olanlar, azğınlığa düşənlər və haqdan sapanların .təlimləri kimi olmamalıdır

Bu səfərdə insan "özü"nü xüsusi şəkildə seyr edərək müşahidə məqamına nail olur. Bu səbəbdən də, yolu ötüb keçmək istəyən şəxsin xüsusi hazırlığı olmalı və ruhi baxımdan .lazımi istedadlar kəsb etməlidir

Beləliklə, əgər Allahın lütf və mərhəməti seyr edən şəxsə şamil olsa, bu "fikir"də müvəffəqiyyətə çatsa, onun üzünə Allaha doğru seyr yolu açılacaqdır. Bundan əlavə, .saysız-hesabsız həqiqətlərlə və qəribə sirlərlə üzləşəcəkdir

Ən yaxın yol insanın "özü"ndədir və onu özündə axtarmalıdır. Başqa sözlə, mütəal Allahın dərgahına çatmaq üçün ən yaxın yol insanın "özü"dür və məqsədinə nail olmaq üçün mütləq "öz" aləmində gəzib, seyr etməlidir. Qurani-Kərimdə buyurulur: "Ey iman)gətirənlər! Nəfslərinizi (özünüzü) unutmayın."(١

Xüsusi məzmundan ibarət olan bu ayədə buyurulur ki, özünüzdən qafil olmayın və .məqsədə nail olmaq üçün ən yaxın yolla hərəkət edin

Bu məqamda bir mətləb: Burada qısa şəkildə bir məsələni izah etmək istəyirik. Ümid edirik ki, qeyd etdiklərimiz "özü"ndə seyr edənlər üçün faydalı olacaq, lazımi bəsirətlərin ələ gətirilməsilə nəticələnəcək. (İnsanları doğru yola yönəldən yalnız (!Allahdır

Tədqiq olunmuş məsələlərdən biri də budur ki, bizim hissi, əqli və xəyali şeylərə münasibətdə elmimiz bir çoxlarının dediyi və bizim güman etdiyimiz kimi deyil. "Elm" və ya "şüur" məsələsi və onun müxtəlif yönləri

---

.Maidə" surəsi, ayə ١٠۵" . [١]-١

qarışıq, dərin və sirlərlə dolu məsələlərdəndir. İnsan bu barədə nə qədər dərindən fikirləşsə, bir o qədər həqiqətlər və heyrətamiz məsələlərə çatar, təəccübü daha da artar. Təəssüf ki, kiçik bir qrup istisna olmaqla, çoxları varlıq məsələləri və onun həqiqətlərindən qəflətdə qalır, onlar barəsində fikirləşmirlər. Əksinə, düşüncələr, əql və himmətlər elə yerlərdə işlədilir ki, insafla yanaşsaq, deyə bilərik ki, bu insanın əqli .və düşüncəsi süquta uğramışdır. Bu münasibət insanlıq məqamı ilə uyğun gəlmir

Əslində, insanın əqli və düşüncəsi bizim müşahidə etdiyimiz kimi olmamalıdır. Əgər insanın əql və düşüncəsinin genişliyini, hansı məqamlara yol tapa biləcəyini, nə kimi amilləri seyr edə biləcəyini, insanların üzünə hansı yolların açılacağını bildikdən sonra onlara nəzər salsaydıq, özlərinə zülm etdiyini yaxşı başa düşərdik. Bu səbəbdən də, belə bir vəziyyətdə obyektiv məsələlər və varlığın həqiqətləri haqqında danışmaq çox .çətin, bəlkə də, qeyri-mümkündür

Bir çox filosoflar, tədqiqatçılar və nəzər sahibləri "elm" və "şüur" məsələsilə əlaqədar fikir bildirmiş, təhqiqatlar aparmışlar. Bir çox məqamlarda faydalı mətləblərə və həqiqətlərə işarə edərək məchul, qeyri-müəyyən məsələlər kəşf etmişlər. Lakin .məsələnin həqiqətinə və əslinə olduğu kimi nail olmamışlar

Bu nəzəriyyələr və araşdırmalar arasında bəzi filosof və ariflərin münasibəti həqiqət üzərindən pərdəni götürmüş və onlar məsələnin həqiqətinə varmışlar. Demək olar ki, bu nəzəriyyəni mükaşifələr (kəşflər) də təsdiqləyir. Onların nəzəriyyəsinə əsasən, bizim dərk etdiyimiz bütün cüzi məlumatları – onun bir qismi sayılan hisslər və təxəyyülləri – "öz"ümüzdə görürürük. Onların hamısı "kiçik misal aləmi", "bizə birləşən, .bizimlə əlaqəli misal aləmi" adlanan bizim öz misal aləmimizdə mövcuddur

Bizim "özümüzdən xaricdəkiləri də anlamağa nail

oluruq” – deyə düşünüb güman etməyimiz batil bir gümandır. Hisslər və duyğular vasitəsilə özümüzdən xaricdəkilərlə əlaqəmiz zəmin yaradır ki, xaricdə olanların oxşar və bənzərini “öz misal aləmi”mizdə tapaq. Bu əlaqə səbəb olur ki, biz misal şəklində .xaricdə mövcud olanları “öz aləmimizdə”, yəni “öz misalımızda” yaradaq

Başqa sözlə, hisslər və duyğular vasitəsilə xarici aləmlə əlaqə saxlamağımız ruhumuz üçün yenilik hazırlayır ki, o, duyğular vasitəsilə əlaqə yaradan bir sıra xarici həqiqətlərin bənzərini özündə – misal aləmində – yaradaraq canlı şəkildə müəyyənləşdirsin. Bunlar təxəyyül və hissiyyat aləmi ilə (cüzi məlumatlarla) bağlı .məsələlərdən ibarətdir

Ümumi məlumata” gəldikdə isə bu, onların idrakı, yəni bizim əqli şeylərə, maddədən“ üstün həqiqətlərin müxtəlif yönlərinə aid azacıq malik olduğumuz elmimizdən ibarətdir. Əsas məsələ bundan ibarətdir ki, biz həmin ali həqiqətlərə uzaqdan-uzağa nail olduğumuz üçün, onları çox zəif görürük. Təbii ki, bu, öz ardınca qeyri-müəyyənlik, məfhumi mənada ümumilik və s. kimi xüsusi təsirlər də gətirir. Yoxsa, həmin ali həqiqətlərin hər hansı biri öz dərəcəsində müəyyən bir həqiqətdir və xüsusi varlıq .əhatəsinə malikdir

Bu nurlu həqiqətlər bizə uzaqdan belə görünür. Onları hər şeyə aid edilən ümumi və qeyri-müəyyən məfhumlar kimi dərk edirik. Diqqət yetirmirik ki, bizim həmin nurlu həqiqətlərdən uzaq düşməyimiz onları qeyri-müəyyən və hər bir şeyə aid olan halda görməyimizlə nəticələnmişdir. Əgər fasilə götürülsə, pərdələr aradan qaldırılsaydı, o nurlu həqiqətlərin hər birini varlıq əhatəsinə malik olan müəyyən formada görərdik. Onlar müxtəlif təzahürlərdə aşkar edilmişdir. Eləcə də, başa düşərdik ki, əslində onun varlıq ümumiliyi məfhumi bir mənada deyil, varlıq əzəmətinə malik olmaq mənasındadır. Onun müxtəlif fərdlərə aid edilməsi, həqiqətdə, onun müxtəlif .təzahürlərdə təcəlli etməsi deməkdir

Bir həqiqətin qisimləri ilə üzləşərək onlardan ümumi bir məfhumu başa düşmək (bu, ümumi məfhumların idrakı bölümündə aydın bir məsələ sayılır), əslində, mücərrəd bir həqiqətin müxtəlif təzahürlərlə üzləşməsidir. Bu üzləşmə bizim o həqiqəti uzaqdan müşahidə etdiyimizlə nəticələnir. Buna əsasən, gördüklərinin hamısını, həm hissi, həm də xəyali şeyləri özündə – öz misali mərtəbəndə, ümumi həqiqətləri də öz mücərrəd .mərtəbəndə görəcəksən

Təbiət aləmindən misal və misal aləmindən mücərrəd aləmə: Əgər qısa şəkildə qeyd olunan məsələlərə yaxşı diqqət yetirsəniz, başa düşəcəksiniz ki, hisslər və duyğular vasitəsilə öz vücudumuzdan xaricdə olan təbiət aləmilə əlaqəmiz öz misal aləmimizə .diqqət yetirməyimizə və orada xarici həqiqətlərin oxşarlığını görməyimizə səbəb olur

Sonra öz misal aləmimizdə mücərrəd bir həqiqət və onun qisimlərinin müxtəlif təzahürlərini müşahidə etmək öz mücərrəd aləmimizə diqqət yetirməyimizə səbəb olacaqdır. Varlıq əhatəliyinə malik olan mücərrəd həqiqətin özünə uzaqdan nail olacaq və uzaqdan nail olduğumuz üçün onu çox zəif və qeyri-müəyyən görəcəyik. Bu da .misal aləmindən mücərrəd, yaxud əql aləminə keçiddir

Öz misal aləmimizə çox yaxınıq. Təbii ki, bizim orada qərar tutmağımız da çox asandır. Duyğular vasitəsilə xarici aləmlə əlaqə saxlamaq, yaxud təxəyyül bizim öz misal aləmimizdə qərar tutmağımıza zəmin yaradır və orada qərar tuturuq. Demək olar ki, biz həmişə öz misal aləmimizdəyik, lakin ona diqqətsizik. Beləliklə, biz öz misal aləmimizdə qərar tutduğumuz, yaxud həmişə orada olduğumuz üçün öz misal aləmimizdə təxəyyül və hissiyyat kimi hər nə görürüksə, heç bir qeyri-müəyyənlik olmadan yaxın və aydın görürük. Lakin təbiətlə məşğul olduğumuz və misal aləmimizə diqqət yetirdiyimiz üçün öz mücərrəd aləmimizdən çox uzağıq. Təbii ki, bizim orada qərar tutmağımız çətindir. Buna görə də hər

vaxt bu nəticə hasil olsa, çox zəif və naqis olur. Biz mücərrəd bir həqiqətin təzahürlərini müşahidə edib, bir tərəfdən onların vəhdət təşkil etməsini, digər tərəfdən isə, bir-birindən ayrılmasını gördüyümüzdən, zəmin yaranır ki, öz mücərrəd aləmimizə qayıdıb bu təzahürdə təcəlli edən həqiqətin özünə mütləq şəkildə nail olaq. Bizim öz mücərrəd aləmimizə qayıdıb orada qərar tutmağımız tam zəif və naqis şəkildə yerinə yetirilir. Buna görə də təcəlli edən o həqiqəti aydın və olduğu kimi yox, öz misal aləmimizdə misali surətimizi gördüyümüz kimi zəif və qeyri-müəyyən .müşahidə edirik

Əgər "özümüzü" "təbiətə" və "öz misal aləmimizə" məşğul olmaqdan azad etsək, zaman və məkandan üstün nurlu aləm sayılan öz mücərrəd aləmimizdə qərar tutacağıq. Bu zaman təzahürlərdə və digər ümumi həqiqətlərdə təcəlli edən həmin həqiqətə nail olduğumuz kimi onları yaxından müşahidə edəcəyik. Belə ki, qabaqcadan və uzaq məsafədən gördüklərimiz arasında yerdən göyə qədər fasilə olacaqdır və nə qədər ki, özümüz o mərhələyə çatmamışıq, onun keyfiyyət və necəliyini dərk edə bilməyəcəyik. Çünki bu, mücərrəd bir mərhələdir və onu canlı şəkildə görməyincə, keyfiyyətini başa düşmək qeyri-mümkündür. Orada olan həqiqətlərin hər hansı biri öz dərəcəsində Allahın adlarının və sifətlərinin təzahürü, cəlal və camalının aynasıdır. O hara, bizim uzaqdan nail olduğumuz hara! Uzaqdan nail olduğumuz həqiqət bizim nəzərimizdə o qədər zəifdir ki, onun adını "ümumi məfhumlar" qoymuşuq. Orada .mövcud olanlar isə haqqın surətinin eyni şəkildə əksidir

Nəticə: Öncə qeyd olunanlardan başa düşdük ki, bizim xarici aləmə diqqət yetirməyimiz və onların özümüzdən xaricdə olduğunu güman etməyimiz bizi "öz misal aləmimizə" diqqət yetirib onlardan qafil etmişdir. Digər tərəfdən, bizim xarici aləmlə məşğul olub öz misal aləmimizdə gördüklərimiz bizi öz mücərrəd aləmimizdən qafil .etmiş, müşahidə mərkəzi sayılan nurlu dərəcəmizdən uzaqlaşdırmışdır

Təbii ki, “seyr” və “fikir” məqamında hər şeydən öncə, özümüzdən xaricdə olan təbiət aləmindən “xəyal” aləminə, yəni “öz misal aləmimizə” səfər edib qayıdırıq. Sonra “xəyal”, yaxud “misal” aləmində “mücərrəd” aləmə doğru hərəkət edib özümüzə dönürük. Bu da “müşahidə” mərhələsinin başlanğıcıdır. Daha sonra seyri davam etdirib .mücərrəd aləmdən keçməklə fanilik və dirilik məqamına çatırıq

Bu məqamda bir sıra həqiqətlər: Bu məqamda bir neçə həqiqətə də işarə edirik: “Nəfsdə (özündə) seyr edən” şəxslərin bəzi həqiqətləri bilmələri faydalı və zəruridir. Onlar qeyd edəcəyimiz bu həqiqətlərə lazımınca diqqət yetirməli və onun barəsində .dərindən düşünməlidirlər ki, yaxşı dərk edib həqiqətə çatsınlar

Əlbəttə, aşağıda qeyd etdiklərimiz ümumi işarələrdən ibarətdir. Allah-taala özünəməxsus hidayətlər və bu kimi ümumi işarələrlə doğru yola yönəldir. Hidayət edən, məhz, Odur və hər şey Onun tərəfindəndir. Bu həqiqətləri tərtiblə və xüsusi :ünvanlarla qeyd edirik

Təklikdə xəlvət: Özümüzə qayıdıb özümüz haqqında düşündükdə, tək-tənha . ۱ olduğumuzu, hər şeydən üzüldüyümüzü, eləcə də, xüsusi xəlvət bir yerdə qərar .tutduğumuzu, yalnız özümüzü və özümüzlə birgə olanları görəcəyik

Bu zaman Qurani-Kərimin ayələrinin bəzi həqiqətləri bizim üçün müəyyən qədər aydın olacaqdır. Elə ayələr ki, bizim tək-tənha olduğumuzdan xəbər verir. Lakin biz tənha olmağımıza diqqət yetirmirik. Bunu öləndən sonra Allahın hüzuruna daxil olduğumuz zaman – qiyamətdə başa düşəcəyik. Həmin ayələrin bir neçəsini qeyd etməklə :kifayətlənirik

:a) “Məryəm” surəsinin ۸۰-ci ayəsində buyurulur

{...وَيأْتِينَا فَرْدًا}

”!O, Bizim hüzurumuza tək-tənha gələcəkdir“

:b) “Məryəm” surəsinin ۹۵-ci ayəsində buyurulur

{وَكُلُّهُمْ آتِيهِ يَوْمَ الْقِيَامَةِ فَرْدًا}

Onların hamısı (göylərdə və yerdə olanlar) qiyamət günü Allahın hüzuruna tək-tənha“ ”.gələcəklər

:c) “Ənam” surəsinin ۹۴-cü ayəsində buyurulur

{وَلَقَدْ جِئْتُمُونَا فُرَادَى كَمَا خَلَقْنَاكُمْ أَوَّلَ مَرَّةٍ وَتَرَكْتُمْ مَا خَوَّلْنَاكُمْ وَرَاءَ ظُهُورِكُمْ وَمَا نَرَى مَعَكُمْ شُفَعَاءَكُمُ الَّذِينَ زَعَمْتُمْ أَنَّهُمْ فِيكُمْ شُرَكَاءُ لَقَدْ تَقَطَّعَ بَيْنَكُمْ وَضَلَّ عَنْكُمْ مَا كُنْتُمْ تَزْعُمُونَ}.

Ölüm zamanı deyilər) Siz bizim hüzurumuza ilk dəfə sizi yaratdığımız kimi tək-tənha,)“ özü də sizin ixtiyarınızda qoyduqlarımızı tərk edib gəlmisiniz. Artıq sizin (vaxtı ilə) öz aranızda Allahın şərikləri güman etdiyiniz (batil) havadarlarınızı görmürük. Doğrudan da, sizinlə onlar arasında ayrılıq düşmüş və Allaha şərik zənn etdikləriniz (bütlər) də ”.qeyb olmuşdur

Nəhayət, başqa ayələr və onlarda işarələr var ki, insan tək-tənhadır, özündən xaricdəkilərlə əlaqəsi qırılmışdır və heç bir şey onunla birgə deyil. Bu tənhalıq ona ölüm zamanı, eləcə də, həqiqətlərin aşkar olduğu qiyamət günündə məlum olacaq. Hər kəs .dünya həyatındakı batil xəyallarından və məşğul olduğu hər bir şeydən ayrılacaqdır

Uca Allahla xəlvətə çəkilmək: Təklik və xəlvətdə özümüzü Rəbbimizlə birlikdə hiss .۲ edəcəyik. Yəni O, bizim yaradanımız, idarə edənimiz və qüvvət verənimiz olsa da, Onunla birlikdə, sıx əlaqədə, həmişə Onunla xəlvətdə olduğumuzu və başqalarının :deyil, yalnız Onun bizimlə birgə olduğunu görəcəyik. Qurani-Kərimdə buyurulur

{...وَهُوَ مَعَكُمْ أَيْنَ مَا كُنْتُمْ...}

)Siz harada olsanız, O sizinlədir!”(۱“

Onu özümüzlə, özümüzü də Onunla birlikdə və bir-birimizlə olan əlaqəni çox möhkəm və yaxın hiss edəcəyik. Məgər belə deyilmi ki, O, hər bir şeyin və hər bir məxluqun ”Rəbbi və yaradanıdır? Mənim və sənin həqiqətimiz, yəni “mən

.Hədid” surəsi, ayə ۴ . [۱] -۱

sözü ilə işarə olunan həqiqət Onun məxluqu deyilmi? Mənim və sənin həqiqətinin ?Rəbbi O deyilmi? Bizim həqiqətimiz Ondan qaynaqlanmırmı və Onunla birlikdə deyilmi

Əgər bu məqamda öz düşüncəmizin seyrində müvəffəq olsaq, batinimizdə tövhid nuru şölələnməyə başlayacaq, şirkin kökləri qırılacaq, imanımız möhkəmlənəcək, həqiqətin üzərindən hicablar və qaranlıqlar götürüləcək. Bizim sərvərimiz və tədbir tökənimiz, məhz, yeganə olan Allahdır! Bütün xeyir və zərərlərin mütləq calal və camal sifətlərinə malik Allah tərəfindən və hökmün yalnız Ona məxsus olduğuna inanaraq Onu öz .məbudumuz və Rəbbimiz qərar verəcəyik

Allah-taala ilə xəlvət edərkən hər nə qədər çox fikirləşsək., üzümüzə həqiqət qapıları bir o qədər çox açılar və ayələrin sirləri, xüsusilə, "Allahdan başqa, heç bir dost və yardımçı, heç bir məbud yoxdur, insanlar öz puç xəyalları ilə Ondan başqasını özləri üçün tanrı, məbud, dost və köməkçi qərar verərək azğınlığa düşürlər" – ayələrinin :mənaları bizə məlum olar. Həmçinin, aşağıdakı ayələri daha yaxşı başa düşərik

١. "Məgər sən bilmirsən ki, göylərin və yerin səltənəti (hökmranlığı) yalnız Allaha (məxsusdur və sizin Allahdan başqa, dostunuz və yardımçınız yoxdur?!"(١

٢. "(Müşriklər) Allahı qoyub özlərinə nə xeyir, nə də zərər verə bilən bütlərə ibadət) (edirlər."(٢

٣. "Allahdan başqa, ibadət etdikləriniz sizin və atalarınızın (özünüzdən uydurub) (qoyduğunuz adlardan (bütlərdən) başqa bir şey deyildir."(٣

Bu ayələrə bənzər digər ayələr çoxdur. Onların hər birində xüsusi incəliklər, işarələr, .həqiqətlər və sirlər mövcuddur

---

١- [١] . "Bəqərə" surəsi, ayə ١٠٧.

٢- [٢] . "Furqan" surəsi, ayə ۵۵.

٣- [٣] . "Yusif" surəsi, ayə ۴٠.

Elə təsəvvür etməyin ki, bu ayələri də Qurani-Kərimin digər ayələrini başa düşdüyümüz kimi dərk edirik. Əlbəttə, onların zehni mənalarını müəyyən qədər başa düşür və onları qəbul edirik. Lakin onların həqiqətlərini canlı şəkildə dərk etmirik. Zehni mənalar və əyani həqiqətlər arasında böyük fasilə var. Onların arasındakı fasilə sözə, yazıya və ifadələrə sığmır və bu, zehni məfhumlar və xarici həqiqətlər arasında mövcud olan fasilə kimidir. "Fikir" məqamında və "Uca Allah ilə xəlvətdə" gördüklərimiz mənim və sənin zehnimizdə mövcud olan zehni mənalar deyil, ayələrin eyni və əyani .həqiqətləridir

Qəriblik və vətəndən uzaqlıq: Fikir məqamında və təklikdə bir guşəyə çəkilərək .۳ özümüzə dönüb seyr edərkən özümüzü yalnız Rəbbimizlə hiss etdiyimiz halda, vətənimizdən və əsl məskənimizdən uzaq düşdüyümüzü, hər bir şeyi əldən verdiyimizi canlı şəkildə dərk edirik. Başqa sözlə, insan özündə üzücü bir qəriblik hiss edir. Özü ilə özünə ən yaxın olan əsl məskəni arasında uzaq fasilə düşdüyünü, özü ilə əsl məqamı .arasında pərdələrin fasilə saldığını görür

Həm özümüzü Məbudla birlikdə və Məbuda dost görürük, həm də Ondan uzaq düşdüyümüzü hiss edirik. Qəriblik sıxıntısını və ayrılıq qüssəsini açıq-aşkar duyuruq. Elə bir duyğu ki, insan onun keyfiyyətini dərk etmir, sözlərlə və yazılarla bəyan edə .bilmir

Yaxınlıq, uzaqlıq və ayrılıq: Düşüncə, seyr davamlı olduqda, dərk edəcəyik ki, .۴ Allahdan uzaq düşsək də Ona çox yaxınıq. Yəni O, bizə, biz də Ona həddən artıq (yaxınıq. Qurani-Kərimdə buyurulur: "Biz insana şah damarından da yaxınıq!"(۱

İndiyə qədər düşündüklərimizin bizi məqsəddən uzaqlaşdırdığını və Allahla bizim .aramızda fasilə saldığını dərk edirik

---

.Qaf" surəsi, ayə ۱۶" .[۱]-۱

Bir sözlə, biz Ondan nə qədər uzaq olduğumuzu hiss etdiyimiz halda, Onun bizə hər şeydən, hətta özümüzdən yaxın olduğunu görəcəyik. Qurani-Kərimin "Və`ləmu ənnəllahə yəhulu beynəl-məri və qəlbihi..." (Bilin ki, Allah insanla onun qəlbi arasına girər!)(١) – ayəsinə diqqət yetirdikdə, başa düşürük ki, bu arada ayrılıq və fasilə salan hicab və pərdələr bizim özümüzdədir. Əgər belə deyilsə, nə üçün Ona yaxın ?olduğumuz halda, Ondan uzaq düşür və Onu müşahidə edə bilmirik

Əgər arada heç bir pərdə və fasilə yoxdursa, şübhəsiz ki, hicran və ayrılıq mövcuddur. Görəsən, bu ayrılıq nədir və nədəndir? Allah-taala bizə bizim özümüzdən də yaxın deyilmi? O, hər şeyi ehtiva etmişdir, ürəklərdən keçən hər şeyi bilir və hər yerdə !hazırdır

Bu, bir həqiqətdir! İnsan bütün pərdələri, hicabları və qaranlıqları kənara atmalı, özünü onlardan təmizləməli, onları özündən uzaqlaşdırmalı, paklanmalı və hər bir şeydən üz çevirməklə Allahı çağırmalı, Onu yad etməli və batini seyrlə müşahidə mərhələsinə .çatmalıdır

Həzrət Əmirəlmöminin Əli (ə) buyurmuşdur: "Arif o şəxsdir ki, özünü tanıyaraq onu ((haqdan) uzaqlaşdıran hər bir şeydən azad və pak etsin!"(٢)

O həzrətin bəyanı çox dərin mənaya malikdir. Onda həqiqətlər və sirlər mövcuddur. Bu hədis və onun xüsusi ifadələri barəsində dərindən düşünün. Nəfsində (özündə) seyr .edən şəxslərin bu hədis üzərində düşünməsi zəruridir

---

.Ənfal" surəsi, ayə ٢۴" . [١] -١

".Qürər və Dürəri Amudi" . [٢] -٢

FİTRİ MƏRİFƏTƏ DİQQƏTSİZLİK.۳۴

?Sual: Fitri mərifətə diqqətsizlik amilləri nədir

Əgər fitri olaraq Allahı tanımaq məsələsi ilə əlaqəli ayələrə diqqət yetirsək, bəzilərinin Allahı unutmalarının, bəzilərinin də tamamilə inkar etmələri səbəbini asanlıqla görəcəyik. Quran ayələrinə əsasən, fitri mərifətə diqqətsizliyin amilləri :aşağıdakılardan ibarətdir

:Unutqanlıq .۱

{وَلَا تَكُونُوا كَالَّذِينَ نَسُوا اللَّهَ فَأَنْسَاهُمْ أَنْفُسَهُمْ أُولَئِكَ هُمُ الْفَاسِقُونَ}

(Allahı unudan kəslər kimi olmayın ki, Allah da onlara özlərini unutdurdu.”(۱“

Bu və buna bənzər digər ayələrdən başa düşülür ki, kafirlərin ilk baxışda Allaha qarşı mərifəti olmuşdur. Lakin küfr halında Allahı unutmuşlar. Bu unutqanlıq da Allahı .danmağa, yaxud Ona etinasızlığa səbəb olmuşdur

:Maddi səbəblərə diqqət .۲

{فَإِذَا رَكِبُوا فِي الْفُلْكِ دَعَوُا اللَّهَ مُخْلِصِينَ لَهُ الدِّينَ فَلَمَّا نَجَّاهُمْ إِلَى الْبَرِّ إِذَا هُمْ يُشْرِكُونَ}

Müşriklər gəmiyə mindikləri zaman (dəryada batacaqlarından qorxub) ixlasla Allahı“ çığırarlar. Allah onları sağ-salamat sahilə

.Həşr” surəsi, ayə ۱۹; “Tövbə” surəsi, ayə ۶۷“ .[۱]-۱

(çıxaran kimi, yenə də (Ona) şərik qoşarlar.”(١)

Həqiqətdə digər səbəblərdən üz çevirib onlara ümid bəsləməmək insanı səbəblərin səbəbkarına – Allaha doğru yönəldir və onun daxilində qoyulan fitri mərifət oyanır. Bu və bu kimi ayələrdən açıq-aşkar başa düşülür ki, insanı özünə məşğul edən şeylər .Allaha olan fitri mərifətə diqqətsizliyin ən əsas amilidir

:Rahatlıq və rifah .٣

{قُلْ أَرَأَيتَكُم إِنْ أَتَاكُمْ عَذَابُ اللَّهِ أَوْ أَتَتْكُمُ السَّاعَةُ أَغَيرَ اللَّهِ تَدْعُونَ إِنْ كُنْتُمْ صَادِقِينَ}

Müşriklərə) De: “Mənə deyə bilərsinizmi ki, sizə Allahın əzabı gəlsə və ya qiyamət)“ başınızın üstünü alsa, Allahdan başqasına dua edib yalvaracaqsınız? Əgər doğru (danışanlarsınızsa (deyin görək!)”(٢)

Bu ayədə göstərilir ki, insanın fitrəti ölüm vaxtı qiyamət kimi çətin hadisələrdə oyanar. Demək olar ki, rahatlıq və rifah içərisində yaşamaq fitrətin yatması üçün zəmin .yaradır

:Şeytanla dostluq .۴

{وَلَأُضِلَّنَّهُمْ وَلَأُمَنِّيَنَّهُمْ وَلَآمُرَنَّهُمْ فَلَيبَتِّكُنَّ آذَانَ الْأَنْعَامِ وَلَآمُرَنَّهُمْ فَلَيغَيرُنَّ خَلْقَ اللَّهِ وَمَنْ يتَّخِذِ الشَّيطَانَ وَلِيا مِنْ دُونِ اللَّهِ فَقَدْ خَسِرَ خُسْرَانًا مُبِينًا}

Şeytan dedi:) Onları hökmən (doğru yoldan) sapdıracaq, uzun-uzadı arzulara, qəm-)“ qüssələrə salacaq, heyvanlarının qulaqlarını kəsməyi və Allahın yaratdıqlarını dəyişməyi əmr edəcəyəm!” Allahı atıb şeytanı özünə dost tutan şəxs, əlbəttə, açıq-(aşkar ziyana uğramışdır.”(٣)

Allahın yaratdıqlarında dəyişiklik etmək fitri olaraq Allahı tanımaqdan uzaqlıq deməkdir.(۴) Bu da şeytanla dostluğun nəticəsidir. Əgər bir kəs şeytanla dostluq etsə, Allahın yaratdığı fitrət dəyişilər, Onu unudar, yaxud inkar edər. Diqqət yetirmək lazımdır ki, biz öz əməl və rəftarlarımızla

.Ənkəbut” surəsi, ayə ۶۵“ . [۱] -۱

.Ənam” surəsi, ayə ۴۰; bax: ۴۱-۴۲-ci ayələr“ . [۲] -۲

.Nisa” surəsi, ayə ۱۱۹“ . [۳] -۳

.Əl-mizan”, ۵-ci cild, səh. ۸۵“ . [۴] -۴

Allah-taalanı uzaq və əlçatmaz yerlərdə axtarırıq. Halbuki O, bizə şah damarımızdan .da yaxındır

ALLAH MÖHTAC DEYİL.۳۵

Sual: Allah möhtacdırmı? Əgər möhtac deyilsə, (sözsüz ki, Allah-taala möhtac deyil; çünki bu ehtimal Onun "qəni" (ehtiyacsız) sifətinə ziddir) nə üçün insanlara öz feyz və ?lütfünü əta edərkən peyğəmbərlərə ehtiyac duyur

Diqqət yetirmək lazımdır ki, biz insanlar hidayət olmaq və doğru yola yönəlmək üçün peyğəmbərlərə möhtacıq və Allahın mütləq feyzi və lütfü insanın səadətə və (xoşbəxtliyə nail olması üçün peyğəmbərlər göndərməsini tələb edir.(۱)

Lakin bu feyz və lütfün peyğəmbərlər vasitəsilə çatdırılmasının Allahın ehtiyacsız olması və özündən başqasına möhtac olmaması ilə heç bir ziddiyyəti yoxdur. Çünki "fellərdə tövhid"də (Allahın yerinə yetirdiyi işlərdə başqasının kömək və yardımına ehtiyaclı olmamasında) məqsəd ilahi işlərin yerinə yetirilməsində Onun zatından xaricdə olan kömək və yardıma ehtiyacın duyulmamasıdır. Bu səbəbdən də, Allahın öz yaratdığı bir səbəb vasitəsilə bir iş yerinə yetirməsi Onun ehtiyacsız olması və "fellərdə tövhid"lə heç bir ziddiyyət təşkil etmir. Səbəblərdən istifadə etmək Onun ehtiyacsız olması ilə "Allah-taalanın öz zatından və

.Əl-mizan", Əllamə Təbattəbai, ۲-ci cild, səh.۱۴۸" . [۱] -۱

yaradılış çəriçivəsindən xaricdə olan səbəblərə ehtiyacı vardır!" – dediyimiz təqdirdə, ziddiyyət təşkil edər. Buna əsasən, Allah-taalanın öz yaratdığı və göndərdiyi peyğəmbərlər vasitəsilə bəndələrinə feyz, nemət və bərəkət əta etməsinin Onun ehtiyacsız olması ilə heç bir təzadlı cəhəti yoxdur. Ehtiyacsız olmaq və fellərdə tövhid "Allah o peyğəmbərlərə ehtiyaclıdır ki, onları özü yaratmamışdır!" – dediyimiz təqdirdə öz həqiqi mənasını itirir.(١)

Belə görünür ki, bu şübhələr öz aramızda işlədilən məfhumların Allah-taala barəsində işlədilən məfhumlarla müqayisə etdikdə yaranır. Bu, Allahın felləri və sifətləri bölməsində daha çox müşahidə olunur. İnsan mümkün olan xarici nümunələrdən əldə edilən bir sıra məfhumları, gördüyü, yaxud tanıdığı əlaqəni bir məfhum hesab edir və ümumiləşdirərək Allaha nisbət verir. Məsələn, biz "Allah dünyanın işlərini idarə edir!" – cümləsindəki "idarə etmək" ifadəsini öz aramızda işlətdiyimiz "Filankəs bir ailəni idarə edir!" – cümləsilə bir hesab edirik. Allahın ehtiyacsız olması və ya öz feyzini, neməti və bərəkətini bir sıra səbəblər vasitəsilə çatdırması məsələsi də bu qaydaya əsaslanır. Biz elə düşünürük ki, Allah-taalanın səbəblərdən istifadə etməsi insanın bir sıra alətlərdən istifadə edərək öz işində həmin alətə möhtac olması kimidir. Bu vaxt insanın ani olaraq zehninə gəlir ki, Allah da öz vasitəsilə feyzə çatan səbəblərə möhtacdır. Halbuki, belə deyil! Biz öz məxluqumuz olmayan və yaratmadığımız, zatımızın və varlığımızın müqabilində olan alətlərə möhtacıq. Halbuki Allah-taala öz feyzini, lütf, mərhəmət, nemət və bərəkətini elə alətlər, vasitələr və səbəblərlə çatdırır ki, onlar Allahın yaratdığıdır və Onun müqəddəs zatına bağlıdır.

١- [١] . "Fellərdə tövhid" məsələsi ilə əlaqədar bax: "Məarifi-Quran", Məhəmmədtəqi Misbah Yəzdi, ١-ci cild, səh. ٨٠-٨٨.

Əlbəttə, bu məsələnin də dəlili budur ki, biz Allahın təsirlilik və yaradılış əlaqəsini, eləcə də, zəruri və mümkün varlıq arasındakı əlaqəni düzgün şəkildə qavrayıb dərk etməyə qadir deyilik. Çünki insanın zehni bir sıra qeyd-şərtlərə malikdir və elmi-fəlsəfi ideyalarını təbiət aləmindən götürür. Buna görə də Allahın dünya ilə əlaqəsini dəqiq .şəkildə başa düşə bilmir

Bizim məsələnin incəliklərinə varmağa qadir olmamağımız düşüncə və əqlimizi işlətməməyimizə səbəb olmamalıdır. Əksinə, bu barədə çalışmalı, əqli mərifətimizi gücləndirməli varlıq aləminə hakim nizam-intizamı Qurani-Kərimdən istifadə edərək öyrənməliyik. Əgər Quran ayələrininin Allahın varlıqlarla münasibəti ilə əlaqədar müxtəlif ifadələrinə diqqət yetirsək, Allahın "bütün varlıqları (elmi və qüdrətilə) ehtiva etməsini"(١), "bütün varlıqlarla birgə olmasını"(٢), "hər bir şeyin xaliqi (yaradanı)"(٣) və "hər bir şeyə malik olmasını", "varlıq aləmini hifz etməsini"(۴), "insanları hər bir qəm-qüssədən qurtarmasını"(۵), "varlıq aləminin Ona istinad etməsini"(۶) və bu kimi ifadələri görəcəyik. Bununla da, bizim Allahın özü qərar verdiyi və yaratdığı səbəblərlə əlaqəsinə qarşı mərifətimiz artacaq. Eyni zamanda Onun ehtiyacsız olması da .aydınlaşacaq. Bu yolda Ondan kömək diləməliyik

---

.Nisa" surəsi, ayə ١٢۶" . [١]-١

.Taha" surəsi, ayə ١١١" . [٢]-٢

.Ənam" surəsi, ayə ١٠٢" . [٣]-٣

.Hud" surəsi, ayə ۵٧" . [۴]-۴

.Ənam" surəsi, ayə ۶۴" . [۵]-۵

.Bəqərə" surəsi, ayə ٢۵۵" . [۶]-۶

ALLAH VƏ ONUN YENİLMƏZ QÜDRƏTİ.۳۶

?Sual: Allah özü kimi bir varlıq yaratmağa qadirdirmi

Qüdrət"in mənasına diqqət yetirdikdə, bu sualın cavabı aydın olur. "Qüdrət" ixtiyar" sahibi olan failin (işi görənin) mümkün bir iş üçün başlanğıc olması deməkdir. Fail varlıq dərəcəsi baxımından nə qədər mükəmməl olsa, daha çox qüdrətə malik olar. Təbii ki, sonsuz kamilliyə malik olan varlığın qüdrəti də sonsuz və yenilməzdir. Diqqət yetirmək lazımdır ki, qüdrətlə bağlı olan işlərin gerçəkləşməsi mümkün olmalıdır. Zati olaraq qeyri-mümkün işlər qüdrət dairəsindən xaricdir. Allah-taalanın hər şeyə qadir olması bu mənada deyil ki, (məsələn) başqa bir allah yaratsın. Allah "yaradılan" və "məxluq" olmamalıdır. Bu məsələ eynilə iki ədədinin iki fərz olunduğu halda, üç ədədindən böyük olmasına bənzəyir. Yaxud, şəxs övlad hesab olunduğu halda, atasından öncə yaranmış olsun. Əgər başqa bir allahın eynilə "Allah" rolunu ifa etməsini – məxluq deyil, yaradan olmasını nəzərə alsaq, o başqa bir yaradan vasitəsilə necə vücuda gələ bilər? (Bu, zati olaraq qeyri-mümkündür və xüsusən, qüdrət dairəsindən xaricdir.(۱

.Bax: "Amuzeşe əqaid", Ayətullah Misbah Yəzdi, ۱-ci cild, səh. ۹۹-۱۰۰ . [۱]-۱

?Sual: Əgər Allah cisim deyilsə, Kəbə evinin tikilmə fəlsəfəsi nədir

Əgər Kəbə Allahın cismani evi sayılsa, bu, Onun cisim olmaması ilə uyğun gəlmir. Halbuki Kəbənin tikilməsi mövzusunda deyə bilərik ki, Quran ayələri və tarixi sənədlərə əsasən, Məkkə ilahi bərəkətlərin nazil olduğu, bəşərin doğru yola yönəlməsinə səbəb olan(۱) və Allaha ibadət və bəndəçilik etmək üçün ictimai bir məkandır.(۲) Allah-taala əvvəlcə susuz və məhsul verməyən bu torpağa çoxlu dünyəvi xeyir və bərəkətlər əta etməklə özünün "ruzi verən" sifətinə malik olduğunu açıqladı.(۳) Kəbənin Allah dərgahına yaxınlaşmaq üçün məkan olmasına diqqət yetirməklə bəşər cəmiyyətinin doğru yola yönəlməsi üçün bəndəlik yollarının keyfiyyətini işıqlandırmaq olar. Həmçinin xüsusi günlərdə bir sıra əməllərə çağırışla insanlara bəndəlik yolu xatırladır ki, insan öz nəfsindən üz çevirərək özünü hər növ çirkinlikdən, rəzil sifətlərdən, Allahın unudulmasına səbəb olan bağlılıqlardan, rənglərdən və təsəvvürlərdən saflaşdıraraq ixlas və xüsusi

---

.Ali-İmran" surəsi, ayə ۹۶" . [۱] -۱

.Bəqərə" surəsi, ayə ۱۲۵" . [۲] -۲

.İbrahim" surəsi, ayə ۳۷" . [۳] -۳

tövbə ilə Allahın dərgahına yaxınlaşsın.(۱) Bundan əlavə, Allah öz evini İbrahim məqamının əlaməti, əmin-aman bir yer və gücü çatanların həcc əməllərini yerinə yetirməsi üçün məkan qərar vermişdir. Bunların hər biri Allah-taalanın məqamının ucalığını göstərir. Həqiqətdə, bundan da aydın əlamət varmı ki, hər il minlərlə insan bu məkanda bir yerə toplaşıb həcc mərasimi əməllərini yerinə yetirir və Allaha bəndəçiliklərini etiraf edirlər? Bu da öz növbəsində xalqların qəflət yuxsundan oyanmasına səbəb olur.(۲)

Allah-taala bu evin tikilməsini əmr etmişdir ki, insanlar namaz qılanda, heyvanların başını kəsəndə və can verən halında üzüqibləyə dursunlar. Bundan əlavə, Allah-taala "tövhid", "vəhdət" və "birlik" ruhiyyəsini canlandırmaq məqsədilə zahirdə bir-birlərindən ayrı olan qəlbləri bir araya gətirir, öz dinini diri saxlayıb möhkəmləndirir.(۳)

Gördüyünüz kimi, bütün bu təhlillərdə cismani və maddi məqsəd güdülmür. Kəbənin tikilməsi Allahın cisim olmaması məsələsinə xələl gətirmir. Əksinə, bu müqəddəs məkanın bərpa edilməsində məqsəd mənəvi məsələlərə əlamət və nişanə qərar verməkdən başqa, bir şey deyildir.

۱- [۱]. "Əl-mizan", ۱-ci cild, səh. ۲۹۸.
۲- [۲]. Yenə orada, ۳-cü cild, səh. ۳۵۴.
۳- [۳]. Yenə orada, ۶-cı cild, səh. ۱۴۲.

ŞƏR İŞLƏR VƏ TƏBİİ FƏLAKƏTLƏRİN SİRRİ.٣٨

Sual: Allah-taala nə üçün bəzi insanları kor, kar və lal yaratmışdır? Başqa sözlə, nə üçün şər işlər (o cümlədən, təbii fəlakətlər) Allahın qəza çərçivəsinə daxil olur? Bu :suala cavab vermək üçün aşağıdakı incəliklərə dəqiq şəkildə diqqət yetirmək zəruridir

Bizim əqidəmizə görə, Allah-taala alim, qadir və mütləq xeyirxah olduğundan varlıq .١ aləminə hakim nizamı ən gözəl şəkildə yaratmışdır. Başqa sözlə, Allahın yaratdığı bütün aləmlər ən gözəl və ən kamildir. Belə ki, ondan yaxşısını təsəvvür etmək qeyri-mümkündür. Varlıq aləminin hər hansı bir hissəsi mümkün olduğu həddə gözəl yaradılmışdır. Buna görə də Allahı "əhsənül-xaliqin" (yaradanların ən gözəli) (adlandırırıq.(١

Həmçinin bizim əqidəmizə görə, Allah-taala varlıq aləmini zati olaraq bir sıra əbədi .٢ və dəyişməz qayda-qanunlarla idarə edir. Dünyada yaşayan varlıqlar və fenomenlər bir sıra sabit, dəyişməz və ilahi qayda-qanunlara tabedir. Başqa sözlə, Allah-taalanın dünyada müəyyən

---

.Muminun" surəsi, ayə ١۴; "Tin" surəsi, ayə ۴" . [١]-١

üslubları var və işləri yalnız həmin üslublar əsasında yerinə yetirir.

Qeyd etmək lazımdır ki, bu qanunlar insanlar arasındakı ictimai müqavilələr, əhd-peymanlar və zehni iltizamlar kimi deyil, təkvini bir həqiqətdir ki, dünya və ondakı varlıqların keyfiyyəti üzərində qurulmuşdur. Bu səbəbdən də, onların dəyişdirilməsi qeyri-mümkündür.

۳. Həqiqətdə, Allah-taala üç aləm – maddi, misal və mücərrəd (metafizik) – yaratmışdır. Bu aləmlərin qabiliyyətləri və nizamındakı varlıq dərəcəsi əsasında, hər birinin özünəməxsus qayda-qanunları vardır. Yəni maddi aləmdə mövcud olan bir sıra hökm və təsirlər misal aləmində yoxdur. Bunun əksi olaraq misal aləmində bəzi hökm və qanunlar vardır ki, onlar maddi aləmdə yoxdur. Müccərrəd aləm də maddi və misal aləminə nisbətdə belədir. Bu üç aləmin yaranışı, onlara özünəməxsus hökm və qanunların hakim olması ikinci bir məsələdən qaynaqlanır. Yəni Allahın qəzavü-qədəri maddi, misal və müccərrəd aləmlərin və onların varlıqlarının hər birinin ayrı-ayrılıqda xüsusi qanunlar və hökmlərə tabeliyini müəyyən etmişdir.(۱)

۴. Maddi aləmin özünəməxsus mahiyyətinə, qabiliyyətinə və nizam-intizamındakı varlıq dərəcəsinə diqqət yetirsək, görərik ki, onun xüsusi hökmləri vardır. Əgər bu hökmlər, qayda-qanunlar olmasa, maddi aləm öz mahiyyətini itirər və artıq ona maddi aləm deyilməz. Bu aləmdə ziddiyyət, təzad, məhdud və puçluq mövcuddur. Təbiət aləmi əlaqələrin birləşməsi və qırılması ilə zəngindir. “Şadlıq”, “sevinc”, “qəm-qüssə”, “əzab-əziyyət”, “ümid” və “məğlubiyyət””

۱- [۱]. Bu üç aləm və onlara hakim kəsilən qayda-qanunlar, hökmlər barəsində əlavə məlumat əldə etmək istəyənlər ustad Məhəmməd Şücainin “Məad, ya bazgəşt be suyi-Xuda” kitabının ۱-ci cildininin ۲۱۲-۲۴۱-ci səhifələrinə müraciət edə bilərlər.

bu aləmdə birgədir. Bütün bu təsirlər bu aləmin özünəməxsus quruluşunun tələbidir. Bir sözlə, maddi aləm bu qayda-qanunlara və hökmlərə görə, “şər işlər” adlandırdığımız bəlalar, müsibətlər, əzab-əziyyətlər, möhnətlər və xəstəliklər, eləcə də, “xeyir işlər” adını daşıyan səadət, xoşbəxtlik, şadlıq, sevinc, müvəffəqiyyət, uğur və .qələbələrin mənbəyidir

Bu mətləblərə diqqət yetirdikdə, məlum olur ki, sualda göstərilən kor, kar və lal insanların yaranışı təbiət aləminin hökm, qayda-qanun, təsir və tələblərinə əsaslanır və ondan yaxa qurtarmaq qeyri-mümkündür. Maddi aləmdə ziddiyyət və təzadlar mövcud olduğundan, bir sıra işlər həqiqi məcrasından çıxır. Maddi aləmə biri kor, biri kar və digəri iflic halda qədəm qoyur. Birinin sağlam, digərinin iflic olması kimi fərqlər bu maddi aləmə hakim sabit qayda-qanunlara əsaslanır. Bunu maddi aləmin varlıq dərəcəsinə uyğun qayda-qanunlar tələb edir. Varlıqlarda mövcud olan bu fərqlər həndəsi füqurların xüsusiyyətləri kimi zatidir. Məsələn, üçbucağın bucaqlarının cəmi ۱۸۰, dördbucağın bucaqlarının cəmi isə ۳۶۰ dərəcəyə bərabərdir. Bu xüsusiyyətlərin üçbucaq və dördbucağa sonradan verilməsi düzgün deyil. Belə bir sualın qarşıya çıxması isə qəribədir: “Nə üçün üçbucaq zülmə məruz qalaraq ۳۶۰ dərəcəyə bərabər deyildir?” Üçbucaq müəyyən olunmuş xüsusiyyətdən başqasına malik ola bilməz. Üçbucağı heç kəs “üçbucaq” etməmişdir. Yəni üçbucaq əvvəlcə başqa formada və başqa xüsusiyyətdə olmamışdır. Kimsə onu indiki üçbucaq formasına salmamışdır. Yaxud, “üçbucaq və dördbucaq özü varlıq və gerçəklik mərhələlərinin birində heç bir xüsusiyyətə malik olmamış, sonradan hansısa bir qüvvə tərəfindən bu xüsusiyyətlər onların arasında bölüşdürülmüşdür”, “o, öz istəyinə uyğun olaraq üçbucağın ۱۸۰, dördbucağın isə ۳۶۰ dərəcəyə bərabər olduğunu qərar vermişdir” – mülahizələri !düzgün deyil

Demək, (məsələn) bərk cisimlərin inkişaf və dərk etməməsi, bitkilərin isə inkişaf edib dərk etməməsi, heyvanların həm inkişaf, həm də dərk etməsi bərk cisimlər, cansız və canlı təbiətin (bitkilər və heyvanlar) varlıq dərəcəsində zatidir. "Onların hamısı əvvəlcə eyni olmuş, sonradan Allah-taala birinə inkişaf və dərketmə qabiliyyəti əta etmiş, digərinə heç birini etə etməmiş, üçüncüsünə isə birini əta etmiş, birini isə əta etməmişdir!" – demək olmaz. Eləcə də, insanlardan birinin kor və o birinin kar olması maddi aləmin varlıq dərəcəsində zatidir. Bir sıra sabit və dəyişilməz qayda-qanunlar .nəticəsində bəzilərinin cismi fiziki çatışmazlıqlara düçar olur, bəziləri isə sağlam qalır

Ümumiyyətlə, bu bir həqiqətdir ki, dünyadakı məxluqatın hər biri və hansısa bir üzvün hissəsi imkan daxilində onlara çatmalı olan haqlarına çatmışlar.(۱) Məlum olur ki, Allah-taala bu müsibətlərin və "şər işlərin" mənbəyi deyil. Əksinə, maddi nizam belə hadisələrin baş verməsini tələb edir və təkcə "xeyir işləri" qəbul edə bilmir. "Mücərrəd" aləm isə tamamilə bunun əksinədir. Yalnız xeyir işləri qəbul edir. Aşağıda qeyd edəcəyimiz misala diqqət yetirdikdə, bu məsələ daha da aydınlaşacaq. Günəş şüasını nəzərə alın. Bu şüa müxtəlif əşyalara saçdıqda, əşyaların qabiliyyətlərinə uyğun müxtəlif şəkillərə düşür. Məsələn şüa qara rəngli cismə saçdıqda tutqun görünür. Şüanın çatdığı əşyada, yaxud məkanda istilik də yaranır. Əgər həmin şüa aydın və işıqlı bir məkana saçsa, öz işığını bir o qədər də itirmir və o məkanda istilik yaranmır. Bu iki misalda günəş şüasında heç bir fərq yoxdur. O, həm qaranlığa, həm də işıqlı məkana saçmaqda heç bir çətinliklə üzləşmir və öz şüasını əşyalara eyni səviyyədə verir. Görəsən, günəş şüası ayrı-ayrı əşyalara düşdükdə, nə üçün müxtəlif

---

.Ədli-ilahi", Şəhid Mürtəza Mütəhhəri, səh. ۱۶۹-۱۷۲" . [۱] -۱

şəkil alır? Görəsən, bunun səbəbi günəş şüası, yoxsa əşyalardır? Tamamilə aydındır ki, .əşya qara rəngli olduğuna görə, günəş şüası qara, işıqlı olduğuna görə aydın olur

Varlıq aləmləri də Allah-taalaya münasibətdə belədir. Allah-taala varlıq aləminə öz feyz və lütfünü eyni səviyyədə əta edir. Lakin aləmlərin varlıq dərəcəsindəki ixtilafları, fərqləri və qabiliyyətləri bu feyz və lütfün müxtəlif surətlərdə əks olunmasına səbəb olur. Bu feyz və lütf "mücərrəd" aləmdə özünəməxsus varlıq dərəcəsinə, qabiliyyət, qayda-qanun və hökmlərinə görə, sırf xeyir işlər surətində cilvələnir. Maddi aləm özünəməxsus varlıq dərəcəsinə, qabiliyyətinə, qayda-qanunlarına və hökmlərinə (görə, xeyir və şər işlərlə birgə zühur edir.(١

Beləliklə, biz əqidəmizə görə, Allah-taala dünyanı ən gözəl şəkildə yaratmış, onu sabit və dəyişməz qayda-qanunlara tabe etmişdir. Beləcə, təbiət aləmində "şər işlər"in "xeyir işlər"lə birgə olması maddi aləmin dəyişməz qayda-qanunlarının tələbidir. Buna .əsasən, "şər işlər"in mənbəyi maddi aləm və ona hakim zəruri qayda-qanunlardır

:Əlbəttə, cavabın təkmilləşməsi məqsədilə iki nöqtəyə diqqət yetirmək lazımdır

Sualda göstərilən misallardakı təbii şərlər insanın iradə azadlığından qaynaqlanmır, .١ təbiət aləminin tələblərinə əsaslanır və bu (təbii şərlər) dünyanın xeyir işləri ilə müqayisədə həddən artıq azdır. Əgər dünyada kar, kor, lal, əlil və şikəst insanları saysaq, onlar fiziki sağlamlığa malik insanlarla müqayisədə çox-çox azdır. Bu da, Allahın xeyir və şər işlərlə birgə olmağı tələb edən maddi aləmə lütf və mərhəmətidir. .Təbii şərlər təbii xeyirlərdən olduqca azdır

Əvvəla: Ayə və rəvayətlərə əsasən, təbii şərlər .٢

.Bax: "Təfsirul-Quranil-Kərim", Məhəmməd ibn İbrahim Sədruddin Şirazi, səh.٣٩٩ . [١] -١

insanın imtahana çəkilməsi üçündür. Qurani-Kərimdə buyurulur: “Şübhəsiz ki, Biz sizi bir az qorxu, bir az aclıq, bir az da mal, can və məhsul qıtlığı ilə imtahan edərik. (Ya Mühəmməd!) Səbir edən şəxslərə müjdə ver!”(۱) İnsanın əsl həqiqəti imtahan zamanı .aşkar olur

Başqa bir ayədə belə buyurulur: “Həqiqətən, Biz fironçuları quraqlığa və məhsul ”.qıtlığına düçar etdik ki, bəlkə, ibrət alalar

İkincisi: Təbii şərlər insanların əməllərinin cəzası üçün bir vasitə, eləcə də, ilahi qəzəb və qisasdır. Buna Ad, Lut, Firon qövmləri, habelə “Əykə” və “Həcər” səhabələrinə nazil (olan əzabı misal göstərmək olar.(۲

Üçüncüsü: Hədislər baxımından, Allah-taala bəzi insanlar qəflətən (təbii şərlər adlandırdığımız) işgəncələrə, əzab-əziyyətlərə, ağrı-acılara və müsibətlərə düçar olduqlarından, axirət aləmində və qiyamətdə onlara yaxşı mükafat veriləcək. Bu :barədə iki rəvayət nəql etməklə kifayətlənirik

İmam Sadiq (ə) (kor, kar və lal kimi cismi nöqsanlardan danışarkən) təkidlə belə .۱ buyurmuşdur: “Allah-taala axirət aləmində belə şəxslərə səbir etdikləri halda, elə savab və mükafat verər ki, əgər onları yenidən dünyaya qayıdıb, həmin müsibətlərə və bəlalara dözməklə axirət aləmində qalmaq arasında ixtiyar sahibi etsəydi, savab və mükafatları daha da artsın deyə, yenidən dünyaya qayıdıb müsibətlərə və bəlalara (dözməyi seçərdilər.”(۳

İmam Rza (ə) buyurmuşdur: “Mömin şəxsin xəstələnməsi onun günahlar və .۲ inhiraflardan paklanmasına səbəb olur. Bu, onun üçün ilahi bir rəhmət, kafirlər üçün (isə əzab və lənətdir.”(۴

səh:۱۸۸

.Bəqərə” surəsi, ayə ۱۵۵“ .[۱]-۱

.Bax: “Əraf” surəsi, ayə ۱۳۶; “Hud” surəsi, ayə ۸۲; “Fil” surəsi, ayə ۴ .[۲]-۲

.Biharul-ənvar”, ۳-cü cild, səh. ۷۱“ .[۳]-۳

Səvabul-əmal və iqabul-əmal”, Məhəmməd ibn Əli Səduq, tərcümə və redaktə:“ .[۴]-۴

.Əli Əkbər Qəffari, səh. ۴۲۹

Sual: Allahın təqdiri nə deməkdir? Əgər insanın ilahi təqdirin əksinə olaraq heç bir iş görə bilməməsinə etiqad bəsləsək, bu, “cəbr” mənasını daşımayacaqmı? Allahın qəzasında məqsəd nədir? Əgər ilahi qəza “işin sona yetib tamamlanması” mənasını ?ifadə edirsə, insanın öz işlərini ixtiyari olaraq yerinə yetirməsi necə mümkündür

Bu dörd sual ən əsas suallardandır. Onlara cavab versək, nəzərdə tutulan məsələ də :aydınlaşacaqdır

Əvvəlcə, Allahın “təqdiri” və onun insanın ixtiyarı ilə münasibəti barəsində söhbət etmək istəyirik. Təqdirin iki mənası var və onu mütənasib olaraq iki kateqoriyaya :bölmək olar

Elmi təqdir”: Ölçü və miqdar deməkdir. Allahın elmi təqdirində məqsəd odur ki,“ .١ Allah-taala hər şeyin hansı zaman və məkanda, həmçinin necə gerçəkləşəcəyini bilir. Başqa sözlə, Allah-taala varlıqların və fenomenlərin yaranma şərtləri, səbəbləri və .müqəddimələrinin hazırlanmasından və onların baş verməsindən agahdır

Allahın bu elmi təqdiri insanın ixtiyarı ilə heç bir ziddiyət təşkil etmir; çünki Allah-taala ,bilir ki, məsələn

filankəs öz ixtiyar və istəyi ilə hansı işləri yerinə yetirəcəkdir. Həqiqətdə, Allahın əzəli elmi və uzaqgörənliyinin insanın ixtiyarı ilə heç bir ziddiyyəti yoxdur. Çünki insanın ixtiyari olaraq yerinə yetirdiyi işlər Allahın elminin bir hissəsini təşkil edir və belə elm ixtiyarla ziddiyyət təşkil etməklə yanaşı, həm də onu təsdiqləyir.(١)

٢. "Eyni təqdir": Müəyyən ölçüdə "icad etmək" və yaxud hansısa bir şey üçün "ölçü təyin etmək" mənasındadır. Allahın eyni təqdiri məxluqatın idarə olunmasından ibarətdir. Belə ki, fenomenlərin üzərində xüsusi təsir qoyulur və təbii olaraq hər hansı bir fenomenin də cins, növ, şəxs və onun halətləri bir-birindən fərqləndiyi kimi, uzaq və yaxınlıq baxımından da bir-birindən seçiləcəkdir. Məsələn, insan növünün təqdiri yer üzündə xüsusi bir zamandan başlayaraq müəyyən bir vaxta qədər həyat sürməsindən, hər bir şəxsin təqdiri isə məhdud zaman çərçivəsində ata və anadan dünyaya gəlməsindən ibarətdir. Eləcə də, insanın ruzisi, həyatının digər problemləri və ixtiyari işlərində olan təqdir onların hər hansı biri üçün xüsusi şəraitin hazırlanmasından ibarətdir. Həqiqətdə, Allahın təqdiri bundan ibarətdir ki, Allah-taala hər hansı bir məxluqu müəyyən hədlər, qeyd-şərtlər, xüsusiyyətlər və istedadlarla vücuda gətirir.(٢)

Bu təqdirin insanın ixtiyarı ilə heç bir ziddiyyəti yoxdur; çünki bizim ixtiyarımız öz ixtiyarımızla yerinə yetirdiyimiz əməl və ixtiyari işlərimizin müqəddimələri digər fenomenlər kimi, xüsusi məcra, müəyyən kadr və özünəməxsus dairədə gerçəkləşir. Bu da Allahın müəyyən etdiyi təqdirdir. Məsələn, (ixtiyari bir əməl sayılan) insanın danışması mütləq

---

١- [١] . Allahın əzəli elmi, gələcəyi bilməsi və insanın ixtiyarı barəsində əlavə məlumat əldə etmək istəyənlər Məhəmməd Səidimehrin "Elme pişine ilahi və ixtiyare insan" adlı kitabına müraciət edə bilərlər.

٢- [٢] . "Furqan" surəsi, ayə ٢; "Qəmər" surəsi, ayə ٤٩; "Yasin" surəsi, ayə ٣٨; "Muminun" surəsi, ayə ١٨; "Əla" surəsi, ayə ٣.

özünəməxsus bir üzvlə həyata keçir və danışıq forması alır. Buna görə də Allah-taala nəfəs borularını, qırtlağı, səs tellərini, dili, dişləri və dodaqları yaratmış və bu əczaları .(ixtiyari əməl sayılan) nitqin gerçəkləşməsi üçün müəyyən etmişdir

Allah-taala ixtiyari işlərin müqəddimələrini də xüsusi şəraitlə təyin etmişdir. Məsələn, Allah-taala insanın qidalanması üçün bədəndə bəzi üzvlər yaratmış və onun sərf olunma yerlərini ayırd etmişdir. İnsanın qidalanmasında bəzi üzvləri əsas rola malikdir. Əgər bu bədən üzvləri olmasaydı, ixtiyari bir əməl sayılan qidalanma prosesi .gerçəkləşməzdi

Ümumiyyətlə, Allah-taalanın xaricdə təqdirlə bağlı müəyyən etdiyi bütün işlər məcburidir (təkvini). İnsanın ixtiyar və iradə azadlığı onda heç bir rol oynamır. Bədən üzvlərimiz bizə məcburi verilmişdir. Bizim bədənimizdə hansı üzvün olub-olmamsı ilə bağlı seçim etmək ixtiyarımız yoxdur və bu işə qüdrətimiz çatmır. Bəli, ixtiyari əməllərin müqəddimələri məcburi olaraq yaranmışdır (və əgər bu müqəddimələr .(olmasaydı, ixtiyari əməllər həyata keçməzdi

Allah-taala hər hansı bir şəxsin yaşayışı üçün müəyyən vasitələr təyin etmişdir. (Bizə öz növbəsində məcburi olaraq əta olunan) ixtiyari fəaliyyət onun daxilində yerinə yetirilir. Biz bu çərçivə daxilində ixtiyar sahibi olub istədiyimizi işləri yerinə yetirə bilərik, lakin ondan (müəyyən edilmiş çərçivədən) xaric bizim ixtiyarmızdan kənardır. Başqa sözlə, ixtiyar qanunu, bütün ixtiyari işlərin müqəddimələri və ixtiyari işlərin görülməsini həyata keçirən hissələrin (məsələn, bədən üzvləri) olması – varlıq aləminin tələbinə görə – Allahın müəyyən etdiyi təqdir əsasında məcburidir. Lakin öz ixtiyarımızdan və .həmin müqəddimələrdən necə istifadə etmək bizim öz ixtiyarımızda qoyulmuşdur

İlahi qəza” və onun ixtiyarla münasibəti barəsində söhbət etməzdən öncə, qeyd“ etmək lazımdır ki, “eyni təqdir” mənasını daşıyan ilahi təqdir həqiqətdə naqis səbəblərə

qayıtmaq deməkdir. Yəni fenomenin yaranması bir sıra müqəddimələrlə bağlı olub o şeyin ölçüsü və həddinin təyin olunmasında təsirlidir və ona həmin şeyin təqdiri deyilir. Lakin bir şeyin bütövlükdə səbəbi Allaha istinad edilsə belə, bu terminə əsasən, .“təqdir” adlanmır. Bu, sonrakı səhifələrdə danışacağımız “qəza”dan ibarətdir

Bu təhlilə əsasən, “eyni təqdir” heç vaxt dəyişə bilməz; çünki bir şeyin müqəddimələri hazırlandıqda, – əgər uzaq müqəddimələrdən olsa, – yenə də bir neçə digər vasitə gerçəkləşməli, nəhayət, həmin fenomenin özünə çatmalıdır. Bu zaman mümkündür ki, .bir maneə yaranıb həmin şeyin gerçəkləşməsinin qarşısını alsın

Bu incə nöqtəyə diqqət yetirdikdə, təqdirin dəyişməsi ilə əlaqədar nəql olunan bir çox rəvayətlərin mənası aydınlaşır. Bir sıra rəvayətlərdən başa düşülür ki, insan bəzi əməlləri yerinə yetirməklə öz təqdirini dəyişə bilər. Məsələn, sədəqə vermək bəlanın aradan qaldırılmasına, qohumluq əlaqələrini möhkəmlətmək ömrün uzun olmasına səbəb olur. Belə bir vəziyyətdə ilkin olan “eyni təqdir” bir bəlanın nazil olması, məsələn, insanın müəyyən bir yaş həddinə çatdıqda, xəstəlik və ya qəzaya uğramaq nəticəsində vəfat etməsidir. Lakin sədəqə vermək və qohumluq əlaqələrini möhkəmlətmək həmin bəlanın və yaxud vəfatın qarşısını alır, təqdir və taleyin .dəyişdirilməsinə səbəb olur

İLAHİ QƏZA VƏ İNSANIN İXTİYARI

Qəza” sözü “sona çatmaq”, işi qurtarmaq mənasını daşıyır və hansısa bir işin son“ mərhələsini “qəza” adlandırmaq olar. “Qəza”nın da “təqdir” kimi iki kateqoriyası var: “Elmi qəza” və “eyni qəza”. İşin sona çatmasını və sonuncu mərhələsini bilməyə “elmi .qəza”, işin sona çatıb həqiqətdə gerçəkləşməsinə isə “eyni qəza” deyilir

Allahın elmi qəzası: Allah-taala varlıqların və fenomenlərin

labüd olaraq həyatda gerçəkləşməsini bilir. Onun elmi qəzası insanın ixtiyarı ilə heç bir ziddiyyət təşkil etmir. Çünki Allah bilir ki, bir fenomen, yaxud bir fel və iş insanın ixtiyarı ilə hökmən həyata keçəcəkdir. Başqa sözlə, Allahın insanların öz ixtiyarları ilə yerinə yetirdikləri işləri barəsindəki elmi qəzasının mənası budur ki, O, insanın filan işdə ixtiyar sahibi olması ilə yanaşı, labüd olaraq gerçəkləşəcəyini bilir. Yəni Allah bilir ki, .filankəs belə bir işi iradə edəcək, öz ixtiyarı və istəyi ilə onu yerinə yetirəcəkdir

Allahın eyni qəzası: Bu, varlıqların labüd olaraq gerçəkləşməsinin Allaha mənsub edilməsi deməkdir. Başqa sözlə, Allahın eyni qəzası tələb edir ki, fenomenlərin varlığının yarandıqları ilk gündən, hətta uzaq müqəddimələrin hazırlandığı vaxtdan Onun hikmətli tədbiri altında olduğuna inanaraq yaradılış şərtlərinin hazırlanıb son .mərhələyə çatmasını “Onun iradəsinə tabe” hesab edək

:Başqa sözlə

Hər hansı (səbəbə ehtiyacı olan) varlığın özünün zəruri varlıq həddinə çatması onun .١ .tam illətinin (səbəbinin) gerçəkləşməsi yolu ilədir

Allahdan başqa, heç bir məxluq öz varlığında və varlığının təsirlənməsində müstəqil .٢ .deyildir

Təbii ki, bütün fenomenlərin varlığının zəruriliyi tam müstəqilliyə malik olan və heç .٣ .bir şeyə möhtac olmayan Allaha aid edilir

Həqiqətdə, Allahın qəzası tələb edir ki, hər hansı bir fenomenin varlığı Onun təkvini izninə və istəyinə mənsub edildiyi kimi, Onun izni olmadan da heç bir varlıq yaradılış aləminə qədəm qoya bilməsin. Hər bir şeyin yaradılışı Allahın eyni qəzasına əsaslanır (və Onun icazəsi olmadan heç bir varlıq özünəməxsus surətinə düşə bilməz.(١

.Nisa” surəsi, ayə ٧٨; “Şüəra” surəsi, ayə ٧٩-٨١“ .[١]-١

Burada yeni bir sual qarşıya şıxır: Əgər Allahın eyni qəzası insanın öz ixtiyarı ilə yerinə yetirdiyi işlərə və onun müqəddimələrinə şamildirsə, onların fenomenlər kimi həyatda gerçəkləşmələri Allaha istinad edildikdə, insanın ixtiyar və iradə azadlığına sahib olmaması məlum olur. Başqa sözlə, Allahın eyni qəzasına əsasən, necə ola bilər ki, insanın öz ixtiyarı ilə yerinə yetirdiyi işlərdə, həm öz ixtiyarına, həm də Allahın qəzasına ?istinad edilsin

Bizim nəzərimizcə, Allahın eyni qəzası insanın ixtiyarı ilə heç bir ziddiyyət təşkil etmir. Bu məsələ ilə əlaqədar şübhə yanlış təsəvvürdən yaranmışdır. Belə ki, varlığın zərurəti və işin gerçəkləşməsi (özünün tam səbəbi mövcud olduğu təqdirdə) ixtiyarın müqabilində məcburiyyət mənasında təsəvvür edilmişdir. Halbuki bu təsəvvür düzgün deyildir; çünki bir nəticənin bir neçə səbəbə istinad edilməsinə diqqət yetirdikdə, Allahın eyni qəzasının insanın ixtiyarı ilə heç bir ziddiyyət təşkil etmədiyi aydın olacaqdır. Məsələnin aydın olması üçün diqqət yetirmək lazımdır ki, bir fenomenin :yaranmasında bir neçə səbəbin təsiri aşağıdakı formalarda təsəvvür edilə bilər

Bir neçə səbəb birlikdə və yanaşı təsir etsin; misal üçün, suyun, toxumun və istiliyin... .١ .təsiri ilə toxum açılıb çiçəklənir

Səbəblərin hər hansı biri növbə ilə təsir etsin, belə ki, ömür müddəti onların sayına .٢ bölünür, hər hissə səbəb və amillərin birinin nəticəsi olaraq növbə ilə öz təsirini bağışlayır. Necə ki, bir neçə mühərrik bir-birinin ardınca işə düşərək təyyarənin .hərəkət edib uçmasına səbəb olur

Onlar bir neçə topun bir-birinə dəyməsi kimi, bir-birinə təsir göstərsin. Başqa bir .٣ misal: İnsanın öz əlini hərəkət etdirməsində iradəsinin, qələmin hərəkətində əlin və .yazının gerçəkləşməsində qələmin təsiri vardır

Bir-birinin ardınca gələn bir neçə amilin təsir göstərməsi: Belə ki, onların hər hansı .٤ biri başqa bir varlığa

.bağlı olsun. Məsələn, insanın varlığı və iradəsi Allahın iradəsinə bağlıdır

Bütün bu hallarda vahid nəticənin yaranması üçün bir neçə səbəbin birləşməsi lazımdır. Vahid nəticənin bir neçə səbəbdən qaynaqlanmasına (xüsusilə ۴-cü halda) diqqət yetirdikdə, məlum olur ki, insanın öz ixtiyarı ilə yerinə yetirdiyi işlərin Allaha mənsub edilməsinin insanın öz varlığı və iradəsi ilə heç bir ziddiyyəti yoxdur. Çünki bu .istinadlar bir-birinin ardıncadır və bir-birilə heç bir ziddiyyət təşkil etmir

Başqa sözlə, felin bir insana mənsub edilməsi bir səviyyədə, onun Allah-taalaya mənsub edilməsi isə yüksək bir səviyyədədir. Bu səviyyədə insanın varlığı, üzərində iş görülən maddə, eləcə də, alətlərin varlığı bütünlüklə ona əsaslanır. Buna əsasən, tam səbəbin sonuncu hissəsində insan iradəsinin təsiri ilə hər bir işin Allah-taalaya mənsub edilməsi arasında ziddiyyət yoxdur. Qeyd etmək lazımdır ki, Quranın bəzi ayələrində bizim işlərimiz, halətlərimiz və taleyimiz Allah-taalaya aid edilir. "Təkvir" surəsinin ۲۹-cu ayəsində buyurulur: "Aləmlərin Rəbbi olan Allah istəməsə, siz də istəyə bilməzsiniz!" Onun səbəbi də budur ki, Allah-taala bizi tövhidin ən yüksək mərhələlərindən sayılan "fellərdə tövhid" məsələsindən agah etsin. Qurani-Kərim insana Allahı olduğu kimi tanıtdırmaq və onu bu mətləblə tanış etmək istəyir. Onun öz ehtiyacının dərkindəki .kamalı Allaha məxsusdur; çünki insan tamamən varlıq nöqsanına və fəqirliyə malikdir

Sual: Üsuli-din (dinin əsasları) araşdırmaqla ələ gətirildiyi üçün məndə etiqadi məsələlərə qarşı şübhə yaranmışdır. Bu da məni vacib əməllər və ibadətlərin yerinə !yetirilməsində vasvasılığa salmışdır. Məsləhət verib yol göstərməyinizi xahiş edirəm

Qeyd etməliyəm ki, "yəqin", "rahatlıq" və "möhkəmlik" ilahi lütf və mərhəmətlərdən olduğu kimi, "vəsvəsə", "şəkk" və "tərəddüd" də şeytani təhlükələr və nüfuzlardandır. Şeytan Allahın bəndələrini doğru və haqq yoldan sapdırmaq üçün müxtəlif hiylələrdən istifadə edir. O, hiylə və məkr əhli olduğundan, insanları azdırmaq üslubunu onların vəziyyət və məzacına uyğun müəyyən edərək zəlalətə salır. Məsələn, şəri məsələlərə və hökmlərə etinasız yanaşan şəxs heç vaxt dəstəmazda və ya namazda vasvasılığa düçar olmaz. Vasvasılıq şeytani təhriklərdəndir və o, şəri məsələlərə etinasız yanaşan şəxsi narahat etmir. Əksinə, onu şəri vəzifələrdən və ilahi təkliflərdən daha da uzaqlaşdırmaq üçün həmin şəxsin daxili təmayüllərinə uyğun bir yol seçir. Buna əsasən, sizi dinin zəruri məsələlərində şəkkə salan şeytan sizin dini əməllərə qarşı diqqətinizdən xəbərdar olduğu üçün əlini, məhz, həmin nöqtə üzərinə qoyaraq ilahi .neməti almaq istəyir

Bu məsələyə diqqət yetirməklə deyə bilərik:

١. Sizin dinin əsaslarını qəbul etməkdə təqlid etməyib mütaliə və təfəkkürlə səy etməyiniz tərifəlayiqdir. Bu işinizə görə Allah yanında sizin çoxlu savab və mükafatınız var.

٢. Əqidələrinizdə şəkkə düçar olduğunuz üçün Allah dərgahında əməllərinizin qəbul olunmayacağını, bunun sizə heç bir fayda verməyəcəyini özünüzə təlqin etməyin. Bunün özü də şeytani hiylələrin davamıdır. Əvvəlcə, əqidələri daxilinizdə süstləşdirir, sonra əməllərinizə irad tutaraq sizdə onlara qarşı şübhə icad edir.

Sizin “Allah bu əməlləri məndən qəbul etməyəcəkdir!” – deməyinizin səbəbi odur ki, siz səmimi qəlbdən Allahı qəbul edir və Onun varlığına şübhə etmirsiniz. Buna əsasən, şeytani istəklərə və vəsvəsələrə düçar olmağınıza baxmayaraq, öz ibadətinizi davam etdirin və digər bəndələr kimi, mehriban və mərhəmətli Allahın dərgahında əməllərinizin qəbul olunacağına ümidvar olun!

٣. Bilin ki, şeytan zəifdir, onun hiylə və məkri ağıllı, həqiqət axtaran, Allahı istəyən, Allah zikri ilə yaşayan və Onun əmrinə təslim olanlara təsirsizdir.

Bunlara diqqət yetirməklə bir müddət şeytan və onun vəsvəsələrilə mübarizə aparın. Şeytanla mübarizə aparmağın yolları isə aşağıdakılardan ibarətdir:

Birinci yol: Şeytanın vəsvəsələrinə etina etməyin. O, sizi pis və puç nəsihətlərə dəvət etdikdə, fikrinizi başqa məsələlərlə məşğul edin. Məsumdan nəql olunan bir rəvayətdə buyurulur: “Həqiqətən, o xəbis (şeytan) ona itaət olunmasını istəyir. Əgər ona itaət etməkdən boyun qaçırılsa, sizə tərəf qayıtmaz.”(١)

İkinci yol: Həyatımızda yerinə yetirmək istədiyimiz hər hansı bir işdə və hər hansı bir çətinliklə üzləşdiyimiz

səh:١٩٨

---

[1]-١. “Fürui-kafi”, ٣-cü cild, səh. ٣٥٧.

zaman Allahdan, Onun rəhmət və lütfündən yardım diləmək, dua edib yalvarmaqla Allahın diqqətini özümüzə cəlb edək. Allah-taala bu həqiqəti belə açıqlayır: "De: "Əgər duanız olmasa, Allah yanında nə qədir-qiymətiniz olar?"(١) Şeytanın vəsvəsələrindən nicat tapıb qəflət yuxusundan oyanmağımız üçün Allah-taaladan sonra Peyğəmbər (s) .və imamlardan kömək istəməliyik

Quran ayələrini tilavət etmək və ya eşitmək, yaradılış və bu kimi digər məsələlər haqda nazil olan ayələr üzərində düşünmək insanın vücudunda hazırlıq ruhiyyəsi yaradır. İlahi cəzb nuru onun sorağına gələrək onu qəflət yuxusundan, xəyallardan və şeytan vəsvəsələrindən xilas edib öz həqiqətinə qaytarır. Diqqət yetirin ki, Qurani-Kərim hər bir bölümündə insan üçün hidayət, xatırlama, xəbərdarlıqlar və qorxutmalar qərar vermişdir. Hər kəs səmimi qəlblə Qurandan yapışıb haqq olan Allahın kəlamları .üzərində düşünsə, bu (ilahi kəlamlar, işarə və rəmzlər) onu həqiqətə çatdırar

Üçüncü yol: Bütün hallarda "qəflət"dən uzaq olub, Allahı yad edin. Şeytan həmişə insanı qaflətə çəkməyə çalışır və bu yolla insanı şəkkə düçar edir. Buna görə də özünüzü (xətalardan) qoruyub-saxlamaq əzmində olun. Hər zaman "qəflət"ə düçar olsanız, dərhal Allahı, Onun əzabını, nemət və mərhəmətini xatırlayın, Ona pənah aparıb tövbə edin. "Əraf" surəsinin ٢٠٠-٢٠١-ci ayələrində bu həqiqətə işarə ilə buyurulur: "Əgər sənə şeytandan bir vəsvəsə gəlsə, Allaha sığın. Şübhəsiz ki, Allah eşidən və biləndir. Allahdan qorxanlara şeytandan bir vəsvəsə toxunduğu zaman onlar (Allahın əzabını, lütfünü və mərhəmətini) xatırlayıb düşünərlər və dərhal (bəsirət ".gözləri açılar və) görən olarlar

Doğrudan da, insanı şeytanın tələsinə və vəsvəsələrinə salan qəflətdir. Onun əlamətlərindən biri də şəkk, tərəddüd

---

.Furqan" surəsi, ayə ٧٧" . [١] -١

və iztirabdır. Başqa sözlə, haqdan qafil olub onu unutmağın mənası odur ki, insan öz batinində Allahı unudub Ondan qafil olsun, çaşqın və sərgərdan vəziyyətdə qalaraq, nə edəcəyini bilməsin. Şeytan, məhz, bu yollarla insanın qəlbinə daxil olub vəsvəsə edir, onu doğru yoldan uzaqlaşdırır. İmam Sadiq (ə) buyurmuşdur: “Həqiqətən, qəflət şeytanın ovlağı, hər bir bəlanın, bədbəxtliyin başlanğıcı və bütün hicabların səbəbidir.”(1)

Qəflət şeytan tərəfindən olduğu üçün bu zaman insanın dostu və ürək yoldaşı da yalnız şeytandır. İnsanı qəflətə çəkən və Allahı yad etməyi unutduran, məhz odur! Qurani-Kərimdə buyurulur: “Şeytan onlara hakim olmuş və Allahı zikr etməyi onlara unutdurmuşdur…”(2)

Bu ayənin qeybi mesajı budur ki, insanın fikri, qəlbi və batini tamamilə Allahdan uzaqlaşıb xəyallar və gümanlara qərq olsa, şeytan ona hakim kəsilər, fikri, qəlbi və vücudunu özünə cəlb edərək Rəbbini yad etməkdən çəkindirər.

Aşağıda qeyd olunan iki ayəni həmişə oxuyun və onlar haqqında düşünün: “Hər kəs Rəhmanın zikrindən boyun qaçırsa, Biz ona şeytanı hakim edərik və o, şeytanın yaxın dostu olar. Şeytanlar onları doğru yoldan çıxarar, onlar isə özlərinin haqq yolda olduqlarını güman edərlər.”(3)

Ümid edirik ki, qeyd etdiyimiz nöqtələrə diqqət yetirib onlara əməl etməklə şəkkiniz rahatlıq və sabitqədəmliyə çevriləcək! Həyatda həmişə müvəffəq və şad olmağınızı arzu edirik!

۱- [۱]. “Misbahuş-şəriət”, ۲۴-cü bölmə.

۲- [۲]. “Mücadələ” surəsi, ayə ۱۹.

۳- [۳]. “Zuxruf” surəsi, ayə ۳۶-۳۷.

Haqqında mərkəzi

Allahın adı ilə

Rəhman və Rəhimli olan Allahın adı ilə.Və bütün həmdlər aləmlərin rəbbi olan Allaha .məxsusdur

.Varlıq aləminin Kövsəri olan Həzrəti Fatiməyi Zəhraya (a) təqdim olunur

(Bilən kimsələrlə (alimlər) bilməyənlər (cahillər) eynidirlərmi? (Zümər sürəsi, ayə ٩

:Ön söz

İsfahan Qaimiyyə kompüter araşdırmalar müəssisəsi ٢٠٠۶-cı ildən Mərhum Ayətullah Seyyid Həsən Fəqih İmaminin nəzarəti altında,elmi mərkəzlərdə tanınan görkəmli tələbələrin vasitəsi ilə məzhəb,mədəniyyət və elmi sahələrdə öz fəaliyyətinə .başlamışdır

:Məramnamə

İsfahan Qaimiyyə kompüter araşdırmalar müəssisəsi təhqiqatçıların dini biliklərə rahət və tez bir zamanda yiyələnmələri üçün hər bir xidməti onların ixtiyarında qərar vermişdir.Və bu sahədə təəssübkeşlikdən,ictimai,siyasi,fərdi cəryanlardan uzaq duraraq yalnız və yalnız elmi sahədə ixlasla öz xidmətini həyata keçirməkdədir.Bu səbəbdən adı çəkilən müəssisə layihəsini həyata keçirmiş.Və tədqiqat üçün nəzərdə tutulmuş kitabları,məqalələri mütəxəssislər və müxtəlif təbəqələrdən olan insanlar üçün,bir neçə dillərdə və formalarda hazırlayaraq,heç bir məbləğ tələb etmədən sosial .medyada istifadəçilərin ixtiyarında qoymuşdur

:Hədəflər

Quran və Əhli beyt mədəniyyətini və maarifini yaymaq.١

İnsanları,xüsusən gəncləri tam dəqiq şəkildə dini məsələləri araşdırmağa.٢ sövqləndirmək

Telefon,tablet və kompüterlərdə olan faydasız,yararsız mövzuların yerini .٣ faydalı,mənəviyyatlı mövzularla doldurmaq

.Təhqiqatla məşğul olan tələbələrə xidmət etmək.۴

.Kitab və elmi əsərlər oxumaq mədəniyyətini yaymaq.۵

.Müəlliflərin öz elmi əsərlərini digital formada yaymaq üçün onlara şərait yaratmaq.۶

:İcraçılıq

.Qanunla icazəli olan lisenziyaya malik əsərlərin yayımı.١

.Bu mərkəz kimi xidmət göstərən oxşar mərkəzlərlə əlaqə.۲

.(Paralel xidmətlərdən çəkinmək (başqalarının etdiklərini təkrarlamamaq.۳

.Yalnız və yalnız elmi məsələləri yaymaq.۴

.Nəşriyyatın mənbələrini qeyd etmək.۵

.Qeyd:Kitabda olanlara görə məsüliyyət o kitabı yazan müəllifin öhdəsindədir

:Müəssisənin fəaliyyəti

.Kitabların çapı və nəşri.۱

.Kitab oxumaq müsabiqələrinin təşkili.۲

.Məcazi sərgilərin istehsalı.۳

.Kompüter oyunlarının istehsalı.۴

Qaimiyyə internet saytının yaradılması:www.ghaemiyeh.com.۵

.Sərgi məhsullarının və moizələrin istehsalı.۶

.Şər'i,əxlaqi və etiqadi suallara cavab.۷

.Mühasibat,mətbuat yaratmaq və sms... sistemlərinin layihəsi.۸

.Təlim kurslarının həyata keçirilməsi.۹

Tərbiyəçi şəxslər hazırlamaq üçün təlim kurslarının təşkili.۱۰

Kompüterdə,tabletdə və telefonlarda icrası mümkün olan minlərlə proqramların.۱۱ dünyada məşhur olan səkkiz formada istehsalı

JAVA.۱

ANDROID.۲

EPUB.۳

CHM.۴

PDF.۵

HTML.۶

CHM.۷

GHB.۸

.v.Qaimiyyə kitab bazarı adına dörd market

ANDROID.۱

IOS.۲

WINDOWS PHONE.۳

WINDOWS.۴

deyilənlər müəssisənin veb saytında Fars,Ərəb,İngilis və Azərbaycan dillərində pulsuz

.istifadəyə verilmişdir

:Sonunda

Mərcəi təqlid müctəhidlərin dəftərxanalarından (ofis),müəssisələrdən,nəşriyyatçılardan,müəlliflərdən və əməyi olan bütün şəxsiyyətlərdən bizlərə hədəfə çatmaqdan ötrü yardım etdikləri üçün səmimi qəlbdən .təşəkkür edirik

:Mərkəzin ünvanı

İsfahan-Əbdurrəzzaq küçəsi-Hacı Muhəmməd Cəfər adına bazar-Şəhid Muhəmməd Həsən Təvəkküli küçəsi-blok۱۲۹/۳۴-birinci mərtəbə

veb sayt:www.ghbook.ir

mail:Info@ghbook.ir

mərkəzin ofis telefonu: ۰۰۹۸۳۱۳۴۴۹۰۱۲۵

Tehran ofisi: ۰۰۹۸۲۱۸۸۳۱۸۷۲۲

Biznes və alqı satqı: ۰۰۹۸۹۱۳۲۰۰۰۱۰۹

Mərkəzdə çalışan insanlarla əlaqə yaratmaq üçün nəzərdə tutulan nömrə: ۰۰۹۸۹۱۳۲۰۰۰۱۰۹


İsfəhan Qaimiyyə kompüter
araşdırmalar mərkəzi
Qaimiyyə
www
Başqa kitabxanaya sahiblənmək üçün
gördüyünüz sayt mərkəzinə müraciət
etməniz lazımdı:
www.Ghaemiyeh.com
www.Ghaemiyeh.net
www.Ghaemiyeh.org
www.Ghaemiyeh.ir
Və sifariş üçün bizimlə əlaqə saxlayın:
(0098) 0913 2000 109